

## Azərbaycanın prinsipial mövqeyi düşmən tərəfi narahat edir

*Rusiyanın xarici işlər naziri Sergey Lavrov sentyabrın 23-də Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova ilə görüşüb və regional təhlükəsizlik məsələləri, o cümlədən Qarabağ münaqişəsinin nizamlanması perspektivləri müzakirə edilib. Azərbaycan parlamentinin mətbuat xidməti Rusiya Xarici İşlər Nazirliyinin başçısının, guya, "Ermənistan baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağla bağlı açıqlamalarının münaqişənin həlli...*

Səh.13

# UNİKAL

№32 (2027) 26 sentyabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev | www.unikal.org | unikal-1@mail.ru



## Emin Əmirullayev "dərslik monopoliyasına" qarşı

### Yeni nazir təhsilimizin illərdir "qanayan yarasını" sağalda biləcəkmi?

***Azərbaycanın orta məktəb dərsliklərindəki nöqsanlar - tapşırıqların seçimində əksər hallarda şagirdin yaşının nəzərə alınmaması, ağır terminlərdən istifadə, izahların natamamlığı, vulqar ifadələrin işlədilməsi, yaxud orfoqrafik və heca səhvləri, dilin fonetik, leksik və qrammatik normalarının pozulması, məzmun və yazı üslubundakı qüsurlar illərdir hər tədris mövsümü tənqid edilsə də, vəziyyət yaxşılığa doğru dəyişmir.Məsələn, bir müddətdir 7-ci və 8-ci siniflərdə cəbr və həndəsə fənlərinin birləşdirilərək riyaziyyat dərsliyi halına salınması müzakirə mövzusudur.***

Səh.6

Səh.3



## İlham Əliyevdən Ermənistana sərt mesaj: "Hücum etsələr, peşman olacaqlar"

## "Biz düşmənin həmləsinə hazır olmalıyıq"



*Son günlər ölkə müharibə əhval-ruhiyyəsinə köklənib. Ermənistan tərəfinin Azərbaycanın dövlət sərhəddində təxribatlarını davam etdirməsi, ordumuzun itki verməsi, onun ardınca ehtiyata buraxılan hərbi qulluqçuların təlimlərə cəlb olunması savaş əhval-ruhiyyəsini daha da artırıb.*

Səh.4

## Əbülfəs Qarayevin hesab verməli olduğu daha bir qanunsuzluq...



*"Bakı şəhərinin nadir, özünəməxsus, tarixi memarlıq siması var. Bu, bizim böyük sərvətimizdir və hər bir tarixi binaya böyük diqqətlə yanaşılır. O binaların təmiri gərək elə aparılsın ki, onların tarixi görkəmi pozulmasın. Bəzi hallarda tarixi binaları sökürlər, onların yerində eybəcər hündürmərtəbəli...*

Səh.12

## Prezident BMT-nin tribunasından dünyaya mesaj verdi



*BMT-nin informasiya portalı Azərbaycan Prezidenti İlham Əliyevin Baş Assambleyanın 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışını xüsusi xəbər kimi yayıb. Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Mənfur nasist general Qaregin Njde "milli qəhrəmana" çevrilib.*

Səh.9

# Prezident "Qaçqınkom"a 42,5 milyon manat ayırdı



***Prezident İlham Əliyev məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncamda qeyd olunur ki, məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 42,5 milyon (qırx iki milyon beş yüz min) manat ayrılıb.

# Agentlikdən toylarla bağlı açıqlama

***"Əksər şadlıq saraylarının restoran kimi fəaliyyəti var. Həmin ictimai iaşə obyektlərinin toylar formasında yox, vətəndaşlara restoran vasitəsi ilə xidməti var".***

Unikal.org xəbər verir ki, bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) sədrinin müşaviri Elxan Mikayılov deyib.

Onun sözlərinə görə, Agentlik əməkdaşları pandemiya dövründə şadlıq sarayları ilə əlaqədə olub: "Yeni restoranı, kafesi olan şadlıq sarayları



nəzarət olunan məsələlərlə yaxından tanışdılar. Bu, imkan verəcək ki, toylara icazə verildiyi halda şadlıq saraylarında həmin tələblər daha rahat yerinə yetirilsin. Çünki bununla bağlı metodiki təlimatlarımız da var, dövrü olaraq şadlıq sarayları ilə görüşlərimiz olur. Toylara icazə verildiyi halda bütün şadlıq sarayları ilə əvvəlcədən həmin metodiki göstəricilər və qərarlar üzrə maarifləndirmə tədbirləri həyata keçirəcəyik. Çünki toylara icazə verilsə, bu ,ən yüksək yoluxma riski olan sahələrdən biri olacaq. Bu mənada bununla bağlı tənzimləyici normalar müəyyənləşdiriləcək, eyni zamanda müvafiq nəzarət tədbirləri həyata keçiriləcək".

# Koronavirus statistikası: 137 nəfər sağaldı, 101 nəfər yoluxdu, 2 nəfər öldü

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 101 yeni yoluxma faktı qeydə alınıb, 137 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 39787 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 37392 nəfər müalicə olunaraq sağalıb, 583 nəfər vəfat edib, aktiv xəstə sayı 1812 nəfərdir.

Ölkədə son sutka ərzində 1087578, hazırkı dövrədək isə 6705 test aparılıb.

# Ceyhun Bayramov XİN başçılarının iclasında iştirak etdi

***Sentyabrın 25-də Azərbaycan Respublikası Xarici İşlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) üzv dövlətlərinin Xarici İşlər Nazirləri Şurasının video-konfrans formatında keçirilən qeyri-rəsmi iclasında çıxış edib.***

Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. Çıxışında nazir Ceyhun Bayramov dünyada COVID-19 pandemiyasının yayılmasının davam etdiyi bir vaxtda böhran vəziyyətində əməkdaşlıq məsələsinin aktuallıq qazandığını qeyd edərək, tədbir iştirakçılarına pandemiyanın aradan qaldırılması üçün Azərbaycanın beynəlxalq səylərə verdiyi töhfə, o cümlədən BMT Baş Assambleyasının xüsusi sessiyasının və Qoşulmama Hərəkatı Əlaqə Qrupunun Zirvəsinin çağırılması kimi bir sıra vacib təşəbbüsləri barədə məlumat verib.

Pandemiyanın yalnız sağlamlığa deyil, iqtisadiyyata da təsirinin böyük olduğunu qeyd edən nazir, hərtərəfli və davamlı iqtisadiyyat qurmaq üçün transsərhəd ticarəti, bağlılığı və yeniliyi təşviq edən ölkə qismində Azərbaycanın Xəzər dənizi - Qara dəniz əməkdaşlığının inkişafında fəal rolundan danışıb.

Azərbaycanın Qara dəniz bölgəsinin firavan gələcəyinə inandığını qeyd edən nazir Ceyhun Bayramov, bu məqsədə nail olmaq üçün ilkin şərt qismində dövlətlərin müstəqilliyə, ərazi bütövlüyünə və suverenliyinə qarşılıqlı hörmət etmələrinin zəruri olduğunu səsləndirib.

Tədbir zamanı çıxışında BMT Baş katibinin qlobal atəşkəsə riayət olunmasına dair çağırışına Azərbaycanın guya ki, məhəl qoymaması barədə Ermənistan Xarici İşlər nazirinin ənənəvi əsassız iddialarına münasibət bildirən nazir Ceyhun Bayramov Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə məhəl qoymayaraq 30 ilə yaxındır ki, Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu işğal altında saxladığını vurğulayıb. İyulun 12-16-da iki dövlətin sərhədində Azərbaycanın Tovuz rayonu istiqamətində Ermənistanın yeni təcavüz aktına cəhd etdiyi, lakin bu ölkənin siyasi və hərbi məqsədlərinə nail olmadığı qeyd olunub. Ermənistanın Tovuz istiqamətində əvvəlcədən planlaşdırdığı hərbi təxribatının səbəbləri, o cümlədən öz işğalçı siyasətindən arxa plana keçirmək, üçüncü tərəfləri münaqişəyə cəlb etmək, ərazinin yaxınlığından keçən mühüm enerji və nəqliyyat infrastrukturuna zərər vurmaq, nəhayət öz əhalisinin diqqətini daxili problemlərdən yayındırmaq barədə tədbir iştirakçılarına məlumat verildi. Ermənistanın məqsədyönlü şəkildə Azərbaycanın mülki əhalisini hədəfə aldığı və iyul təxribatında 76 yaşlı insanın öz həyatində qətlə yetirildiyi bildirildi.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsinin beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid olaraq qaldığını söyləyən Nazir vurğulayıb ki, Ermənistan silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və digər ərazilərindən nə qədər tez çıxararsa, bir o qədər tez münaqişə həll ediləcək və beləliklə də bölgədə geniş miqyaslı iqtisadi əməkdaşlığa yol açılacaqdır.

Məlumat üçün bildirmək istərdik ki, QDİƏT Xarici İşlər nazirlərinin video-konfrans formatında iclasında 12 üzv ölkədən 7 ölkə Xarici İşlər nazirləri, 5 ölkə isə Xarici İşlər nazirlərinin müavinləri səviyyəsində iştirak edib. Tədbirdə, həmçinin Avropa İttifaqının Qonşuluq və Genişlənmə üzrə Komissarı Oliver Varhelyi çıxış edib.

***Famil***

# 13 şagird koronavirusa yoluxdu



***25 sentyabr üzrə ümumi təhsil müəssisələrində COVID-19-la bağlı məlumat açıqlanıb.***

Unikal.org xəbər verir ki, koronavirusa 13 şagird yoluxub. Hərarəti 37 dərəcədən yüksək olan şagirdlərin sayı 86, işçi heyətinin sayı isə 3-dür.

Virusa yoluxmuş işçi heyəti isə 3 nəfərdir.

Təhsil Nazirliyindən, həmçinin bildirilib ki, bu günə olan məlumata görə, 2 sinif distant təhsilə keçirilib. Ümumilikdə distant təhsilə keçirilən siniflətin sayı 11, məktəblərin sayı isə 1-dir.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# TƏBİB-də bu xidmət vəzifəsi ləğv olundu

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

***Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyində (TƏBİB) struktur dəyişikliyi olub.***

TƏBİB-dən Unikal.org-a bildirilib ki, dəyişikliyə əsasən, qurumda mətbuat xidməti vəzifəsi ləğv olunub.

Bundan sonra mətbuatın sorğuları İctimaiyyətlə əlaqələr şöbəsinin daxilində cavablandırılacaq.

TƏBİB-in mətbuat xidmətinin rəhbəri Rəvanə Əliyeva qurumun Vətəndaş müraciətləri ilə iş şöbəsinə müdir təyin edilib.

Qurumda yeni yaradılan Sənədlər və Vətəndaş Müraciətləri ilə İş departamentinin müdiri vəzifəsinə isə Aygün Əliyeva təyinat alıb.

# Bu nazirliyin 26 işçisi koronavirusa yoluxdu

***"Pandemiya dövründə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 26 işçisi koronavirusa yoluxub".***

Unikal.org xəbər verir ki, bunu ETSN-nin rəsmi "Facebook" səhifəsində "Ekspert saatı" verilişinin canlı yayımında nazirliyin İnsan resurslarının idarə edilməsi şöbəsinin müdiri Orxan Məhərrəmli bildirib.

Onun sözlərinə görə, həmin şəxslər xəstəxanada və ev şəraitində müalicəsini bitirib.

O qeyd edib ki, bir nəfər isə vəfat edib.

## BAŞSAĞLIĞI

Hüseyn İsgəndərov Memarlıq və İnşaat Universitetinin Azad Həmkarlar İttifaqı Komitəsinin sədri Surxay Əliyevin anası Mərmər xanımın vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və mərhumun yaxınlarına başsağlığı verir.

# İlham Əliyevdən Ermənistana sərt mesaj: “Hücum etsələr, peşman olacaqlar”

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.***

“Unikal”xəbər verir ki, Avropa İttifaqının xüsusi nümayəndəsini salamlayan Prezident İlham Əliyev deyib: “Xoş gəlmisiniz, sizi görməyə çox şadam. Bir neçə aydan sonra siz qayıtmısınız, əlbəttə ki, bu, pandemiyaya görə olmuşdur. Lakin karantin rejiminin yüngülləşdirilməsindən sonra sizin bizi ziyarət etməyiniz məni məmnun edir.

Keçən dəfə fevral ayındakı görüşümüzdən bəri regionumuzda bir çox şey dəyişib. Əfsuslar olsun ki, region daha təhlükəsiz bir məkana çevrilməyib. Təəssüf ki, vəziyyət mənfi məcraya doğru gedir. Bu da əsasən Ermənistanın Azərbaycana qarşı davamlı hərbi təxribatlarına görə baş verir. Ən təcavüzkar addım Ermənistan tərəfindən iyulun 12-də atılmışdır. Onlar bizim hərbi mövqeləri və kəndlərimizi atəşə tutmaq üçün artilleriyadan istifadə etmişlər. Bunun nəticəsində hərbi qulluqçular arasında itkilər olmuşdur və bir mülki şəxs də öldürülmüşdür. Ermənistanla dövlət sərhədinə yaxın kəndlərdə bir çox evlər darmadağın edilmişdir. Bundan əvvəl yenə də Ermənistan və Azərbaycan arasında dövlət sərhədində Ermənistanın hərbi təxribatları müntəzəm xarakter daşıyırdı. Lakin budəfəki kimi təcavüzkar formada olmamışdır.

Bildiyiniz kimi, bir müddət əvvəl sərhəddən ordumuz çıxarılmışdır və indi Ermənistanla dövlət sərhədinin böyük bir hissəsi sərhəd xidməti tərəfindən mühafizə olunur. Bu, bizim Ermənistanla dövlət sərhədində heç bir hərbi niyyətlərimizin olmadığını göstərir. Ola bilsin ki, bu, onlara yanlış bir mesaj idi. Onlar bizə hücum edə biləcəklərini, dövlət sərhədini keçə biləcəklərini və yeni əraziləri işğal edə biləcəklərini düşündülər. Bu, Ermənistanın müdafiə nazirinin bəyanatına müvafiqdir. O, bu bəyanatı Amerika Birləşmiş Ştatlarında olarkən vermişdir və demişdir ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə başlayacaq. Bu, Ermənistanın təcavüzkar davranışının davam etməsini aydın nümayiş etdirir. İyulda hücumların məqsədi, dediyim kimi, əsasən Azərbaycanın yeni ərazilərini işğal etmək və sonra danışıqlar masasında daha güclü mövqeyə malik olmaq idi. İkinci səbəb Ermənistan əhalisinin diqqətini daxili problem və çətinliklərdən yayındırmaq idi. Növbəti səbəb, zənnimcə, onlar münaqişəyə üçüncü tərəfləri cəlb etmək istəyirdilər. Məğlub olduqdan dərhal sonra onlar yardım üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etdilər.

Səbəblərdən biri də danışıqlar prosesini pozmaq idi. Bəlkə də başqa səbəblər var idi, lakin düşünürəm ki, bunlar əsas səbəblər idi. Onlar məqsədlərinə nail ola bilmədilər. Onlar yalnız bir məqsədə nail oldular, bu da danışıqların dayanmasıdır. Bütün məsuliyyət Ermənistanın üzərindədir. Onlar danışıqları aparmaq istəmədiklərini nümayiş etdirdilər. İşğal olunmuş ərazilərdə, Xankəndidə Ermənistanın baş nazirinin “Qarabağ Ermənistandır” bəyanatı faktiki olaraq Ermənistanın danışıqları tərk etməsini nümayiş etdirirdi. Çünki əks halda o, bu qəbuledilməz və yanlış bəyanatı səsləndirməkdən çəkinərdi.

Onların danışıqlar prosesini biləərəkdən pozmasının daha bir göstəricisi Dağlıq Qarabağdan olan separatçıları danışıqlar prosesinə cəlb etmək üçün ardıcıl səyləri göstərməsi idi. Bu da tərəfimizdən dərhal rədd edilmişdir və Minsk qrupunun həmsədrləri tərəfindən dəstəklənməmişdir. Başqa sözlə, onlar artıq uzun illərdir ki, mövcud olan danışıqların formatını dəyişmək istəyirdilər. Bildiyiniz kimi, iyul təxribatlarından sonra, avqust ayında onlar təmas xəttinə diversiya qrupunu göndərmişdi və bu diversiya qrupunun başçısı bizim hərbi qulluqçular tərəfindən yaxalanmışdır. O, etiraf etdi və ifadə verdi ki, o və onun dəstəsi



mülki əhaliyə hücum etmək, terror aktlarını törətmək və hərbi qulluqçularımıza hücum etmək üçün göndərilmişdir. Bu, onu göstərir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti davam edir. Onu da göstərir ki, Ermənistan müharibəyə hazırlaşır. Bunun başqa bir göstəricisi odur ki, onlar könüllülərdən ibarət qoşun yaradıldığını elan ediblər və bəyanatlara əsasən, bu dəstələr on minlərlə adamdan ibarət olacaq. Əgər Ermənistan bəzən bəyan etdikləri kimi sülh istəyirsə, əgər onlar danışıqlar istəyirlərsə buna nə ehtiyac var? Onların bu yalan və gülünc bəyanatlar verməsinə və praktiki addımlar atmasına nə ehtiyac var? On minlərlə insandan ibarət könüllü qoşunun bir məqsədi var - Azərbaycana hücum etmək. Onlar bu könüllü qoşunun tərkibinə yaşlı insanları və hətta qadınları daxil edirlər. Onlar işğal olunmuş ərazilərdə qondarma hərbi təlimlər təşkil edirlər ki, bu da bizə qarşı daha bir təxribatdır.

Sözsüz ki, Azərbaycanın qədim tarixi şəhəri olan Şuşada cinayətkar xunta rejiminin qondarma liderinin dırnaqarası andiçmə mərasimini təşkil etmək qərarı onların qəsdən etdiyi daha bir təxribatdır. Siz, həmçinin bilirsiniz ki, ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşması məsələsi Azərbaycan tərəfindən bir çox beynəlxalq təşkilatlarda artıq qaldırılıb. Bu, beynəlxalq hüquqla kobud şəkildə ziddiyyət təşkil edir. Bu, Cenevrə Konvensiyasının pozulmasıdır və bu, cinayətdir. Onlar erməniləri Livandan Şuşaya, digər işğal olunmuş ərazilərə köçürürlər. Onlar bunu nümayiş etdirirlər, televiziya vasitəsilə göstərirlər, internetdə göstərirlər. Faktiki olaraq, beynəlxalq hüquq normalarına tamamilə məhəl qoymurlar və cinayət törədirlər. Onların bu cür davranmaq imkanında olmasının səbəbi ondan ibarətdir ki, onları dayandıran yoxdur. Minsk qrupunun həmsədrləri onları dayandırmır. Minsk qrupunun bəyanatları birbaşa ünvanı olmayan bəyanatlardır. Çünki Azərbaycan heç bir təxribatçı addım atmayıb. Biz dövlət sərhədində onlara hücum etməmişik, diversiya qrupu göndərməmişik, könüllü qoşunun yaradılmasını elan etməmişik, heç bir başqa təxribat törətməmişik. Bütün təxribatlar Ermənistan tərəfindən törədilir və onlar bunu qəsdən edirlər, bunu nümayiş etdirirlər. Onlara beynəlxalq təzyiqin olmaması, - mən bunu Minsk qrupunun həmsədrləri ilə görüşlərdə dəfələrlə qaldırmışam, - çox təhlükəli addımlara gətirib çıxarır ki, bunun da gözlənilməz nəticələri ola bilər.

Bizdə başqa bir məlumat var. Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik, Tovuzda etdiyimiz kimi, başqa bir çox hallarda etdiyimiz kimi. Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar. Mən, sadəcə olaraq, sizin bunu bilməyinizi və bu mesajı Avropa Komissiyasına çatdırmağınızı və Avropa Komissiyasının təcavüzkarın yeni təxribatlarını dayandırmaq üçün nə edə biləcəyini görmək istəyirəm.

Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaar deyib: - Təşəkkür edirəm, cənab Prezident. Mən bir neçə aydan sonra yenidən Bakıda olmaqdan çox şadam. Siz də qeyd etdiyiniz kimi, vəziyyət dəyişib. Son aylarda narahatlıq doğuran çox hadisələr baş verib. Mənim bu gün burada olmağımın xüsusi səbəbi məhz budur. Bilirsiniz ki, ali nümayəndə sizin xarici işlər naziri, eləcə də Ermənistanın xarici işlər naziri ilə təmasda olub. Avropa İttifaqı Cənubi Qafqazda təhlükəsizlik, sabitlik və sülhün olmağında çox maraqlıdır. Mən öz növbəmdə vəziyyətin necə olduğunu öyrənmək üçün buradayam.

***İnformasiya şöbəsi***

## Nazir Siyavuş Novruzovun qardaşının vəzifəsini kiçiltdi

***Millət vəkili Siyavuş Novruzovun qardaşının vəzifəsi kiçildilib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin əmri ilə, Novruzov Məhərrəm Dünyamalı oğlu Dövlət Sosial Müdafiə Fondunun Nizami Rayon Şöbəsinin rəisi vəzifəsindən azad olunub.

Nazirin digər əmri ilə, M.Novruzov ƏƏSMN-nin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi şəxsinin 1 saylı nümayəndəliyinin müdir müavini təyin olunub.

***Elvin Rüstəmov***

## Tahir Mirkişili bu işçi qrupunun üzvlərini topladı

***Sentyabrın 25-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən Azərbaycan Respublikasının Mülki və Vergi məcəllələrinin, “İpoteka haqqında” və “İcra haqqında” qanunların bəzi müddəalarının tənzimlənməsi məqsədi ilə yaradılmış işçi qrupunun iclası keçirilib.***

Unikal.org xəbər verir ki, iclasda işçi qrupunun üzvləri - İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, komitənin sədr müavini Əli Məsimli, deputatlardan Mahir Abbaszadə, Vüqar Bayramov, Aydın Hüseynov, ekspertlər qismində dəvət olunmuş Əmanətlərin Sığortalanması Fondunun İcraçı direktoru Tural Piriyev, İpoteka və Kredit Zəmanət Fondu İdarə Heyəti sədrinin müavini Rəhman Hümmətov iştirak ediblər.

İclasda komitə sədri Tahir Mirkişili çıxış edərək deyib ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 23 iyul 2020-ci il tarixli qərarı ilə ipoteka saxlayanın məhkəmə qaydasında təmin olunmuş tələbi əsasında keçirilmiş təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı sadələşdirilmiş verginin ödənilməsi qaydalarının adı çəkilən qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla tənzimlənməsi Milli Məclisə tövsiyə olunub.

Diqqətə çatdırılıb ki, məsələ ilə bağlı yaradılmış işçi qrupun İqtisadiyyat və Ədliyyə nazirliklərinin, Azərbaycan Banklar Assosiasiyasının nümayəndələri ilə birgə ilk görüşü olub, müzakirələr aparılıb. Müzakirələr zamanı səsləndirilən təkliflər nəzərə alınaraq, hazırda müvafiq qanunların təkmilləşdirilməsi istiqamətində iş aparılır. Burada məqsəd bu sahədə olan qeyri-müəyyənliyin aradan qaldırılması, o cümlədən vətəndaşların kredit götürdükləri zaman qoyduğu girovun, daşınmaz əmlakın satışının şəffaf, əlçatan olması, bankların toksik aktivlərdən azad olunmasına dəstək olmaqdır.

İclasda iştirak edən Əmanətlərin Sığortalanması Fondunun İcraçı direktoru Tural Piriyev, İpoteka və Kredit Zəmanət Fondu İdarə Heyəti sədrinin müavini Rəhman Hümmətov məsələ ilə bağlı fikirlərini bildiriblər. Ekspertlər ipoteka kreditlərinin götürülməsi, əmlakın girov qoyulması, mülkiyyətin qiymətləndirilməsi, qiymətləndiricinin səlahiyyətləri, bank əməliyyatları zamanı yaranan mübahisəli məsələlər və onların həlli yolları, bir sıra digər məqamlar barədə açıqlamalar veriblər. Müzakirələr zamanı deputatları narahat edən məsələlərə aydınlıq gətirilib.

***Hüseyn***

# “Biz düşmənin həmləsinə hazır olmalıyıq”

## Fazil Mustafa: “Müharibəyə soyuqqanlı hazırlaşmalıyıq, lazım olanda da düşmən cinahını dağıdıb torpaqlarımızı işğaldan azad etməliyik”



***Son günlər ölkə müharibə əhval-ruhiyyəsinə köklənib. Ermənistan tərəfinin Azərbaycanın dövlət sərhəddində təxribatlarını davam etdirməsi, ordumuzun itki verməsi, onun ardınca ehtiyata buraxılan hərbi qulluqçuların təlimlərə cəlb olunması savaş əhval-ruhiyyəsini daha da artırıb. Rəsmi Bakının da Ermənistanın təxribatlarına sərt cavabın veriləcəyi ilə bağlı bəyanatları da prosesin gərginləşəcəyindən xəbər verir. Böyük Quruluş Partiyasının başqanı, Millət vəkili Fazil Mustafa “Unikal” qəzetinə müsahibəsində söhbətə elə bu mövzudan başladı.***

***-Fazil bəy, son günlər Azərbaycan-Ermənistan sərhəddində baş verənlər, ehtiyatda olan hərbi qulluqçuların təlimlərə cəlb olunması müxtəlif reaksiyalar ortaya çıxarıb. Nə baş verir?***

-Əslində, ciddi bir şeylərin baş verdiyini söyləmək hələ tezdir. Bizim yaşadığımız gerçəkliklərdir. Ermənistana indi də silahla yardım edilir. Onlar da torpaqları əlində saxlamaq, işğalı legitimləşdirmək üçün Azərbaycanın başqa bölgələrindən hücuma keçir, zərbə vurmağa çalışır. Bir çox hallarda Ermənistanı buna təhrik edirlər ki, daxili gərginlikdən bunun vasitəsilə çıxmaq olar. Azərbaycan da ənənəvi olaraq, müharibə riskini gözə alaraq, hazırlıq aparır. Bu da müsbət haldır. Biri var sonradan hamı desin ki, niyə hazır deyildik, ona görə də indidən hazır olmağımızın nə ziyanı var. Biz düşmənin həmləsinə hazır olmalıyıq. Lazım olanda da düşmən cinahını dağıdıb torpaqlarımızı işğaldan azad eləməliyik. Hazırda da günümüzün gerçəkliyinə uyğun bir canlanma var. Bu canlanma həm diplomatik, həm də hərbi sferada özünü büruzə verir.

***-Diqqətçəkən odur ki, əhali arasında müəyyən çaşqınlıq, gərginlik var...***

-Bunlar yersiz bir şeydir. Hamı qışqırır ki, torpaqları müharibə yolu ilə azad etməliyik. Müharibəyə hazırlıq görəndə də hamı başlayır ki, deyəsən, vəziyyət yaxşı deyil, filan. Kimsə hərbiyə getməlidir, kimsə səfərbər olunmalıdır, hansısa tədbirlər görülməlidir. Burda nə var ki? Yəni, dediyim odur ki, əlahiddə bir şey yoxdur. Biz onsuz da bu gərginliyin içində yaşamalı olan bir xalqıq.

***-Əslində, maraqlı bir məqama toxundunuz. 14 iyulda insanların reaksiyası ilə son bir neçə gündəki reaksiyası adekvat olmadı. Məmurların övladlarının yayınması məsələsi yenidən gündəmə gəldi və sair...***

-Nə istədiyini bilməyəndə axtardığını dəyərləndirə bilməzsən. Xalqlarda da belədir. İnsanların böyük əksəriyyəti nə istədiyini bilmir. Öz yaşamında öz uğursuzluğunun səbəbini başqa yerdə axtarmağa başlayır. Bir söz var. Hamı öz yaddaşından gileylənir, amma ağlından gileylənən yoxdur. Nə istədiyini bilmək çox vacibdir. Cəmiyyət bir tərəfdən deyir ki, torpaqlar azad olunsun, amma həm də deyir ki, torpaqlarımızı qaytarıb bizə versinlər. Kim tutduğu torpağı qaytarar? Otuz ildir müharibə gedir Bakıda bina tikən bir adam sənəd verəndə demir ki, mən binamın altını sığınacaq üçün nəzərdə tutmuşam. Hamı bar üçün, anbar, mağaza üçün nəzərdə tutur. Buna erməni, rus, Amerika nə eləsin?

***-Bu, tikənin ağlına gəlmir, yaxud marağında deyil, bəs ona icazə verən dövlət qurumu, cavabdeh məmur hara baxır?***

-Dövlət də xalqın məcmuyudur da, xalqın düşüncəsi nədirsə, dövlət onun mahiyyəti üzərində qurulur. Məmur həmin o ailədən çıxıb, laqeyddir, təhlükəni görmür. Müharibə aparılan dövlətdə hansı ağılsız hərbi dərsləri ləğv edər? Nə olsun ki, bir dəfə qumbara partlayıb. Çox belə hadisə ola bilər, amma hərbi dərslər ləğv olunmamalıdır. Pulsuz atıcılıq klubu nədir ki, yaradın, cavan uşaqlar avaralanmaq əvəzinə, ora gedib öyrənsinlər.

Şəhid dəfnlərində bir məsələyə diqqət elədim. Bilirsiniz, müharibə aparan xalq stresi bu qədər büruzə verməməlidir. Yanındakı əsgər ölürsə, onun yanında qalmamalıdır, özü döyüşə getməyi düşünməlidir. Kompleks düşünməliyik ki, savaş vətəndaşla aparılır. Hansı cəmiyyətdə deyilir ki, kasıb uşaqları ölür, varlı uşaqları yox?

***-Bu giley-güzarın əsas var axı...***

-Əlbəttə. Doğru sözdür, əsası var. Amma sizə bir şey deyim. Həmin kasıb varlının əsgərliyə getməyən, yaxud da bakıda keflə əsgərliyini çəkən oğluna qızını məmuniyyətlə verir. Niyə verir? Türkiyədə vermirlər axı. Bu əxlaq məsələsidir. Mən də varlı olandan sonra yol axtarıram ki, oğlumu xidmətdən yayındırım, ya da Bakıda xidmət keçməsinə nail oluram. Bunu etməyənlər də var. Amma bunu prinsip olaraq, anlayan insan obrazının sayı çox deyil. Kasıb da gedib borc götürüb kiməsə min, iki min pul verib uşağının daha rahat xidmət keçməsinə çalışır. Amma burada qanun işləməlidir. Qanun da odur ki, kompyuterdə bölünür, heç kim də müdaxilə edə bilmir.

***-Bax, məsələnin kökü də buradadır. Bu qanun işləsəydi, vəzifəli şəxslərin övladları da ön xətdəki hərbi hissələrdə xidmət keçərdi. Burada problem cəmiyyətlə yanaşı, qanunun işləməməsində deyilmi?***

-Təbii ki, problem qanunun işləməməsindədir, tələb olunmamasındadır. Sosial müavinət institutu var. Nə qədər adam pul verib özünə pensiya düzəltdirdi. Bunlar kim idi? Varlılar deyildi ki.

***-Vətəndaş özü-özünə pensiya düzəldə bilməz ki, onu edən dövlətin səlahiyyətli şəxsləridir...***

-Mən sizi başa düşdüm. Mağaza açıqdır, qarovulu da yoxdur deyə, girib oğurluq eləməlisən? Yox. Avropada hasar yoxdur, ya da simvolik hasarlardır, amma bizdə 3 metrdən hündürdür. Heç kimin etimadı yoxdur. Demək istədiyim odur ki, biz bunu kompleks həll eləməliyik. Ədalətsizlik cəmiyyətdən götürülməlidir. Bütövlükdə cəmiyyətin özünün əxlaqında dəyişiklik olmalıdır. Hər bir məsələdə bəhanə gətirmək olar. Son prosesdə Azərbaycan ziyalısının, ictimai fəallarının və digərlərinin çirkinliklərini o qədər müşahidə elədim ki. Bu çox pis tendensiyadır. Gördüm ki, cəmiyyətdə dəyərləndirmə yoxdur. Elə məsələlər var ki, onu cəmiyyətdə təmizləməsək, dövlət də düzəlməyəcək. Cəmiyyətin alt qatında dünya görüş dəyişməyincə başqa şeylər dəyişməyəcək. Bir azğınlaşan məmurun yerinə yoxsul təbəqədən birini gətirəndə görəssən ki, əvvəlkinə şükr edilməlidir. Birdən pulun içinə düşəndə həmin o kasıb adam tam fərqli bir davranış sərgiləyəcək.

***-Əgər cəmiyyət budursa, o zaman qanun, onun tətbiqi və nəzarət mexanizmi ona uyğunlaşdırılmalıdır?***

-Yox, bu qanunla düzələn məsələ deyil. Təhsili, elmi, akademiyanı, universiteti ideologiyadan uzaqlaşdırmalıyıq. Onları düşüncə mərkəzlərinə çevirməliyik. Düşüncə mərkəzi olanda gerçək alim yetişir. İndi 90 faizi elmi işini pulla yazdırır. 10 faiz alim var, onların da ürəyi partlayıb ölür. Ona görə də ortaya çıxarmağa 5-6 dəyərli alimimiz yoxdur. Fikir vermirsiniz ki, cəmiyyət həyatına təsir edən düşüncə adamı yoxdur? Bir siyasətçi kimi prosesə girəndə narazılıq yaranır ki, Milli Məclisin üzvü niyə belə deyir. Cəmiyyəti silkələmək lazımdır. Yanlış dəyərləri demək lazımdır. Bunu siyasətçi kimi deyəndə böyük bir kütləni itirirsən. Bunu ziyalılar çıxıb deməlidir. Müstəqil alimlər çıxıb cəmiyyətin yanlış tərəfini deməlidir, keçmişi təftiş eləməlidir. Ziyalılar qaragüruhçuluğa təslim olub. Alim sosial şəbəkələrdə kütləyə yaltaqlanır. “Birdən bu sözü deyərəm, xoşa gəlməz məni linç edərlər” düşüncəsi ilə yaşayırlar. Əslində, çıxıb cəsarətlə sözünü deməlisən, cəmiyyəti stimullaşdırmalısan. Bunlar edilməyincə boşluqlar qalacaq. Müharibə məsələsində də bunlar üzə çıxır. Reaksiyalar belə olmamalıdır. Biz daha soyuqqanlı yanaşmalıyıq. Fövqəladə bir şey baş verməyib. Düşmən əlində silah bizi öldürmək istəyir. Bu savaşda insan ölümü qaçılmazdır. Sən də onu öldürməlisən. Yəni, müharibəyə soyuqqanlı hazırlaşmalıyıq. Elə məsələlər var ki, bu gün onları təhlil edib düzgün addımlar atmasaq sabah çox ağır nəticələri ola bilər. Dövlət Ordusu ilə ayaqdadır. Vətəndaş olaraq hər birimiz hansı sahədə dəstək verə biləriksə, o istiqamətdə bütün gücümüzlə çalışmalıyıq.

***Z.Məmmədli***

# Dövlət satınalmaları ilə bağlı qaranlıq məqamlar ortaya çıxır

## Məmurların "manatlıq" şirkətlərlə milyonluq sövdələşmələri - şok təfərrüatlar...



***Budur, yerli KİV yazır ki, Azərbaycanda cəmi 1.6 manatlıq kapitalla yaradılan "Elnur-2" Universal İstehsalat Kommersiya Şirkəti Astara Rayon İcra Hakimiyyətinin təkcə son 10 ayda ümumi məbləği 1 milyon manat təşkil edən tenderlərinin qalibi elan edilib.Hələ bu harasıdır? Eyni şirkət 2019-cu ilin əvvəlindən indiyədək 8 tenderdən 10 milyon 73 min 212 manat qazanıb!***

Azərbaycan reallığında tez-tez rastlaşdığımız faktdır və artıq təəccüblü qarşılanmır. Biz buna bənzər hallarla addımbaşı qarşılaşırıq; məsələn, təzəlikcə cəmi 10 manatlıq kapitalla yaradılan "Ərdağı" adlı Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) 2020-ci ilin aprel-sentyabr aylarında ümumilikdə 9 milyon 218 min 722 manatlıq 7 tender qazandığı açıqlanmışdı!

Yaxud Ağdaş rayon İcra Hakimiyyəti tikinti işlərinin satın alınması üçün keçirdiyi tenderin qalibi kimi "Simmetriya" adlı MMC-ni elan edib. Udulan tenderin məbləği 2 milyon 340 min 195 manat, tenderi udan şirkətin nizamnamə kapitalı isə vur-tut 6 manatdır.- Belə nümunələrin sayını bəs deyincə artırmaq olar; lakin elə yuxarıdakı örnəklərdən də real mənzərə kifayət qədər aydındır. Necə deyərlər, "kor-kor, görgör". Üstəlik, yerli mətbuat və ictimaiyyətdə bu məsələ illərdir bəs deyincəyədək müzakirə olunmasına baxmayaraq, dəyişən heç nə yoxdur. Əsasən, icra başçıları daxil olmaqla, bir sıra dövlət orqanları öz satınalmalarının qalibi kimi az qala qəpik-quruş kapitalla yaradılan şirkətlərə büdcənin milyonlarla manatlıq satınalmalarını həvalə edirlər.

Düzdür, son zamanlar İqtisadiyyat Nazirliyinin tenderlərlə bağlı nəzarətinin gücləndiyi hiss olunur; lakin bu, dövlət satınalmalarında şəffaflığın tam təmin edildiyini söyləmək üçün ciddi əsas yaratmır. Hələ də bir sıra məmurlar bu satınalmalara büdcə vəsaitlərinin havaya sovrulmasının "asan yolu" kimi baxmağa davam edirlər.

"Unikal" qəzeti olaraq, yaxın sayların birində "Məmurların tender oyunları" başlıqlı yazı dərc edib dövlət satınalmalarındakı qaranlıq məqamlarla bağlı ətraflı bəhs etmiş və ölkədə korrupsiyanın kökünün kəsilməsinə həm də dövlət satınalmalarından başlamağın zəruriliyinə toxunmuşduq. Həmin yazıdakı fikirləri təkrarlamağa ehtiyac görmürük. Bu dəfə yazımızın hədəfi bir qədər fərqlidir: "manatlıq" kapitalla yaradılan MMC-lər necə olur ki, milyonluq tenderlərin qaliblərinə çevrilirlər?

Qəzetimizin bu mövzuda söhbətləşdiyi adının çəkilməsini istəməyən mənbə bildirib ki, həmin şirkətlər adətən bu və ya digər şəkildə məmurlarla bağlı olur: ya həmin vəzifəli şəxslərin biznesinin bir parçasıdırlar, ya da bu MMC-lərlə həmin məmurları bağlayan başqa tellər var - məsələn, qohumluq, dostluq, tanışlıq, şəriklik, "tapşırıq" kimi...

"Təsəvvür edin ki, bir şirkət il ərzində hansısa nazirliyin və ya rayon, yaxud şəhər icra hakimiyyətinin bir neçə milyonluq satınalmasını qazanır. İnternetə daxil olub həmin şirkət barədə informasiya axtarırsan. Aydın olur ki, əksəriyyətinin hətta veb saytları belə yoxdur. Bunu necə başa düşmək olar? İndiki dövrdə internet resursa malik olmaq iş dünyasının başlıca prinsiplərindən biridir, şəffaflıq və etibarlılıq göstəricisi sayılır. Heç bir normal ölkədə veb saytı belə olmayan bir şirkətə milyonlarla manatlıq satınalmanı həvalə etməzlər. Bizdə isə bu, təəssüf ki, sıradan hala çevrilib" deyən həmsöhbətimiz başqa bir maraqlı nüansa da diqqət çəkir: "Tez-tez rastlaşdığımız absurd məqamlardan biri isə hansısa MMC-nin yarandıqdan hətta cəmi bir-iki gün sonra iri tenderlərin qalibinə çevrilməsidir. Elə bu absurd məqamın özü satınalma ilə bağlı müsabiqənin şəffaf keçirilmədiyini, rəqabət prinsipindən kənara çıxdığını, hansısa qaranlıq nüanslar hesabına baş tutduğunu söyləmək üçün əsas verir. Axı necə ola bilər ki, dünən yaradılmış bir şirkət bu gün 5-6 milyon manatlıq tender udsun? Böyük işləri görmək böyük təcrübə tələb edir. Sənin keçmişdə belə işlər həyata keçirdiyini kimsə görməlidir ki, sənə inansın, güvənsin. Yəni istənilən halda bir prestijin, uğur hekayən olmalıdır. Nə yazıq ki, Azərbaycanda da bu qayda da işləmir".

Həmsöhbətimiz yaranmış situasiyanı məmurların büdcə vəsaitlərinə xalqın və dövlətin malı kimi, "dədə malı" kimi baxmasının nişanəsi sayır. "Onlar üçün büdcə pullarının bircə təyinatı var: talançılıq! Nəyin bahasına olur olsun, həmin pulları havaya sovurmaq, öz ciblərinə yönəltmək istəyirlər, nəticədə isə bunun fərqli hiylələrini fikirləşib tapırlar. Həmin hiylələrin bir çoxu elə müəmmalı, şübhəli tenderlər vasitəsi ilə həyata keçirilir".

"Bu fikirlə qəti şəkildə razıyam ki, ölkədə korrupsiyaya qarşı mübarizənin səmərəliliyini, effektliliyini artırmaq üçün keçirilən satınalma müsabiqələrinə nəzarət gücləndirilməli, ayrı-ayrı dövlət qurumlarının tender komissiyalarında hansı işləklərin olduğu, fırıldaqların çevrildiyi gün işığına çıxmalıdır. Belədə hamılıqla indiyədək satınalmalar adı altında dövlət vəsaitlərinin məmur tamahkarlığına qurban getməsinin miqyası aydınlaşacaq və əminəm ki, hamıda şok effekti yaradacaq" - deyə qaynağımız sonda bildirib.

***Toğrul Əliyev***

# I vitse-spiker Prezidentin BMT-dəki nitqini tarixi çıxış kimi dəyərləndirib

***Milli Məclisin I vitse-spikeri Əli Hüseynli Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasındakı çıxışına münasibət bildirib.***

"Unikal" xəbər verir ki, Ə.Hüseynli qeyd edib ki, BMT-nin Baş Assambleyasının 75-ci sessiyasında videoformatda çıxış edən Prezident İlham Əliyev BMT-nin bir təşkilat kimi fəaliyyətinə, pandemiya zamanı dünyada baş verən proseslərə, xüsusən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, həmçinin də Azərbaycanın bir dövlət kimi əldə etdiyi nailiyyətlərə obyektiv qiymət verib:

"Cənab Prezident çıxışında bir daha Ermənistanın işğalçı mahiyyətini dünya ictimaiyyətinə çatdırıb. O, Ermənistan rəhbərliyinin avtoritar, mürtəce, insan hüquqlarına zidd siyasətinə baxmayaraq beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının buna göz yumduğunu söyləyib. Prezident həmçinin iyul ayında Tovuz bölgəsində Ermənistan hərbi birləşmələri tərəfindən törədilən təxribat zamanı bu ölkəyə xaricdən külli miqdarda silah-sursat ötürülməsini bir daha açıqlayıb və bunu sülh danışıqlarına ciddi zərbə vurduğunu göstərib.

Prezident həmçinin Azərbaycanın həm siyasi, həm iqtisadi islahatlar çərçivəsində əldə etdiyi nailiyyətləri də diqqətə çatdırmışdır. Bununla yanaşı, o vurğulayıb ki, pandemiyadan sonrakı dövrdə bütövlükdə beynəlxalq münasibətlərdə yeni yanaşmalar və islahatlar aparılmalıdır".

Əli Hüseynli əlavə edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Təhlükəsizlik Şurasının Qətnamələrinin icra mexanizminin yaradılması ilə bağlı təklifi və yeni yanaşma xüsusi əhəmiyyət kəsb edir.

# Tanklarımız atəş mövqeyinə çıxarıldı

***Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq tank və artilleriya bölmələri ilə döyüş hazırlığı üzrə məşqlər keçirilir.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, məşqlərin məqsədi tank və artilleriya bölmələrinin şəxsi heyətinin peşəkarlığının artırılması, döyüş əməliyyatlarının planlaşdırılması və icrası zamanı qarşılıqlı fəaliyyət vərdişlərinin təkmilləşdirilməsidir.

Döyüş uzlaşması zamanı fəaliyyət göstərən bölmələr atəş mövqelərini tutublar.

# Nazirlik xaricdə təhsil alanlara müraciət etdi

***Azərbaycan Respublikasında, eləcə də dünyanın bir çox ölkəsində koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədi ilə ali təhsil müəssisələrində tədris prosesi müvəqqəti dayandırılıb və tələbələrin dərslərdə fiziki olaraq iştirak etmədən təhsillərini davam etdirmələrinə şərait yaradılıb.***

Təhsil Nazirliyindən "Unikal"a verilən məlumata görə, mövcud vəziyyətlə əlaqədar olaraq, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Qaydaları"nın tətbiqi zamanı "Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında" Konvensiyaya (Lissabon Konvensiyasına) üzv ölkələrin Milli Məlumat mərkəzlərindən, üzv olmayan ölkələrin isə səlahiyyətli orqanlarından və ya aidiyyəti ali təhsil müəssisəsindən əldə olunan rəsmi məlumat əsasında sözügedən məqam nəzərə alınacaq.

Eyni zamanda vətəndaşların Təhsildə Keyfiyyət Təminatı Agentliyinin internet səhifəsinin (www.tkta-.edu.az) "Nostrifikasiya" və "Mütəmadi verilən suallar" bölmələri ilə tanış olmaları tövsiyə edilir.

***Murad***

# DİM abituriyent və subbakalavrlara müraciət etdi

***Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqədə iştirak edən abituriyent və subbakalavrlara müraciət edib.***

DİM-dən "Unikal"a bildirilib ki, qəbul qaydalarına əsasən, orta ixtisas təhsili pilləsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslər qəbul imtahanında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququna malikdirlər.

Subbakalavrlar yalnız orta ixtisas təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisas uyğun olan ixtisasları seçə bilirlər. İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin qəbul planı çərçivəsində əvvəlcə abituriyentlərin, bundan sonra isə boş plan yeri qalarsa, subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılır.

Burada eyni bir yerə iddia edən iki və daha artıq subbakalavrı fərqləndirmək məqsədilə əvvəlcə orta ixtisas təhsili pilləsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG), bu göstərici də eyni olduğu təqdirdə attestata fənlər üzrə yazılmış yekun qiymətlərin ədədi ortası nəzərə alınır.

Müsabiqənin nəticələri elan olunarkən DİM tərəfindən abituriyentə təqdim olunan arayışda onun ərizəsində qeyd etdiyi ixtisaslara qəbul üzrə minimal keçid balları da əksini tapır. Minimal keçid balları "Abituriyent" jurnalının 7-ci sayında da təqdim olunur. Burada hər hansı bir ixtisasa abituriyentlərlə yanaşı, subbakalavrlar da qəbul olubsa, keçid balı kimi ən aşağı göstəriciyə malik subbakalavrın kollec təhsili üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (balı) də qeyd olunur. Yəni yuxarıdakı qaydaya uyğun olaraq (eyni bir yerə iddia edən iki və daha artıq subbakalavrı fərqləndirmək məqsədilə orta ixtisas təhsili pilləsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınır) hər hansı bir ixtisasa ən aşağı balla qəbul olunan subbakalavrın ÜOMG-si də göstərilir.

Dünən sosial şəbəkələrdə və müəyyən xəbər saytlarında süni diqqət toplamaq üçün subbakalavrların ÜOMG-si qəbul imtahanından toplanılan bal kimi qeyd olunub və bu da bəzi ixtisaslara keçid balları ilə bağlı yanlış təəssüratın yaranmasına səbəb olur.

Bir daha qeyd edirik ki, subbakalavrlar qəbul imtahanında iştirak etmədən müsabiqəyə qoşulurlar və hər hansı bir ixtisasa subbakalavr qəbul olubsa, həmin ixtisas üzrə keçid balı kimi göstərilən bal qəbul imtahanı balı deyil, subbakalavrın kollec təhsili üzrə ümumi orta müvəffəqiyyət göstəricisidir.

Nümunə kimi bir subbakalavrın müsabiqə nəticələri haqqında arayışının fotosurətini aşağıda təqdim edirik. Subbakalavrın ÜOMG-si 81.5944 baldır və müsabiqədən keçməyib. Onun ərizəsində qeyd elədiyi 1-ci ixtisasa ən aşağı balla qəbul olan abituriyent olub və minimal keçid balı 188.5 baldır. İkinci yazdığı ixtisasa da ən aşağı balla abituriyent qəbul olub və minimal bal keçid balı 211.6 baldır. 3-cü yazılan ixtisasa isə ən sonuncu qəbul olan subbakalavrdır və ona görə də ixtisas üzrə "minimal keçid balı sətrində" həmin subbakalavrın ÜOMG-si (91.3556) göstərilib.

# XİN başçısı Yunanıstanın yeni səfirini qəbul etdi



***Sentyabrın 25-də Xarici İşlər naziri Ceyhun Bayramov Yunanıstanın Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqosu qəbul edib.***

Bu barədə Unikal.org-a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Görüşdə ikitərəfli əməkdaşlıq gündəliyində duran bir sıra məsələlər, o cümlədən siyasi, iqtisadi, ticarət, humanitar və digər sahələrdə əlaqələr barədə fikir mübadiləsi aparılıb.

Hər iki tərəf vurğulayıb ki, ikitərəfli münasibətlərə böyük əhəmiyyət verirlər və bu əlaqələri hər iki ölkənin qarşılıqlı mənfəəti naminə bütün sahələrdə daha da inkişaf etdirməyə hazır olduqlarını ifadə ediblər.

Xüsusilə də Azərbaycan ilə Yunanıstan arasında əməkdaşlıq potensialından tam istifadə olunmasının vacibliyi vurğulanıb.

Tərəflər beynəlxalq təşkilatlarda əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələləri də müzakirə ediblər.

# Emin Əmirullayev "dərslik monopoliyasına" qarşı

## Yeni nazir təhsilimizin illərdir "qanayan yarasını" sağalda biləcəkmi?

***Azərbaycanın orta məktəb dərsliklərindəki nöqsanlar - tapşırıqların seçimində əksər hallarda şagirdin yaşının nəzərə alınmaması, ağır terminlərdən istifadə, izahların natamamlığı, vulqar ifadələrin işlədilməsi, yaxud orfoqrafik və heca səhvləri, dilin fonetik, leksik və qrammatik normalarının pozulması, məzmun və yazı üslubundakı qüsurlar illərdir hər tədris mövsümü tənqid edilsə də, vəziyyət yaxşılığa doğru dəyişmir.Məsələn, bir müddətdir 7-ci və 8-ci siniflərdə cəbr və həndəsə fənlərinin birləşdiriləcək riyaziyyat dərsliyi halına salınması müzakirə mövzusudur.***



Ekspertlərin fikrincə, bu, ölkədə dəqiq elmlərin tənəzzülünə aparıb çıxara bilər. Hansı ki, onsuz da son illər ölkədə dəqiq elmlərin mənimsənilməsi xeyli zəifləyib.Hardasa iki il öncə deyilirdi ki, müəlliflər dərsliklərin ictimai müzakirəsi zamanı beynəlxalq təcrübənin tətbiqi ilə dərs yükünün azalacağını iddia ediblər, bu həm də məktəbli çantalarını yüngülləşdirəcəkmiş. Halbuki ekspertlər bunu doğru saymırlar. Əvvəla ona görə ki, çantanı dərsliklər deyil, əlavə vəsaitlər, testlər ağırlaşdırır, hansı ki, şagirdlər bu vəsaitlərin köməyi olmadan mövzunu tam mənimsəyə bilmirlər.

İkincisi, dərs yükünü azaltmaqdansa dərsliklərin səviyyəsini artırmaq, onların şagirdlər üçün daha aydın, anlaşıqlı yazılmasını təmin etmək lazımdır. Məsələn, ibtidai siniflər üçün "Həyat bilgisi" dərsliklərinə göz atmaq kifayətdir ki, onların istər dil-üslub, istərsə də şagirdlərin yaşına, qavramasına uyğun mətnlərdən çox uzaq olduğunu görəsən. Bir sözlə, hazırda dərsliklərdəki qüsurlardan, onların əksəriyyətinin ümumi səviyyəsindən müəllimlər də narazıdır, şagirdlər və valideynlər də... Ötən illərdə bu narazılıqlarla bağlı qarşı tərəfin - istər Təhsil Nazirliyi, istərsə də müəlliflərin müxtəlif arqumentlərini eşitmişik. Lakin həmin arqumentlər giley-güzarları səngitmir. Çünki əksər hallarda ağlabatan görünmür.

Bəzən müəlliflər özlərinə haqq qazandırmağa çalışırlar ki, dərslik yazmaq çətin işdir, qüsurlardan hali deyil. Belədə isə müəllimlər bildirirlər ki, dərslik yazmaq çətin məsələdirsə, qüsurlar mütləq olmalıdırsa, qoy onda alternativ dərsliklər yazılsın, müəllimlərin seçim imkanları artırılsın. Axı digər ölkələrdə belə təcrübə var. Yoxsa dərsliklərin yazılmasını monopoliyada saxlamaq, bəlli bir dairə ilə məhdudlaşdırmaq problemləri həll edə bilməz.

İnsafən, Misir Mərdanovdan sonra Təhsil naziri postunu tutan Mikayıl Cabbarov və Ceyhun Bayramovun zamanında irəliyə doğru müəyyən addımlar atılıb. Alternativ dərsliklərin yaradılması istiqamətində işlər sürətlənib. Lakin bu, hələ ki, problemin köklü həllinə gətirib çıxarmayıb.

Elə yeni Təhsil naziri Emin Əmirullayevdən ən böyük gözləntilərdən biri də Azərbaycanda dərslikləri mübahisə mövzusuna çevirən məsələlərə son qoymaqdır. Məsələn, əvvəlki illərdə Azərbaycanda yaxşı dərsliklərin yazılması üçün yaradılan bir sıra qurumların - dərslik nəşriyyat şöbəsi və ya Dərsliklərin Qiymətləndirmə Şurasının fəaliyyəti gücləndirilməli, daha şəffaf vəziyyətə gətirilməlidir. Həmin qurumların təşkilindən sonra da dərsliklərdə ciddi qüsurların qalması bundan xəbər verir.

Ekspertlərin fikrincə, dərsliklərin yazılmasında, tərtibatında ən qısa vaxt ərzində dəyişikliklərə imza atılmalıdır. Əks halda, bu, ölkədə təhsilin keyfiyyətinə mənfi təsirini davam etdirəcək. Xüsusilə Misir Mərdanovun ciddi-cəhdlə qarşı çıxdığı alternativ dərsliklərin yazılması sürətlənməli və genişləndirilməlidir.

Unudulmamalıdır ki, dərsliklər Azərbaycanın gələcəyini təyin edən strateji vasitələrdir. Onların hər bir baxımdan keyfiyyətli olması eyni zamanda inşa edilən gələcəyin özüllərinin də möhkəm, sarsılmaz olması deməkdir.

"Azərbaycanda dərslik yazan yoxdur" kimi təhlükəli fikir formalaşdırılıb. Məqsəd də odur ki, dərsliklərin yazılması müəyyən adamların, nəşriyyatların inhisarında qalmağa davam etsin. Bu tamamilə yanlış, yerli-dibli səhv düşüncə ortadan qalxmalıdır. Dərsliklər kimlərinsə qazanc mənbəyi olmamalıdır.

Bəli, razıyıq ki, şagirdlərin mümkün qədər asan qavrayacağı dildə tərtib olunan, eyni zamanda onlara müasir dövrün tələbləri ilə uzlaşan biliklər qazandıran dərsliklərin işlənib hazırlanması Misir Mərdanovdan sonra Təhsil Nazirliyinə rəhbərlik edənlər üçün prioritetlərdən biri və təhsil islahatlarının mühüm tərkib hissəsidir. Lakin hələ də çoxsaylı problemlər qalır və cəmiyyət ümid edir ki, yeni Təhsil naziri bu problemləri birdəfəlik yoluna qoyacaq.

Yəqin ki, Emin Əmirullayev də ictimaiyyətin dərsliklərlə bağlı illərdən bəridir davam edən gözləntilərinin fərqindədir. Yeni nazirin həmin gözləntiləri doğrultmaq istiqamətində konkret addımlar atacağı şübhə doğurmur. Bu inamın həyata keçib-keçməyəcəyini isə zaman göstərəcək. Odur ki, bir az da gözləyək...

***Elvin Rüstəmov***

# "Xəzər İaşə"dən narazılıqlar nə vaxtadək davam edəcək?

***Azərbaycanda son vaxtlar xüsusilə sürətlənən idarəçilik islahatları ölkədəki hər bir qurumun öz işinə yenidən, tənqidi gözlə baxmasını, fəaliyyətini yeni dövrün çağırış və standartlarına uyğunlaşdırmasını tələb edir. Lakin təəssüf ki, hər qurumdan bu çağırış və standartlara qovuşmaq istiqamətində yetərincə çalışqanlıq, əzmkarlıq görmürük. Onların reallıqlara, problemlərə baxışı hələ də əvvəlki illərin "prinsiplərinə" əsaslanır: şikayətləri, narazılıqları yox saymaq, gizlətməyə səy göstərmək.***

Halbuki ölkədə aparılan islahatların ruhu aydındır: problemi görmək və onun üstünə getmək - onu həll etmək! Yalnız bu halda vətəndaş məmnuniyyətinə nail olmaq mümkündür.

Yuxarıdakı sətirləri boş yerə yazmadığımızı isbatlamaq üçün son günlər yenidən aktuallıq qazanan və məsul şəxslərin inadla, israrla yalan adlandırmağa çalışdıqları bir məsələni örnək göstərə bilərik.

Uzun illərdir "Azneft" İstehsalat Birliyinin strukturuna daxil olan idarə və müəssisələrdə (xüsusilə də dəniz obyektlərində) iaşə xidməti göstərən "Xəzər İaşə" MMC-nin fəaliyyətindən narazı qalan neftçilər öz giley-güzarlarını dilə gətirirlər. Xəzər rayonu, Pirallahı qəsəbəsində yerləşən və sovetlər dönəmində fəaliyyət göstərmiş Fəhlə Təhcizatı İdarəsinin bazasında yaradılan bu şirkət Neftq və Qaz Çıxarma İdarələrini (NQÇİ), eləcə də Neft Daşlarında çalışan işçiləri yeməklə təmin edir. Lakin uzun zamandır işçilər bu MMC-nin fəaliyyətindən narazıdırlar: həm yeməkxanadakı yeməklərin keyfiyyətinin aşağı olduğunu deyir, həm də onun Neft Daşlarında fəaliyyət göstərən mağazalardakı ərzaq mallarının sahildəki mağazalardakı qiymətdən qat-qat baha satıldığını bildirirlər.

Bu günlərdə "Xəzər İaşə" ilə bağlı giley-




güzarlar yenidən gündəmə gəldi. Neftçilər yerli mediaya bildiriblər ki, onlara evdən yemək, ərzaq gətirilməsi qadağan olunub, hazırda karantin vaxtı dənizdə daha çox qalmalı olduqlarından bu ərzaqları almağa məcburdurlar.

İşçilər onu da bildiriblər ki, yataqxanalardakı mətbəxdən istifadə etməyə, işçilərin özləri üçün yemək bişirməyə icazələri yoxdur, məhz buna görə də "Xəzər İaşə"nin təklif etdiyi qidalardan başqa seçim qalmır.

Maraqlıdır ki, Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının rəhbəri Mirvari Qəhrəmanlı da deyilənləri təsdiqləyib. O da bizim yuxarıda yazdqılarımızı təsdiqləyib və bildirib ki, illərdir "Xəzər İaşə"dən şikayətlər daxil olur. O özü də dəfələrlə keyfiyyətsiz yeməklərin foto görüntüsünü yayıb. Ən qəribəsi isə odur ki, işçilərin, indiki halda neftçilərin hüquqlarını, haqlarını qorumalı olan Azərbaycan Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cahangir Əliyev ötən il sözügedən müəssisədən edilən şikayətlərdən biri ilə bağlı "anews.az"a açıqlamasında deyib:""Xəzər İaşə" ilə əməkdaşlığ artıq uzun illərdir davam edir. Bu, 3 il deyil, 5 il deyil. Hər zaman belə olub, fəhlələrin biri yeməyi bəyənir, biri bəyənmir... Mirvari Qəhrəmanlı da çox şey yaza, paylaşa bilər, ancaq gedib baxmaq lazımdır ki, görək deyilənlər həqiqətə uyğundur, ya yox?.. Əgər narazılıq varsa, gedib baxılacaq. Ondan sonra bir şey demək olar".Lakin həmin açıqlamadan bir ildən artıq vaxt keçsə də, vəziyyət dəyişməyib, neftçilər yenə şikayətçidirlər.

O da maraqlıdır ki, Rövnəq Abdullayevin rəhbərlik etdiyi Azərbaycan Respublikası Dövlət Neft Şirkətindən (SOCAR) isə şikayətləri cəfəngiyyat adlandırmaqla kifayətləniblər. Lakin bildirməyiblər ki, uzun illərdir səngiməyən giley-güzarı səsləndirərkən nəyə əsaslanıblar: "Xəzər İaşə" ilə bağlı yoxlamanın nəticələrinə, yoxsa bir sıra dövlət qurumları üçün ənənəvi xarakter almış "təkzibetmə" taktikasına? Axı necə ola bilər ki, az qala on ildən yuxarıdır ildə heç olmasa, bir-iki dəfə neftçilər yeməklərdən gileylənsinlər və bütün bu gileylənmələrin hamısı cəfəngiyyat olsun? Yoxsa SOCAR rəhbərliyi gerçək vəziyyətdən xəbərsizdir? Elə isə daha pis: neftçilərin şikayətləri yeni xəbər deyil, köhnə xəbərdir, özü də çox köhnə xəbər. Bu qədər köhnə xəbərdən hələ də xəbərsiz olmaqsa, inciməyin, yaxşı iş deyil...

Onu da unutmamaq lazımdır ki, bu yaxınlarda ölkə başçısı SOCAR da daxil olmaqla bir sıra dövlət şirkətlərinin fəaliyyətini kəskin tənqid etdi. Dövlət rəhbərinin dedikləri göstərdi ki, bu qurumlar mətbuata açıqlamalarında işlərini yüksək səviyyədə qurduqlarını söyləmələrinə baxmayaraq, problemlər kifayət qədərdir. Bu problemləri gizlətməklə, media isə bu problemləri yazdqıda onları cəfəngiyyat adlandırmaqla həll etmək, yoluna qoymaq tamamilə mümkünsüzdür.

Üstəlik, iş olan yerdə problem də olar. O dövlət qurumları ki, fəaliyyətlərinin problemsiz olduğunu deyirlər, deməli, etiraf edirlər ki, əslində düz-əməlli fəaliyyətləri yoxdur...

***Orxan Həsənli***



## Vəkillər Kollegiyasının Aparat rəhbəri istefa verdi

***Azərbaycan Vəkillər Kollegiyasında kadr dəyişikliyi olub.***

Bu barədə "Unikal"a kollegiyadan məlumat verilib. Məlumatda bildirilir ki, Vəkillər Kollegiyasının Aparat rəhbəri Fərhad Nəcəfov öz xahişi ilə tutduğu vəzifədən azad edilib. Hazırda bu vəzifənin icrası Vəkillər Kollegiyası Aparatının əməkdaşı Bayram Orucova tapşırılıb.

## Şəhid ailələrinə ev verildi

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi daha 3 rayonda 19 fərdi yaşayış evi (o cümlədən, İmişlidə 10, Füzulidə 5, Ağdamda 4 ev) şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim edib.***



Nazirlikdən "Unikal"a verilən məlumata görə, Füzuli rayonunun İkinci Mahmudlu kəndində evlərin təqdim edilməsi tədbirində nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov, Füzuli rayon İcra Hakimiyyəti başçısının müavini Süleyman Əliyev iştirak edib.

Tədbirlərdə Prezident İlham Əliyevin sosial siyasətinin əsasında vətəndaş amilinin dayandığı, həssas əhali qruplarının rifahına yönələn tədbirlərin geniş vüsət aldığı vurğulanıb.

Bildirilib ki, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzillə təminatı proqramı ildən-ilə genişləndirilir. Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə ötən il 934 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən 2020-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə rekord sayda, yeni azı 1500 mənzil və fərdi ev verilməsi işləri aparılır. Bu gün Füzuli, Ağdam, İmişli rayonlarında təqdim edilən fərdi evlər də daxil olmaqla, onlardan artıq 617 mənzil və fərdi ev (o cümlədən 554 mənzil, 63 fərdi ev) verilib. Qalan evlər də ilin sonunadək veriləcək.

Qeyd olunub ki, ümumilikdə ötən dövrdə şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 8205 mənzil və fərdi ev təqdim edilib.

# Ağdaşlı gənclərin iştirakı ilə onlayn görüş keçirildi

***Ağdaş rayonunda partiya fəalı olan könüllü kimi fəaliyyət göstərəcək 50 nəfər gənclə onlayn görüş keçirildi.***

Unikal.org xəbər verir ki, görüşü Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının sədri, millət vəkili Cavid Osmanov açaraq ölkədə həyata keçirilən gənclər siyasətindən bəhs etdi, Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkə gənclərinə göstərdiyi xüsusi diqqət və qayğının hər zaman yüksək səviyyədə olduğunu və bu siyasətin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd etdi. Bildirdi ki, ölkəmizdə gənclər hər zaman dövlət qayğısının mərkəzində yer alırlar. Gənclərimiz ölkəmizdə bu sahədə qəbul olunan Dövlət proqramlarının yaratdığı imkanlardan geniş bəhrələnirlər. Bu mühüm və çoxşaxəli proqramlarda vətənpərvərlik, Azərbaycançılıq məfkurəsi, gənclərin beynəlxalq inteqrasiyası və dünyagörüşünün artırılması və sair məsələlər xüsusilə diqqət mərkəzində saxlanılır.

Bu gün ölkəmizdə cənab Prezidentimiz İlham Əliyevin və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın həyata keçirdiyi uğurlu siyasətdən bəhs edən Cavid Osmanov bildirdi ki, pandemiya dövründə əksər dünya ölkələrinin iq-



tisadiyyatında tənəzzül müşahidə olunmuş, hətta inkişaf etmiş ölkələrdə bir çox sosial layihələr ixtisara düşmüşdür. Koronavirus pandemiyasının yeni elan olunduğu zamandan etibarən cənab İlham Əliyevin müxtəlif tədbirlər zamanı qeyd ediyi "baxmayaraq ki iqtisadiyyatda gerimələr var, amma heç bir sosial layihə, eyni zamanda nəzərdə tutulan tədbirlərin heç biri ixtisara düşməyəcəkdir" fikirlərini görüş iştirakçılarının diqqətinə çatdıran millət vəkili qeyd etdi ki, ölkə Prezidenti sosial layihələrlə bərabər ölkəmizin şəhər və rayonlarında, bölgələrdə infrastruktur layihələri həyata keçirir. Burada həm abadlıq-quruculuq işləri, yeni təhsil müəssisələrinin tikintisi, yol infrastrukturunun yenilənməsi həyata keçirilir. Bu o deməkdir ki, Azərbaycan doğrudan da güclü və qüdrətli bir dövlətdir. Baxmayaraq ki, pandemiya dünyada tüğyan edir, lakin Azərbaycan heç bir layihəni kənarda qoymayıb, nəzərdə tutulan bütün layihələr icra olunur. Bütün bunlar isə cənab İlham Əliyevin apardığı düzgün siyasətin nəticələridir.

Gəncləri fəal olmağa çağıran Cavid Osmanov vurğuladı ki, hər bir gənc də bu işlərdə cənab Prezidentimizə dəstək olmalıdır. Gənclər tərəfindən tək sosial layihələrin deyil, təhsil, idman, mədəni, ekoloji, aqrar sahələri əhatə edən layihələrin də işlənib hazırlanmasını tövsiyyə edən millət vəkili bu cür layihələrin həyata keçirilməsini daim diqqət mərkəzində saxlanılacağını bildirdi.

Gənclərin fəallığı və qarşılıqlı diskussiya şəraitində davam edən görüşdə onları maraqlandıran suallara Cavid Osmanov tərəfindən cavablar verildi.

# Milli Məclisdə işçi qrupunun növbəti iclası keçirildi

***Sentyabrın 25-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən Azərbaycan Respublikasının Mülki və Vergi məcəllələrinin, "İpoteka haqqında" və "İcra haqqında" qanunların bəzi müddəalarının tənzimlənməsi məqsədi ilə yaradılmış işçi qrupunun iclası keçirilib.***

Bu barədə "Unikal"a Milli Məclisin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, iclasda işçi qrupunun üzvləri - İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, komitənin sədr müavini Əli Məsimli, deputatlardan Mahir Abbaszadə, Vüqar Bayramov, Aydın Hüseynov, ekspertlər qismində dəvət olunmuş Əmanətlərin Sığortalanması Fondunun İcraçı direktoru Tural Piriyev, İpoteka və Kredit Zəmanət Fondu İdarə Heyəti sədrinin müavini Rəhman Hümmətov iştirak ediblər.

İclasda komitə sədri Tahir Mirkişili çıxış edərək deyib ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 23 iyul 2020-ci il tarixli qərarı ilə ipoteka saxlayanın məhkəmə qaydasında təmin olunmuş tələbi əsasında keçirilmiş təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı sadələşdirilmiş verginin ödənilməsi qaydalarının adı çəkilən qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla tənzimlənməsi Milli Məclisə tövsiyə olunub.

Diqqətə çatdırılıb ki, məsələ ilə bağlı yaradılmış işçi qrupun İqtisadiyyat və Ədliyyə nazirliklərinin, Azərbaycan Banklar Assosiasiyasının nümayəndələri ilə birgə ilk görüşü olub, müzakirələr aparılıb. Müzakirələr zamanı səsləndirilən təkliflər nəzərə alınaraq, hazırda müvafiq qanunların təkmilləşdirilməsi istiqamətində iş aparılır. Burada məqsəd bu sahədə olan qeyri-müəyyənliyin aradan qaldırılması, o cümlədən vətəndaşların kredit götürdükləri zaman qoyduğu girovun, daşınmaz əmlakın satışının şəffaf, əlçatan olması, bankların toksik aktivlərdən azad olunmasına dəstək olmaqdır.

İclasda iştirak edən Əmanətlərin Sığortalanması Fondunun İcraçı direktoru Tural Piriyev, İpoteka və Kredit Zəmanət Fondu İdarə Heyəti sədrinin müavini Rəhman Hümmətov məsələ ilə bağlı fikirlərini bildiriblər. Ekspertlər ipoteka kreditlərinin götürülməsi, əmlakın girov qoyulması, mülkiyyətin giymətləndirilməsi, qiymətləndiricinin səlahiyyətləri, bank əməliyyatları zamanı yaranan mübahisəli məsələlər və onların həlli yolları, bir sıra digər məqamlar barədə açıqlamalar veriblər. Müzakirələr zamanı deputatları narahat edən məsələlərə aydınlıq gətirilib.

# "Cənnət bağı"nda ağac kəsənlərə cinayət işi açıldı

***Altıağac Milli Parkında yerləşən "Cənnət bağı" istirahət mərkəzinin ərazisində ağac və kolların məhv edilməsi barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyindən (ETSN) daxil olmuş material üzrə Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparılıb.***

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən "Unikal"a verilən məlumatda bildirilib.

Qeyd edilib ki, aparılmış araşdırmalarla "Cənnət bağı" istirahət mərkəzinin ərazisində müxtəlif cinsli 2036 ədəd ağacın və 103 ədəd kolun qanunsuz kəsilərək məhv edilməsi, eləcə də həmin istirahət mərkəzində saxlanılan marallar tərəfindən müxtəlif cinsli 3589 ədəd ağacın gövdəsi və qabığının yeyilərək məhv olması nəticəsində təbiətə ümumilikdə 30 min 240 manat məbləğində ziyanın dəyməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Baş Prokurorluq tərəfindən Cinayət Məcəlləsinin 259.2.4 (qanunsuz ağac kəsmə, külli miqdarda ziyan vurmaqla törədildikdə), 314.1 (səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasına səbəb olduqda) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanmaqla istintaqın aparılması Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinə tapşırılıb.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin tam dairəsinin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları, ətraf mühitə vurulmuş maddi ziyanın məbləğinin müəyyən edilərək ödənilməsinin təmin edilməsi və nəticələrinin aradan qaldırılması istiqamətində zəruri tədbirlər davam etdirilir.

# İcra başçılarının "kirli sağ əlləri"...

## Rayon rəhbərləri nə vaxtadək yerli təhsil və səhiyyə şöbələrini öz korrupsioner maraqlarına alət edəcəklər?



***Dövlət Təhlükəsizlik Xidməti (DTX) və Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin son vaxtlar bir sıra rayonlarda keçirdikləri xüsusi əməliyyatlarla bağlı məlumatlarda bir məqam diqqət çəkir. Həmin rayonların icra başçıları ilə yanaşı, təhsil və səhiyyə sahəsindəki vəzifəli şəxslər də saxlanılır, haqlarında cinayət işi açılır.***

Məsələn, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyevin qandallanması ilə nəticələnən əməliyyat zamanı rayon Mərkəzi Xəstəxanasının baş həkimi Telman Zahidovla rayon Təhsil şöbəsinin müdiri Əjdər Kərimov da rüşvət alma və rüşvət vermə ilə bağlı faktlara görə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə şübhəli şəxs qismində saxlanılmışdılar.

Yaxud Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyevin də saxlanılması ilə bağlı ilkin rəsmi məlumatda onun icra başçısı işlədiyi müddətdə səhiyyə və təhsil sahəsində fəaliyyət göstərən yerli dövlət təsisatları rəhbərlərindən büdcə vəsaitləri hesabına yerli dövlət orqanlarının saxlanılması xərclərinə ayrılan vəsaitlərin müəyyən hissəsinin nağdlaşdırılaraq ona təqdim olunmasını tələb etməsi və alması bildirilirdi.

Elə həbs olunan digər icra başçıları ilə bağlı da vəziyyət yuxarıdakı iki nümunədən fərqlənmir. Aydın görünür ki, Azərbaycandakı əksər rayon rəhbərləri üçün səhiyyə və təhsil sahələri istər rüşvət, istərsə də korrupsiya baxımından münbit sahələrə çevriliblər. Bu sahələrdən aylıq "haqq" almaq icra başçılarının sevimli iş metoduna dönüb. Rayon rəhbərləri sözügedən sahələrə cavabdeh olan yerli vəzifəli şəxsləri açıq şəkildə öz mənimsəmə, yeyinti "siyasətlərinin" parçasına çeviriblər. Halbuki yerli rayon (yaxud şəhər) səhiyyə və təhsil şöbələri müvafiq nazirliklərə tabedirlər. İcra başçılarının onlarla əmr, tapşırıq dilində danışmaq səlahiyyətləri yoxdur.

Lakin təəssüf ki, uzun illər ərzində ölkədə olduqca zərərli vərdiş formalaşıb: özlərini rəhbərlik etdikləri rayonların "kiçik padşahları" kimi görən icra başçıları səhiyyə və təhsil şöbələrinin müdirlərini də "ştatlı işçiləri" kimi görürlər. Onları öz iradələrinə tabe etdirir, əks halda işləmələrinə imkan verməyəcəklərini söyləyir, yaxud bu şöbə müdirlərinin təyinatında rol alaraq sonradan onların icra başçısından qeyri-rəsmi asılılığını təmin edirlər. İş o yerə çatıb ki, bəzən hansısa rayonun təhsil, yaxud səhiyyə şöbəsinin müdiri həmin rayonun icra başçısının "sağ əli" kimi təqdim olunur - əlbəttə, kirli, korrupsiya, rüşvətxorluq qoxuyan fəaliyyətinə görə!

Sonda yaranan mənzərə isə göz önündədir: hansısa rayon rəhbəri qandallanarkən onunla bərabər səhiyyə, təhsil şöbələrinin müdirləri də saxlanılır, istintaqa cəlb olunur.

Əslində müstəqil ekspertlər və media xeyli vaxtdır bu mövzuda yazır, danışır. Dəfələrlə bildirilib ki, hər hansı nazirliyin rayonlardakı şöbələrinin, az qala, yerli icra hakimiyyətlərinin bir şöbəsi kimi fəaliyyət göstərməsinə son qoyulmalıdır. Hətta xəstəxanaların baş həkimlərindən tutmuş orta məktəblərin direktorlarınacan müxtəlif vəzifə sahiblərinin də tabe olduqları nazirliklərdən çox icra başçılarının əmrinə müntəzir dayanmasının, rayon rəhbərlərinin istənilən qanunsuz göstərişinə qeyd-şərtsiz "baş üstə" deməsinin önünə keçilməlidir. Məhz bu zərərli "ənənənin" nəticəsidir ki, əyalətdə təhsil və səhiyyə sarıdan problemlərin nə sayı var, nə də hesabı...

Lakin təəssüflə vurğulamaq lazımdır ki, hələlik biz yuxarıda deyilənlərin həyata keçdiyini görmürük. Bir halda ki, Azərbaycanda geniş miqyaslı islahatlar elan edilib, bu prosesin haqqında danışdığımız məsələdən də yan keçməməsi arzuedilәndir. Təhsil və səhiyyə şöbələri, xəstəxanalar, məktəblər icra başçılarının əsarətindən qurtulmalıdır. Onların normal fəaliyyətinə imkan yaradılmalıdır. İcra başçıları bu yerli təsisatları qanunsuz qazanc mənbəyinə çevirmək vərdişindən əl çəkməli, daha doğrusu, əl çəkdirilməlidir. Əks halda biz rayonlarda təhsil və səhiyyə ilə bağlı müsbət göstəricilərdən, real, köklü irəliləyişlərdən, uğurlardan çox sözügedən sahələrə məsul olan yerli vəzifə sahiblərinin, eləcə də hansısa baş həkimin, məktəb direktorunun həbsinə şahidlik etməyə davam edəcəyik...

***Sənan Mirzə***

# Prezident BMT-nin tribunasından dünyaya mesaj verdi

## İlham Əliyev: "Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayacaq"

***BMT-nin informasiya portalı Azərbaycan Prezidenti İlham Əliyevin Baş Assambleyanın 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışını xüsusi xəbər kimi yayıb.***

Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Mənfur nasist general Qaregin Njde "milli qəhrəmana" çevrilib. İkinci Dünya müharibəsindən sonra o, həbs olunaraq 25 illik azadlıqdan məhrum edilmiş və həbsxanada ölmüşdür. Ermənistanın paytaxtının mərkəzində Njdenin xatirəsinə 6 metrlik abidə ucaldılıb. ASALA kimi bir sıra digər terror təşkilatlarının üzvləri də bu ölkədə şöhrətləndirilir.

"Unikal" xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışı zamanı bildirib. Prezident qeyd edib ki, Ermənistan rəhbərliyinin düşməncəsinə verilən Azərbaycanofob bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.Təəssüf ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyəti heç bir nəticə verməyib. Danışıqlar imitasiya naminə aparılmamalı, nəticəyönümlü və məzmunlu olmalıdır: "Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayacaq. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri - Rusiya, Fransa və ABŞ prezidentlərinin bəyanatlarında status-kvonun qəbuledilməz olduğu vurğulanıb. Biz həmin bəyanatları alqışlayırıq, lakin bəyanatlar kifayət etmir. Bizim real addımlara ehtiyacımız var. Otuz ilə yaxın danışıqlar prosesində iştirakımız sülhə sadiqliyimizin bariz nümunəsidir. ATƏT-in Minsk qrupunun bütün 11 üzvü prosesdə fəal iştirak etməlidir".



**Milli Məclisin deputatı Sahib Alıyev "Unikal"a açıqlamasında deyib ki,** BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatları zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dünənki tarixi çıxışında təkcə işğalçı Ermənistan deyil, ona havadarlıq edən, cinayətlərinə göz yuman və dəstək verənlər də diplomatik dildə, ancaq çox qətiyyətlə tənqid olundular. Onun sözlərinə görə, BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində qurumun 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantıda cənab İlham Əliyev həm Qoşulmama Hərəkatının sədri, həm də Azərbaycan Prezidenti olaraq çıxış etdi: "Onun Azərbaycan dövləti adından çıxışının təqribən üçdən ikisi işğalçılıq, terrorçuluq siyasəti yeridən, nasizm yuvası Ermənistana həsr olunmuşdu. Əlbəttə, Azərbaycan Prezidenti BMT kürsüsündən etdiyi bütün çıxışlarda Ermənistanın işğalçı, terrorçu mahiyyətini açıb göstərib və onu öz üzərinə düşən öhdəliyə əməl etməyə, Təhlükəsizlik Şurasının 4 bəlli qətnaməsini yerinə yetirməyə çağırıb. Ancaq indiyədək bu qəbildən olan heç bir çıxışında işğalçıya belə geniş yer ayrılmamışdı və ilk dəfədir ki, beynəlxalq tədbirdə hayların yeni savaş hazırlıqları gördükləri xəbərdarlığı səsləndirildi. Xatırladaq ki, sentyabrın 19-da Azərbaycan televiziyalarının suallarını cavablandırarkən də cənab Prezident operativ kəşfiyyat məlumatlarına dayanaraq Ermənistanın böyük savaş hazırlığı gördüyünü bildirmişdi. Türkiyə və Ukraynanın dövlət başçılarının Azərbaycan Prezidentinə dünənki telefon zəngləri və Ermənistanın Xarici İşlər naziri Mnatsakanyanın açıqlaması fikrimcə, məhz bununla, yəni işğalçı ölkənin yeni savaşa hazırlaşdırılmasıyla bağlıdır.

Bəli, Mnatsakanyanın danışıqlara hazır olmaları haqda verdiyi açıqlama əslində məhz savaşa hazırlaş(dırıl)malarının təsdiqidir. Çünki savaş hazırlığı görən dövlətin gözdən pərdə asmaq üçün döyüşlər öncəsi sülhdən, danışıqlardan dəm vurması kimi bir təcrübə var.

Mnatsakanyandan soruşula bilər ki, siz hansı danışıqlara hazırsınız? Paşinyan dediyi "Qarabağ Ermənistandır" danışıqlarına? Tutaq ki, bu, Paşinyanın növbəti sayıqlamalarından biri idi, onda havadarlarınızın da etiraf etdikləri kimi indiyədək Madrid prinsipləri bazasında əldə olunmuş müəyyən razılıqların üstündən niyə xətt çəkir və danışıqlar formatını dəyişdirməyə çalışırsınız? Bir sözlə, Mtansakanyanın danışıqlara hazır olmaları haqda dedikləri gözdən pərdə asmaq üçündür və mənə elə gəlir ki, bunu da onlara havadarları məsləhət görüb. Yeri gəlmişkən, Ermənistanın savaşa hazırlaşması haqda xəbərdarlığın üzərindən diplomatik pərdəni tam götürsək, görəcəyik ki, burada söhbət təkcə forpostun özündən yox, həm də onu yenə də geosiyasi alət olaraq buna sövq edənlərdən gedir. Çünki Ermənistan vəziyyətində olan bir ölkənin rəhbərliyindəkilər gərək ağıllarını tam itirmiş olsunlar ki, hazırda hər baxımdan ondan dəfələrlə güclü olan bir ölkədən savaş yoluyla yeni torpaq qoparmaq fikrinə düşsünlər. Düzdür, baş nazir Paşinyanın özü də, komandasındakılar da böyük ağıl yiyəsi sayılmırlar, fəqət az öncə vurğuladığımız kimi öz güclərinə Azərbaycana qarşı savaş aparıb yeni torpaqlar ələ keçirəcək qədər axmaq da deyillər. Bu reallığı qardaş Türkiyə və strateji tərəfdaşımız olan Ukrayna da görür. Əgər nəzərə alsaq ki, ABŞ və Ukrayna kəşfiyyatları son illər birgə, çiyin-çiyinə çalışırlar, istisna etmirəm ki, təkcə Türkiyə deyil, Ukraynada da hayların yeni savaş hazırlıqları haqda dəqiq bilgilər var və bütün bunların arxasına hansı gücün dayandığından da yaxşı xəbərdardılar.

Ona görə də cənab Ərdoğanın dövlət başçımıza telefon açaraq Ermənistanın növbəti təxribatı nəticəsində həlak olmuş bir hərbiçimizlə bağlı başsağlığı verməsi, iki qardaş ölkənin sonadək bir-birilərinin yanında olacaqlarının vurğulanması, ardınca Zelenskinin zəng etməsi, danışıq zamanı Ukraynanın Milli Təhlükəsizlik Strategiyasında Azərbaycanın strateji tərəfdaş kimi göstərildiyinin qabardılması heç də təsadüfi deyildi. Bu, bir tərəfdən yeni savaş təhlükəsinin ciddiliyindən xəbər verirsə, digər tərəfdən də Azərbaycanın tək və ötən əsrin sonlarında olduğu kimi təklənmş vəziyyətdə olmadığını ortaya qoyur".

Millət vəkili onu da qeyd edib ki, bütün bunlar onu göstərir ki, əgər vəziyyəti dəqiq qiymətləndirə bilməyib, yeni avantüraya baş vursalar, bu savaş təkcə hayların yox, eyni zamanda onları buna sövq edən təklənmişlərin başında çatlayacaq.

***Z.Məmmədli***



# Ağsaqqallar Şurasının sədri vəzifəsinə namizədin adı məlum oldu

***Sentyabrın 29-da Azərbaycan Ağsaqqallar Şurasının qurultayı keçiriləcək.***

Qurultay onlayn formada təşkil ediləcək. Azərbaycan Ağsaqqallar Şurasının sədri vəzifəsinə isə Eldar Quliyevin namizədliyi irəli sürülüb.

Azərbaycan Ağsaqqallar Şurasının sədri vəzifəsinə namizədliyi irəli sürülən Eldar Quliyev 1951-ci il iyul 26-da Bakı şəhərində anadan olub. O, II, III, IV, V və VI çağırış Azərbaycan Milli Məclisinin üzvüdür. 1990-cı ildə Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı İdarə Heyətinin sədr müavini, 1993-cü ildə İdarə Heyətinin sədri vəzifəsinə seçilərək hazıra kimi ictimai əsaslarına rəhbərlik edir. 2011-ci ildən Azərbaycan Kooperasiya Universitetinin rektoru, iqtisad elmləri doktoru, professordur. Xatırladaq ki, Azərbaycan Ağsaqqallar Şurasının mərhum sədri Fəttah Heydərov avqustun 4-də uzun sürən xəstəlikdən sonra 82 yaşında vəfat edib.

# Milli Məclisin payız sessiyasının qanunvericilik işləri planı

***Milli Məclisin 2020-ci il payız sessiyasının qanunvericilik işləri planı məlum olub.***

"Unikal"ın məlumatına görə, bu, Milli Məclisin 30 sentyabrda keçiriləcək plenar iclasının gündəliyinə daxil edilən "Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il payız sessiyasının qanunvericilik işləri planı haqqında" qanun layihəsində əksini tapıb.

Layihəyə əsasən, İş Planına 14 məsələ daxil edilib. Azərbaycan Respublikası Prezidenti-nin, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının,Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Baş Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələri.

Azərbaycan Respublikası Dövlət büdcə Zərfinə daxil olan qanun layihələri.

Azərbaycan Respublikası Milli Məclisinin İntizam Komissiyasının Əsasnaməsi nin təsdiq eidlməsi haqqında" qanun layihəsi.

Azərbaycan Respubliaksı Cinayət Məcəlləsinin Xüsusi hissəsinin "Sülh və insanlıq əleyhinə cinayətlər" bölməsinin yeni redaksiyasının layihəsi.

"Daxili qoşunlar haqqında" qanun layihəsi.

"Hərbi qulluqçuların statusu" haqqında" qanun layihəsi.

"Lombardlar haqqında" qanun layihəsi.

"İnsan orqanlarının donorluğu və transplantasiyası haqqında! qanun layihəsi

"Reproduktiv sağlamlıq haqqında" qanun layihəsi

"Ali təhsil haqqında" qanun layihəsi.

"Turizm haqqında" qanun layihəsi.

"Kinematoqrafiya haqqında" qanun layihəsi.

"Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanun layihəsi

"Azərbaycan Respublikasının qanun-larında dəyişikliklər edilməsi haqqında" qanun layihələri.

## Azərbaycanda insanlar çipləşəcək? - TƏBİB-dən açıqlama

***"Çipləşdirmə, yəni nişanlama məsələləri artıq modern dünyanın bir istiqamətinə çevrilib. Yəqin insanlar ona görə bu tip şeylər fikirləşirlər. Hətta bəziləri könüllü şəkildə gedib öz uşaqlarını və özlərini çipləşdirirlər. Bilmirəm, müxtəlif məqsədlərlə bu iş ola bilər. Çox təəssüf ki, insanlar koronavirusun vaksini haqqında fikirləşəndə dərhal onların fikirlərinə çipləşmə məsələsi gəlir".***

Bu sözləri İTV-nin "Diqqət mərkəzi" verilişinin qonağı TƏBİB Elmi Komitəsinin sədri, professor Akif Qurbanov deyib. O qeyd edib ki, çiplə bağlı səslənən fikirlərin heç bir əsası yoxdur:

"Çünki insanları çipləmək istəsələr, onu başqa üsullarla edərdilər. Ən azından körpələrə vurulan vaksinlərin tərkibində edilə bilərdi. Daha bu cür bütün kütləyə nəzərdə tutulan bir preparatla bu addmı atmazlar. Bunlar hamısı əsassızdır, kimlərin ortaya atdığını və burada nə kimi məqsədlərinin olduğunu deyə bilmərəm.

Sosial şəbəkələrdə belə fikirlər çox sürətlə yayılır. Alimlərin, mütəxəssislərin dediklərinə heç fikir vermirlər. Kimsə sensasion fikir ortaya atanda hər kəs psixoloji olaraq ona doğru reaksiya göstərir. Hamı da özünü qorumaq istəyir ki, guya koronavirus peyvəndi ilə insanlara nəzarət edəcəklər. İnsanlar onu bilməlidirlər ki, ilk növbədə vaksin tələbatı çox böyükdür. Təqribən 7 milyard əhalinin 5 milyardı bu vaksini gözləyir. Həmin vaksin isə hazırda əldə yoxdur. Bu çipləşdirmə yersiz söhbətlərin mövzusudur".

## Mehmanxanalarda reydlər APARILIR

***Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında mehmanxanaların fəaliyyətinin təşkili Qaydaları" əsasında Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA), Dövlət Turizm Agentliyi və digər aidiyyəti qurumların mütəxəssislərindən ibarət monitorinq qrupu tərəfindən mehmanxanalarda yoxlama nəzarət tədbirləri davam etdirilir.***



Unikal.org AQTA-ya istinadla xəbər verir ki, pandemiya dövrünün zəruri qayda və tələblərinə əməl olunmasına nəzarət məqsədilə 21-24 sentyabr 2020-ci il tarixlərində xüsusi monitorinq qrupları tərəfindən 148 mehmanxanada reydlər keçirilib. Aparılan yoxlamalar zamanı ümumilikdə 128 obyektdə epidemiya əleyhinə, habelə COVID-19-un profilaktikasına dair zəruri qayda və tələblərin pozulduğu müəyyən edilib. Fəaliyyətində nöqsanlar aşkarlanmış mehmanxanalarla bağlı qanunvericiliyin tələbləri çərçivəsində müvafiq tədbirlər görülüb.

Həmçinin mehmanxana sahiblərinə və orada çalışan işçi heyətə koronavirus pandemiyası dövründə mehmanxanaların fəaliyyətinin təşkili ilə bağlı zəruri tələblər və qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələbləri izah edilib, icrası məcburi göstərişlər və maarifləndirici tövsiyələr verilib.

Qeyd edək ki, aidiyyəti dövlət qurumları ilə birlikdə təşkil olunan monitorinq qrupları Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən mehmanxanalarda yoxlama-nəzarət tədbirlərini bundan sonra da davam etdirəcək və Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş qaydalara əməl etməyən sahibkarlıq subyektləri barədə ən sərt tədbirlər görüləcəkdir.

# DİN icazə sisteminin təşkilinə dair Təlimata dəyişiklik edilib

***"Azərbaycan Respublikasının daxili işlər orqanlarında icazə sisteminin təşkilinə dair Təlimat"a dəyişiklik edilib.***



Bu barədə Daxili İşlər Nazirliyinin Kollegiyası qərar verib. Dəyişiklik "müxtəlif növ möhür və ştampların hazırlanmasına" sözlərinin çıxarılması ilə bağlıdır.

Keçmiş təlimatda bildirilirdi ki, icazə sistemi ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən biri olaraq xidməti və mülki silahın, döyüş sursatının dövriyyəsinə xüsusi icazənin, müxtəlif növ möhür və ştampların hazırlanmasına, özəl mühafizə fəaliyyətinin həyata keçirilməsinə xüsusi razılığın (lisenziyanın) verilməsi və onlara nəzarət edilməsi, çoxaldıcı rəngli qurğuların (kseroksların) qeydiyyatının aparılması, habelə göstərilən əşya və maddələrin itməsi, oğurlanması, təyinatından kənar istifadə hallarının qarşısının alınması üzrə həyata keçirilən tədbirlərdən ibarətdir.

Yeni təlimata görə, icazə sistemi ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən biri olaraq xidməti və mülki silahın, döyüş sursatının dövriyyəsinə xüsusi icazənin, özəl mühafizə fəaliyyətinin həyata keçirilməsinə xüsusi razılığın (lisenziyanın) verilməsi və onlara nəzarət edilməsi, çoxaldıcı rəngli qurğuların (kseroksların) qeydiyyatının aparılması, habelə göstərilən əşya və maddələrin itməsi, oğurlanması, təyinatından kənar istifadə hallarının qarşısının alınması üzrə həyata keçirilən tədbirlərdən ibarətdir.

Həmçinin təlimatda "müxtəlif növ möhür və ştampların hazırlanmasına xüsusi razılığın verilməsi" yarımbəndi; "müxtəlif növ möhür və ştampların hazırlanması ilə məşğul olan obyektlərin yoxlanması zamanı - onların fəaliyyət göstərməsinə xüsusi razılığın (lisenziyanın) olmasına, etibarlılıq müddətinə, tikililərin vəziyyətinə, mühafizə siqnalizasiyasının sazlığına xüsusi diqqət yetirilir" və "müxtəlif növ möhür və ştampların hazırlanması ilə əlaqədar fəaliyyətin həyata keçirilməsinə verilmiş xüsusi razılıq (lisenziya) qaydalarına riayət edilməsinin vəziyyətinə diqqət yetirilir" bəndləri, eyni zamanda, "möhürlərin və ştampların hazırlanmasına xüsusi razılıq (lisenziya) verilməsi" hissəsi ləğv edilib.

Eyni zamanda, icazə sistemini həyata keçirən ərazi polis orqanının hüquqlarına da dəyişiklik edilib. Əvvəlki təlimatda hüquqlar sırasında "xüsusi razılıq (lisenziya) olmadan müxtəlif növ möhür və ştamplar hazırlayan hüquqi və fiziki şəxslərin, özəl mühafizə müəssisələrinin, hüquqi şəxslərin mühafizə bölmələrinin fəaliyyəti ilə bağlı müəyyən olunmuş qaydada tədbirlər görmək" kimi qeyd edilmişdi.

Dəyişiklikdən sonra ərazi polis orqanının hüquqlarında həmin bənd - "xüsusi razılıq (lisenziya) olmadan fəaliyyət göstərən özəl mühafizə müəssisələrinin və hüquqi şəxslərin mühafizə bölmələrinin fəaliyyəti ilə bağlı müəyyən olunmuş qaydada tədbirlər görmək" kimi dəyişdirilib.

Bundan əlavə, Xüsusi razılıq (lisenziya) və xüsusi icazələrin verilməsi qaydasında əvvəlki təlimatda bildirilirdi ki, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi tərəfindən müxtəlif növ möhür və ştampların hazırlanmasına xüsusi razılıq (lisenziya), qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinin həyata keçirilməsinə xüsusi razılıq üçün rəy, eləcə də aşağıdakı məsələlərə dair xüsusi icazə və şəhadətnamələr verilir. Dəyişiklikdən sonra isə qeyd edilib ki, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi tərəfindən qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinin həyata keçirilməsinə xüsusi razılıq üçün rəy, eləcə də aşağıdakı məsələlərə dair xüsusi icazə və şəhadətnamələr verilir.

# Meyitdən donor orqanların götürülməsi qaydası müəyyənləşir

***Meyitdən donor orqanların götürülməsi və transplantasiyası qaydası müəyyənləşir.***



Bu, sentyabrın 30-da Milli plenar iclasında müzakirəyə çıxarılacaq "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsində əksini tapıb.

Layihəyə əsasən, şəxs sağlığında meyitinin, orqan və (və ya) toxumalarının transplantasiya məqsədi ilə yazılı razılığını bildirərsə, ölümündən sonra onun meyiti, orqanları istifadə oluna bilər. Şəxs sağlığında orqan donorluğu ilə bağlı məsələyə münasibətini bildirməyibsə, ölümündən sonra arvadının (ərinin), bu şəxs olmadıqda yetkinlik yaşına çatmış övladlarından və valideynlərindən birinin, onlar olmadıqda isə qardaşının (bacısının) yazılı razılığı ilə onun orqanlarının transplantasiya, tədris və elmi məqsədlə götürülməsinə yol verilir.

Şəxs sağlığında donorluqdan yazılı şəkildə imtina edibsə, ölümündən sonra ondan transplantasiya məqsədilə orqanların götürülməsinə yol verilmir.

Qəzalar və ya təbii fəlakətlər zamanı beyin ölümü baş verən, sağlığında donorluqdan yazılı şəkildə imtina etməyən və yanında razılıq verən qohumları olmayan (arvadı (əri), bu şəxs olmadıqda yetkinlik yaşına çatmış övladları və valideynlərindən biri, onlar olmadıqda isə qardaşı (bacısı)) şəxslərdən transplantasiya məqsədilə orqan götürülməsinə icazə verilə bilər. Meyitin məhkəmə-tibbi ekspertizasına zərurət olduqda orqan və topxumaların götürülməsi transplantasiya üzrə dəvət olunan koordinator tərəfindən dəvət olunan məhkəmə-tibb ekspertinin iştirakı ilə həyata keçirilir. Məhkəmə-tibb ekspertinin iştirakına zərurət olmadıqda orqan və toxumaların götürülməsi bitdikdən sonra həkimlərin əməliyyat qeydləri məhkəmə tibbi müayinə və autopsiya (meyitin yarılması) protokoluna yazılmalı və sənədlərə əlavə edilməlidir.

Qeyd edək ki, qanun layihəsinin ilkin variantına əsasən, qəzalar və ya təbii fəlakətlər zamanı beyin ölümü baş verən, sağlığında donorluqdan yazılı şəkildə imtina etməyən və yanında razılıq verməyən qohumu olmayan şəxslərdən transplantasiya məqsədilə orqan götürülməsi zamanı transplantasiya üzrə koordinator tərəfindən məhkəmə-tibb eksperti məlumatlandırılmalı və orqan və toxumaların götürülməsi onun iştirakı ilə həyata keçirilməli idi.

***Hüseyn***

# Koronavirusla mübarizə aparan könüllülərə mükafat verildi

***İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi iyul ayı üzrə yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan 24 nəfər tibb işçisinə iş vaxtına mütənasib olaraq müddətli əlavə və 58 nəfər könüllüyə mükafat ödənilib.***



Agentlikdən “Unikal”a verilən məlumata görə, Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq COVID-19 infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına müddətli əlavənin məbləği aylıq vəzifə maaşının 3, 4 və 5 misli məbləğində müəyyən edilib. Qərara əsasən özəl tibb müəssisələrində çalışan 24 nəfər tibb işçisinə iyul ayı üzrə iş vaxtına/saatına mütənasib olaraq 44 242 manat məbləğində müddətli əlavə ödənilib. Qeyd edək ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanır.

58 nəfər könüllüyə isə sözügedən sərəncama əsasən aylıq 250 manat olmaq şərtilə, iyul ayı üzrə ümumilikdə 14 500 manat məbləğində mükafat ödənilib. Bu məbləğdən əməkhaqqına dair tutulmalar hesablanmır.

Məlumat üçün bildirək ki, Nazirlər Kabinetinin müvafiq sərəncamına uyğun olaraq, Agentlik tərəfindən COVID-19 infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinə aşağıdakı aylar üzrə də iş vaxtına mütənasib olaraq müddətli əlavələr ödənilib:

İyun ayı üzrə 42 nəfər tibb işçisinə iş vaxtına mütənasib olaraq 89 782 manat;

May ayı üzrə 43 nəfər tibb işçisinə iş vaxtına mütənasib olaraq 105 011 manat;

Aprel ayı üzrə 49 nəfər tibb işçisinə iş vaxtına mütənasib olaraq 82 216 manat.

4 ay ərzində ümumilikdə 158 nəfər tibb işçisinə iş vaxtına mütənasib olaraq ümumilikdə 321 251 manat məbləğində müddətli əlavə ödənilib.

Sözügedən sərəncama uyğun olaraq COVID-19 infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən könüllülərə aşağıdakı aylar üzrə mükafat ödənilib:

İyun ayı üzrə 31 nəfər könüllüyə 7750 manat;

May ayı üzrə 34 nəfər könüllüyə 8500 manat;

Aprel ayı üzrə 28 nəfər könüllüyə 7000 manat.

4 ay ərzində ümumilikdə 151 nəfər könüllüyə 37 750 manat məbləğində mükafat ödənilib.

Nəzərinizə çatdırırıq ki, modul tipli xəstəxanaların yaxınlıqdakı şəhər xəstəxanalarına təhkimolunması ilə bağlı hazırda hüquqi prosedurlar həyata keçirilməkdədir. Bu prosedurlar başa çatdıqdan sonra Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən göndərilən siyahılara uyğun olaraq əvvəlki digər aylar üzrə müddətli əlavə və mükafatların ödənilməsi davam edəcək.

Qeyd edək ki, TƏBİB koronavirus pandemiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçiləri və könüllülər barədə siyahıları Agentliyə təqdim etdikdən sonra, Agentlik 3 iş günü ərzində müddətli əlavə və mükafatların ödənilməsini təmin edir.

TƏBİB tərəfindən avqust ayı üzrə siyahılar Agentliyə təqdim edildikdən sonra müddətli əlavə və mükafatların ödənilməsi həyata keçiriləcək.

***Zaurə Əmirova***

# Məktəbəhazırlıq qruplarına 27 136 uşaq cəlb olunacaq

***2020-2021-ci tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 279 ümumi təhsil müəssisəsinin 1 047 məktəbəhazırlıq qrupuna 27 136 uşaq cəlb olunacaq.***

İdarədən “Unikal”a bildirilib ki, dövlət ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına elektron qeydiyyat prosesi sentyabrın 24-də başa çatıb.

Məktəbəhazırlıq qruplarına şagird qəbulu https://mektebeqebul-.edu.az/ elektron sistemi vasitəsilə həyata keçirilib. Məktəbəhazırlıq qruplarına qəbulun elektron sistem vasitəsilə həyata keçirilməsi şəffaflığın təmin edilməsi, vaxt itkisinin aradan qaldırılması, cəmiyyətdə informasiya texnologiyalarından istifadənin əhatə dairəsinin genişləndirilməsi baxımından olduqca əhəmiyyətlidir.

Qeyd edək ki, məktəbəhazırlıq qruplarının yaradılmasında məqsəd 5 yaşlı uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar psixoloji dayanıqlığını artırmaq, əhatə olunduqları aləmə və təhsil mühitinə uyğunlaşdırmaq, onların ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etməkdən ibarətdir.



2020-2021-ci tədris ili üzrə məktəbəhazırlıq qruplarına 2015-ci ildə anadan olmuş uşaqlar cəlb olunurlar. Məktəbəhazırlıq qrupları dövlət vəsaiti hesabına müvafiq təlim və metodiki vəsaitlərlə təmin edilir.

# Karantini pozan çay evinin sahibi cərimələndi

***Karantin rejimi qaydalarını pozan ictimai-iaşə obyekti aşkarlanıb.***




Bu barədə “Unikal”a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, Sabunçu Rayon Polis İdarəsinin (RPİ) 13-cü Polis Bölməsinin (PB) əməkdaşları tərəfindən Bakıxanov qəsəbəsi ərazisində xüsusi karantin rejimi qaydalarına əməl etməyən, sanitar-epidemioloji normaların pozulması ilə müşayiət olunan ictimai-iaşə obyekti aşkar edilib. L.Məmmədbəyli küçəsində yerləşən “041 Lounge” çay evinin qapalı otaqlarında “playstation” oyunları oynanılaraq xüsusi karantin rejimi qaydalarının pozulması müəyyən olunub.

Obyektin sahibi və orada olan 4 müştəri polis bölməsinə dəvət olunublar. Onların hər biri barəsində İnzibati Xətalar Məcəlləsinin 211.1-ci maddəsi ilə inzibati protokollar tərtib edilib.

Sahibkarlıq obyektinin sahibi və müştəriləri karantin rejimi qayda və tələbləri barədə məlumatlandırılıb.

# Təhsil naziri tələbələri təbrik etdi

***Təhsil naziri Emin Əmrullayev bu il ali məktəblərə qəbul olunan tələbələri təbrik edib.***

“Unikal” xəbər verir ki, təbrikdə deyilir:

”Əziz tələbə adını qazanan məzunlarımız, Sizi bu münasibətlə ürəkdən təbrik edir, hər birinizə tələbəlik həyatında uğurlar arzulayıram.

Məlum olduğu kimi, bu tədris ili üzrə 42 731 nəfər tələbə adını qazanıb. Onlardan 20 799 nəfər dövlət sifarişi (49 faizə yaxın), 21 932 nəfər ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. İki nəfər isə maksimum nəticə göstərib. Qəbul olunan tələbələr arasında müsabiqədənkənar tələbə adını qazananların olması bizi çox sevindirir. Belə ki, onlardan 2 nəfər beynəlxalq, 28 nəfər respublika fənn olimpiadası, 74 nəfər idman sahəsi üzrə beynəlxalq yarışların qalibi, 10 nəfər isə beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil alanlardır.

Bir daha hər birinizin sevincini bölüşür, sizə daha böyük nailiyyətlər arzulayıram!”.

# Abonentlər bu əməliyyatları onlayn edə biləcək




***Abonentlərə xidmətlərin təqdim olunmasında əldə olunan uğurların davamlı olması üçün daha effektiv yeni iş prosedurlarının təşkilinə zərurət yaranıb.***

“Azəriqaz” İstehsalat Birliyi Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən təqdim edilmiş kommunal xidmətlərin inkişafına dair “Strateji yol xəritəsi” üzrə monitorinq və qiymətləndirmənin həyata keçirilməsindən irəli gələrək müştəri xidmətləri sahəsində bəzi yeniliklərin olunmasını nəzərdə tutur.

Qurumdan “Unikal”a verilən məlumata görə, hazırda “Azəriqaz” İB “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərində vətəndaşlara 21 xidmət növü təqdim edir.

Lakin bunun müəyyən hissəsinin Birliyin digər strukturları ilə bilavasitə bağlı olması, yəni bəzi sənədlərin işlənilməsini digər şöbələrin əməkdaşları icra etdiyindən vaxt itkisi yaranır, vətəndaş narazı qalır və nəhayət bu da müştəri məmnuniyyətinin azalmasına gətirib çıxarır. Ona görə də qərara alınıb ki, müraciətlərin təminatı ilkin mərhələdə vahid bir elektron poçt üzərindən, gələcəkdə isə xüsusi internet-portalı üzərindən yeni iş proseduru seçilməklə icra olunsun. Bu sistem işə düşdükdən sonra abonent məlumatlarında dəyişikliklərin edilməsi, borc və ödəniş haqqında arayışların verilməsi, sayğac zədələnməsinin araşdırılması üçün müraciətlərin qəbulu, smart kartda istifadə olunmayan vəsaitin abonent koduna köçürülməsi və digər əməliyyatların icrasını elektron formada həyata keçirilə bilər.

# Avropa İttifaqının xüsusi nümayəndəsi Azərbaycanda

***Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar Azərbaycana gəlib.***

“Unikal”ın xəbərinə görə, bu barədə T. Klaar “Twitter”də bildirib.

“İki gün davam edəcək görüşlər üçün Bakıdayam. Aİ-nin Cənubi Qafqazda sülh və sabitlikdə böyük marağı var. Gərginliyin azaldılması və ATƏT-in Minsk Qrupu həmsədrlərinin rəhbərliyi ilə ilkin şərt olmadan əsaslı danışıqlar prosesinə qayıtmaq vacibdir”, - deyə T. Klaar qeyd edib.



# Auditorlar Palatasının yüksək vəzifəli məmuru həbs edildi

***Azərbaycan Respublikası Auditorlar Palatasının Gəncə şəhər Auditor təşkilatının direktoru vəzifəsində işləmiş Məmmədov Natiq Həmid oğlunun qanunsuz əməlləri ilə əlaqədar vətəndaşın müraciəti əsasında aparılmış araşdırma nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb.***

Baş Prokurorluğun mətbuat xidmətindən “Unikal”a verilən məlumata görə, istintaq tədbirləri ilə Natiq Məmmədovun qeyd olunan vəzifədə işləyərkən 2012-ci ilin fevral ayında Müəllimlər İnstitutunun Qazax fililalının maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması zamanı həmin müəssisənin inzibati binasında filialın direktorundan 400 min manat məbləğdə pul vəsaitini rüşvət qismində alması əsaslı şübhələr yaranıb.

Bundan başqa, Natiq Məmmədovun həmin vəzifədə işləyərkən 2014-cü ilin may ayında “Finca Azərbaycan” Qeyri Bank Kredit Təşkilatına məxsus olan 15 min 600 manat məbləğdə pul vəsaitini ələ keçirərək dələduzluq etməsinə, rəsmi sənədlərə bilə-bilə yalan məlumatların daxil edilməsi yolu ilə vəzifə saxtakarlığı törədərək həmin sənədlərdən istifadə etməsinə əsaslı şübhələr müəyyənləşib.

Bundan əlavə, Natiq Məmmədovun vətəndaşın Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin Gəncə şəhər şöbəsi və ya Yanğından Mühafizə Xidmətinin Göygöl rayon şöbəsində işlə təmin olunmasına köməklik göstərilməsi müqabilində sonuncunu ümumilikdə ona 7000 manat pul verməsinə təhrik edərək həmin şəxsdən 5000 manat miqdarda pul alaraq təkrarən dələduzluq etməsinə əsaslı şübhələr yaranıb.

24 sentyabr 2020-ci il tarixdə Natiq Məmmədova Cinayət Məcəlləsinin 178.2.4 (xeyli miqdarda ziyan vurmaqla dələduzluq etmə), 311.3.4 (rüşvət alma hədə-qorxu tətbiq olunmaqla törədildikdə), 313 (vəzifə saxtakarlığı) və başqa maddələri ilə ittiham elan edilib, Binəqədi rayon Məhkəməsinin 24 sentyabr 2020-ci il tarixli qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində istintaq-əməliyyat tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

# Əbülfəs Qarayevin hesab verməli olduğu daha bir qanunsuzluq...

## Keçmiş Mədəniyyət naziri niyə Bakıdakı tarixi binaların məhvinə göz yummuşdu?

***”Bakı şəhərinin nadir, özünəməxsus, tarixi memarlıq siması var. Bu, bizim böyük sərvətimizdir və hər bir tarixi binaya böyük diqqətlə yanaşılır. O binaların təmiri gərək elə aparılsın ki, onların tarixi görkəmi pozulmasın. Bəzi hallarda tarixi binaları sökürlər, onların yerində eybəcər hündürmərtəbəli binalar tikirlər. Buna yol vermək olmaz. Bakının memarlığı bizim milli sərvətimizdir” - bu sözləri ölkə başçısı İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin rəhbəri Eldar Əzizovu qəbul edərkən demişdi.***

Beləliklə, son illərdə paytaxtda tarixi binalarının hansısa işbazların tamahına qurban getməsi, onların yerində heç bir özünəməxsus memarlıq zövqü olmayan hündürmərtəbəli binaların, restoranların, ticarət obyektlərinin tikilməsi ilə bağlı cəmiyyətdəki narahatlıqlar və narazılıqlar dövlət rəhbəri səviyyəsində dilə gətirilmişdi. Əlbəttə, Bakının yeniləşməsi, modernləşməsi eyni zamanda dövrün tələbidir. Lakin bu yenilənmə, modernləşmə paytaxtın tarixinə, keçmişinə yad münasibətlə müşahidə edilə bilməz. Təəssüf ki, bu sadə həqiqət uzun müddət səlahiyyət sahiblərinin bir o qədər də vecinə olmayıb. Söhbət ilk növbədə Bakının sabiq meri Hacıbala Abutalıbovla keçmiş Mədəniyyət naziri Əbülfəs Qarayevdən gedir. Xüsusilə də sonuncunun paytaxtı cənginə alan ”tikinti bumu” ilə birgə tarixi binaların da uçurulub-dağılmasını səssizcə seyr etməsi qəbuledilən deyil. Axı mədəniyyət sahəsinə məsul olan şəxs kimi Qarayevin mühüm vəzifələrindən biri də elə həmin binaların qorunmasını təmin etmək idi. Ancaq Əbülfəs müəllim üzərinə düşən bir çox vacib vəzifə kimi, bu işi də, necə deyərlər, yarıtmadı.

Elə Bakıda tarixi binaların ”tikinti bumuna” qurban getməsi əleyhinə çoxsaylı yazılar qələmə alan şair-publisist Elnur Astanbəyli də ”Unikal”a açıqlamasında sabiq Mədəniyyət nazirini paytaxtın memarlıq ənənələrinin yox edilməsinə göz yummaqda suçlayıb. ”Əbülfəs Qarayev Azərbaycan mədəniyyətinə Qara Qarayev kimi böyük bəstəkar bəxş edən ailədən gəlir. Bu ailənin bəstəkar Fərəc Qarayev, pianoçu Cahangir Qarayev kimi üzvləri var. Elə Əbülfəs Qarayevin özü də müsahibələrində ədəbiyyata, mədəniyyətə böyük sevgisindən şövqlə danışırdı. Lakin biz onun bu sevgisini Bakının tarixinə buldozerlərlə edilən hücum zamanı görmədik. Paytaxtda saysız-hesabsız tarixi əhəmiyyətli bina uçurularkən o, sadəcə, susdu. Hətta susmaqla kifayətlənmədi, bəzi belə binalar dağıdılarkən yaranan ictimai narazılıqlara rəhbərlik etdiyi nazirlik gülməli arqumentlə cavab verdi: ”Onlar bizim siyahımızda yoxdur”. Necə deyərlər, ”üzrü günahından betər”. Məsələn, Azərbaycanın böyük aktyoru Abbas Mirzə Şərifzadənin yaşadığı binanın günahıdırmı ki, siz gedib zamanında onu siyahıya almamısınız? Başınız kabinetdə oturub büdcə pullarını xımır-xımır yeməyə qarışanadək, zəhmət çəkərdiniz, gedib siyahıya alardınız. Bəlkə onda həmin ev uçurulmazdı, bir yandan 37-ci il repressiyasının qurbanına çevrilən qüdrətli bir sənətkarın ruhu inciməz, digər tərəfdən istər teatr, istərsə də ümumilikdə Bakının tarixi üçün çox şey ifadə edən bir bina yox edilməzdi” - deyə E.Astanbəyli bildirir.

Şair-publisistin sözlərinə görə, Ə.-Qarayevin Mədəniyyət naziri kimi birbaşa borcu idi ki, paytaxtın mədəni irsinə sahib çıxsın. ”O, Bakının tikinti şirkətlərinin əlində oyuncağa çevrilməsinə mane ola bilməzdi bəlkə... Lakin həm nazir, həm də bir bakılı olaraq paytaxtın uzun bir zamandır öz gerçək kimliyindən uzaqlaşdırılmasına, heç bir estetik zövqü olmayan, heç bir özəl memarlıq dəyəri daşımayan, əksinə, bir-birinin təkrarından ibarət, standart, ruhsuz göydələnlər şəhərinə çevrilməsindən narahatlığını dilə gətirə bilərdi. Bir ara belə bir ifadə dəb düşmüşdü: ”Yeni Dubay”. Deyirdilər, guya Bakı ”Yeni Dubay”a çevrilir. Bu kökündən yanlış fikirdir. Əvvəla, Dubayı Dubaya çevirən yalnız dəbdəbəli göydələnləri deyil, məsələn, Yaxın Şərqin ən böyük ticarət, maliyyə və turizm mərkəzi olmasıdır. İkincisi, Əbülfəs müəllim bir dəfə çıxıb söyləmədi ki, müasir Dubay heç də tarixi kimliyi məhv etmək hesabına başa gəlməyib, əksinə, şəhərin “Bur Dubay” adlanan hissəsi qədim tikililəri, muzeyləri, tarixi izləri daşıyır, göz bəbəyi kimi qorunur, ora turistlərin sevimli məkanıdır.O, Mədəniyyət naziri və bakılı olaraq bu həssaslığı göstərməliydi. Lakin görünür, əlində daha vacib işləri olduğundan paytaxtın tarixi irsinə sahib çıxmağa vaxt tapmadı. Həmin vacib işlərin nədən ibarət olduğunu isə sonralar gördük. Məgər Mədəniyyət Nazirliyinin kabineti rüşvət, korrupsiya oyunlarının meydanına çevrilibmiş. Bilirsiz, rüşvət, korrupsiya ilə kim, hansı qurum məşğul olursa pisdir, təkcə cinayət yox, əxlaqsızlıqdır. Ancaq adında ”mədəniyyət” sözü olan bir nazirliyin belə işlərə bulaşması ikiqat utancverici, ikiqat rüsvayçılıqdır”.

Elnur Astanbəyli deyib ki, Ə.Qarayev bir neçə il əvvələdək yalnız mədəniyyət yox, turizm sahəsinə də cavabdeh idi: ”Elə turizmə məsul olan şəxs kimi də onun birbaşa borcu idi ki, Bakını cənginə alan ”tikinti bumunun” bu qədim şəhərin mədəni irsinin qorunmasına can yandırsın. Çünki Bakı turistləri məhz öz tarixi ünvanları ilə cəlb edə bilər. Siz hansısa avropalını, yaxud yaponu “Alov Qüllələri” ilə təəccübləndirə, heyrətləndirə bilərsiniz? Gözünü açıb Eyfeli görən parisli el basa-basa durub Azərbaycan paytaxtına niyə gəlsin, bu qüllələrə nə üçün ağzıaçıq tamaşa etsin? Bir şəhəri dəyərli və cəlbedici edən onun tarixi özəllikləri, arxitekturasından tutmuş həyat tərzinə qədər müxtəlif özünəməxsusluqlarıdır. Bunları yox edəndən sonra hansısa əcnəbi üçün Bakı niyə maraqlı olsun ki? Əbülfəs Qarayev bunu anladığı halda susursa, Mədəniyyət Nazirliyində rüşvətə, korrupsiyaya meydan verməkdən də ağır cinayət işlədib. Yox, əgər anlamayıb susursa, bu da elə bir o qədər böyük biabırçılıqdır”.



Elnur Astanbəyli sonda onu da vurğulayıb ki, keçmiş Mədəniyyət naziri bu postda çalışarkən bir çox rüsvayçılıqlara ya göz yumub, ya da ”yaşıl işıq” yandırıb: ”Məsələn, Bakıdakı kitab dükanlarının, bir çox kitabxanaların başına nə oyunlar açıldı, hamımızın yadındadır. Onları ticarət obyektlərinə, kababxanalara çevirdilər. Yəni, Əbülfəs Qarayev Azərbaycan mədəniyyətinə böyük töhfələr verən bir ailədən çıxmasına baxmayaraq mədəniyyət sahəsində ciddi yanlışların baş verməsinə həmişə laqeyd, səssiz münasibət sərgiləyib. Buna ancaq təəssüflənmək olar. Hərçənd təəssüflənmək itirilənləri geri qaytarmaq üçün kifayət deyil...”.

***Sənan Mirzə***

# İRAN VƏ RUSİYA YOLDAŞ OLMAQDA İSRARLIDIR

## Sergey Lavrov: "Düzdür, cəhdlərimizin nə qədər uğurlu olacağını bilmirəm"

***Rusiya və İran ABŞ-ın "beynəlxalq hüquq pozuntuları" ilə üzləşməyə hazırdır. İki ölkənin xarici işlər nazirləri Sergey Lavrov və Məhəmməd Cavad Zərifin Moskvada keçirdiyi görüşün əsas leytmotivi budur. Rusiya Vaşinqtonun İran əleyhinə sanksiyalarına, hərbi-texniki də daxil olmaqla, müxtəlif sahələrdə yeni ortaq layihələrlə cavab vermək niyyətindədir. Ancaq ABŞ da geri çəkilməyə hazır deyil. Rusiya və İran xarici işlər nazirləri danışıqlar apararkən, Vaşinqton Tehrana qarşı yeni sanksiyaları elan edib.***

Məhəmməd Cavad Zərif Sergey Lavrovla danışıqların başlanğıcında deyib: "Koronavirus belə mənim Moskva səfərlərimə müdaxilə etmir". Cənab Zərif əvvəlki səfəri zamanı başladığı ənənəni davam etdirib və Rusiyaya etdiyi bütün səfərləri sayıb: iyun ayının əvvəlindən və ümumən 2013-cü ildə xarici işlər naziri təyin olunduğu gündən bu yana 31-ci səfəridir.

İyul ayında son nazirlər toplantısından sonra Moskva və Pekin BMT Təhlükəsizlik Şurasında İran uğrunda mübarizədə ABŞ-a qalib gələrək, oktyabrın 18-də bitən Tehrana silah tədarükü qadağasını ləğv edib. Buna görə cənab Zərif rus və çinli dostlarına minnətdarlığını bildirib.

Təhlükəsizlik Şurasında uğursuzluğa düçar olan Vaşinqton Bazar ertəsi günü İrana silah satmaq və ya əksinə, ondan silah almaq istəyənlərə sanksiya tətbiq edib. Tehrana "hər cür texniki təlim, maliyyə mənbələri, məsləhət" və silahlarla əlaqəli digər yardımların verilməsinə də məhdudiyyətlər qoyulur.

Bundan əlavə, Vaşinqton bir tərəfli olaraq Tehrana qarşı BMT Təhlükəsizlik Şurasının 5 üzvü və Almaniyanın 2015-ci ildə İranla nüvə sazişinin - Birgə Hərtərəfli Fəaliyyət Planın (JCPOA) imzalamasından əvvəl mövcud olan bütün beynəlxalq sanksiyaların bərpa olunduğunu elan edib.

Əksər ölkələr ABŞ-ın İrana qarşı sanksiyaları bərpa etmək qərarını tanımayıb. Ancaq bu, İrana qarşı mübarizə yolunda Vaşinqtonu dayandıra bilməyib. Cümə axşamı Sergey Lavrov və Məhəmməd Cavad Zərif görüşərkən, 2018-ci ildə hökumət əleyhinə nümayişlər zamanı Şirazda bir təhlükəsizlik işçisini öldürməkdə günahlandırılan 27 yaşlı güləşçi Nəvid Əfkarinin edamı ilə əlaqədar ABŞ-ın İran rəsmilərinə qarşı yeni sanksiyalar tətbiq olunduğu məlum olub.

Bunun fonunda İran xarici işlər nazirinin Sergey Lavrovla görüşü zamanı BMT Təhlükəsizlik Şurasında döyüşlərə hazır olduğunu elan etməsi təəccüblü deyil.

Rusiyalı nazir danışıqların əvvəlində deyib: "Çox təəssüf ki, JCPOA ətrafında vəziyyət kəskinləşir. Amerikalı həmkarlarımız BMT Təhlükəsizlik Şurasında dəstək tapmayan, qəbuledilməz, birtərəfli, qanunsuz fikirləri təbliğ etməyə çalışırlar. Bu vacib sənədə sadiq qalmış bütün JCPOA iştirakçıları ilə fəal şəkildə işləyirik".

Lavrov "beynəlxalq hüququn əsaslarını sarsıtmaq üçün aktiv cəhdlər gördükdə", iranlı həmkarı ilə "xarici siyasət cəbhəsində ortaya çıxan çox həyəcanverici tendensiyalara qarşı fikir mübadiləsinin vacib olduğu"nu sözlərinə əlavə edib.

Cənab Zərif, öz növbəsində, Rusiyanın oktyabr ayında bu quruma rəhbərlik etdiyi dövrdə Təhlükəsizlik Şurasının nüfuzunu qorumaq üçün əlindən gələni edəcəyinə ümid etdiyini bildirib.

İranlı həmkarı ilə danışıqlar və mətbuat konfransı arasında Sergey Lavrov BMT Təhlükəsizlik Şurasının iclasında videoəlaqə vasitəsi ilə danışıb. Nazirin çıxışı Rusiyanın sədrliyinin tonunu təyin etməli idi. Bu çıxışda ABŞ-a eyhamlar da var idi. Barışdırıcı bəyanatlardan (pandemiyanın bütün ölkələrin bir-birinə necə bağlı olduğunu və problemlərin təkbaşına həll edilə bilməyəcəyi) başlayaraq, cənab Lavrov bəzilərinin "fürsətçi fikir ayrılıqlarını kənara qoymağa" və problemləri birlikdə həll etməyə hazır olmadığını açıq şəkildə bildirib.

"Ayrı-ayrı dövlətlərin mövcud vəziyyətdən dar eqoist, ani mənafeləri təşviq etmək, istənməyən hökumətlərlə və ya geosiyasi rəqiblərlə hesablaşmaq üçün istifadə etməyə cəhdləri var". Onun sözlərinə görə, "Böyük beşlik" zirvəsi - BMT Təhlükəsizlik Şurasının daimi üzvləri arasında beynəlxalq epidemioloji vəziyyətin imkan verdiyi anda baş tutmalı olan üzbəüz söhbət - qlobal sabitliyi gücləndirməlidir.

"COVID-19 sonrası dövrdə qlobal idarəetmə" mövzusunda qısa çıxışdan sonra Sergey Lavrov iranlı həmkarı ilə birgə mətbuat konfransı keçirib. Hər iki nazir hüquq və dünya nizamı üçün mübarizə aparmağa hazır görünüblər. ABŞ-a cavablarını yalnız beynəlxalq platformalarda deyil, sanksiyalara baxmayaraq, "ticarət və investisiya əlaqələri" inkişaf etdirərək də vermək niyyətindədirlər.

Sergey Lavrov bildirib: "Əlbəttə, ABŞ-ın qanunsuz birtərəfli sanksiyaları və Tehranın iqtisadi təcridinə yönəlmiş təzyiqlərlə qarşılaşırıq". Ancaq o dərhal "nəqliyyat, sənaye, kooperasiya sahələrində, ilk növbədə, enerji sektorunda, o cümlədən nüvə enerjisi sahəsində böyük ortaq investisiya layihələrinin həyata keçirilməsinə davam etmək üçün" bir razılaşma əldə edildiyini vurğulayıb. Rus nazir "davam etmək" sözünü xüsusi vurğulayıb.

İki ölkənin xarici işlər nazirləri ilin sonuna qədər Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın (HK) iclasının keçirilməsinə dair razılığa gəlib. Tarix yenə də epidemioloji vəziyyətdən asılı olacaq, baxmayaraq ki, Məhəmməd Cavad Zərif Sergey Lavrovla danışıqlardan əvvəl HK-nın oktyabrda keçiriləcəyinə ümid etdiyini bildirib. Ancaq Moskvada tarixlə risk etməməyə qərar veriblər. Moskva və Tehran hərbi-texniki əməkdaşlığı inkişaf etdirmək niyyətindədir.

Bir iranlı jurnalistin Rusiya və BMT Təhlükəsizlik Şurasının digər üzvlərinin ABŞ-ın Tehranın digər ölkələrlə bu sahədə əməkdaşlığına müdaxilə cəhdlərinə müqavimət göstərməyə hazır olub-olmadıqları barədə sualına cənab Lavrov belə cavab verib: Rusiya öz siyasətini başqalarının "qanuni qüvvəsi olmayan təcavüzkar tələbləri" əsasında qurmaq fikrində deyil.

Rusiya Xarici İşlər Nazirliyindəki danışıqlardan əvvəl də Zərif "Sputnik"ə verdiyi müsahibəsində Moskva və Tehranın "həm hərbi texnika satınalmada, həm də digər sahələrdə böyük potensiala sahib olduğunu" söyləyib. Rusiyadan silah almağın mümkünlüyü barədə suala cavab olaraq o bildirib ki, İran silahlı qüvvələrinin siyasəti özünü təmin etmək məqsədi daşıyır. "Ancaq bu, bütün silah ehtiyaclarımızı 100% təmin edə biləcəyimiz anlamına gəlmir".

Tərəflər JCPOA uğrunda mübarizəyə və ikitərəfli münasibətlərin inkişaf perspektivlərinə əlavə olaraq, Suriya, Əfqanıstan və Yəməndəki vəziyyəti müzakirə ediblər.

"Müharibənin dayanmadığı" məhz bu üç ölkəni cənab Zərif İranın bölgədəki prioritetləri adlandırıb. Tehranın Suriyadakı hadisələrin inkişafına dair mövqeyini o, Sergey Lavrovla danışıqlardan əvvəl də ətraflı izah edib.

Beləliklə, nazir xüsusilə Suriya hökuməti ilə müxalifət arasında "Astana formatı" (Rusiya, İran, Türkiyə) çərçivəsində planlaşdırılan görüşü açıqlayıb, hərçənd indi bütün danışıqlar prosesi Suriya Konstitusiya Komitəsinin çalışdığı Cenevrədə keçirilir.

"Kommersant"ın sualını cavablandıran nazirlər Cenevrədəki danışıqları əvəz etmək niyyətində olmadıqlarını, ancaq konstitusiyadan başqa, rəsmi Dəməşq və müxalifətin müzakirə etməli olduğu bir çox mövzunun varlığını dilə gətiriblər.

Sergey Lavrov, BMT-nin bütün Suriyalararası dialoq cəhdləri uğursuz olduqda, Konstitusiya Komitəsinin fəaliyyətə başlamasını asanlaşdıran "Astana üçlüyü" olduğunu xatırladıb. "Biz yaratdığımız bütün qurumlara cavabdehik". Sergey Lavrov BMT nümayəndələrinin də Moskvanın üçün belə bir rolunda maraqlı olduqlarını deyib.



Həm rusiyalı nazir, həm də iranlı həmkarı "Astana formatı"nın vacibliyini vurğulayıb və Türkiyə ilə işləməyə hazır olduqlarını təsdiqləyiblər.

Rusiya Xarici İşlər Nazirliyindəki danışıqlardan əvvəl cənab Zərif "Sputnik"ə verdiyi müsahibədə bölgənin təhlükəsizliyinə təhdidlər yaratmaqda günahlandıraraq Ankaranı sancıb. İranlı nazir Sergey Lavrovun yanında Türkiyəni tənqid etməyə cəsarət etməyib. Sergey Lavrov da Moskvanın "Astana formatı" üzrə tərəfdaşlarına olan bütün iddialarını danışıqlar çərçivəsindən kənarda qoyub.

Moskva və Tehranın ABŞ-ın beynəlxalq hüququ pozduğu saydığı ortaq bir təhlükə qarşısında birlik nümayiş etdirməyin daha vacib olduğu ortaya çıxıb. Lakin Rusiya Xarici İşlər Nazirliyi rəhbərinin vurğuladığı kimi, Moskva İrana qarşı sanksiyalar mövzusunda amerikalılarla dialoqu davam etdirir. "Biz onlarla fikirləşməyə və bu cür davranışın mütləq faydasızlığını beynəlxalq hüquqla izah etməyə çalışırıq"

Sergey Lavrov əlavə edib: "Düzdür, cəhdlərimizin nə qədər uğurlu olacağını bilmirəm".

***Marianna Belenkaya, Qalina Dudina "Kommersant", 24.09.2020***

**Layihənin istiqaməti: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Dağlıq Qarabağ gerçəklikləri barədə dünya ictimayyəti daim məlumatlandırılır

## Nəzakət Məmmədova: "Azərbaycan illərdir ki, bu münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb"

***Artıq bir neçə gündür ki, Dağlıq Qarbağ münaqişəsi ətrafında çox ciddi müzakirələr gedir. Hətta prezident İlham Əliyev də yerli mətbuata müsahibəsində bildirib ki, keçən il Ermənistan baş nazirinin səsləndirdiyi cəfəng fikirlər danışıqlar prosesinə ciddi zərbə vurdu: "O, "Qarabağ Ermənistandır" deməklə nəinki yalanı bütün dünyaya yaydı və bu da davam edir, eyni zamanda, danışıqlar prosesini mənasız edir.***

Əgər o hesab edir ki, Qarabağ Ermənistandır, onda nə barədə danışmaq olar? Əgər o, belə hesab edir ki, Qarabağ Ermənistandır, - halbuki, bütün dünya bu cəfəng fikri rədd edib, - onda hansı sülh müqaviləsindən söhbət gedə bilər. Yəni, bu, siyasi təxribat idi. "İkinci siyasi təxribat o idi ki, Azərbaycan Ermənistanla yox, Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu da formatı dəyişdirmək deməkdir və buna əlbəttə ki, biz heç vaxt razı ola bilmərik. Çünki bu oyuncaq kriminal xunta rejimi ilə heç bir təmaslarımız ola bilməz. Eyni zamanda, Minsk qrupunun həmsədrləri də buna əlbəttə ki, heç vaxt razı ola bilməzdilər. Faktiki olaraq bu açıqlamalar onu deməyə əsas verir ki, Ermənistan danışıqlardan çıxıb, biz yox, Ermənistan. Belə olan halda, biz duraq deyək ki, gəlin danışıqlara başlayaq, yaxud da ki, davam edək, sadəcə, məsuliyyətsizlik olar və özümüz özümüzü aldatmamalıyıq, xalqımızı aldatmamalıyıq. Danışıqlar getmir və bu, pandemiyaya görə baş vermir. Əlbəttə, pandemiya müdaxilə edib, amma pandemiyasız da danışıqlar getmir. Siyasi cəhətdən qüsurlu və ziyanlı bu bəyanatlar danışıqlar üçün yer qoymur".

Prezidentin Dağlıq Qarabağla bağlı səsləndirdiyi bu fikir illərdir ki, münaqişənin sülh yolu ilə həllində maraqlı olan Azərbaycanın səbr kasasının daşdığının ismarıcıdır. Son günlər isə ölkəmizdə müharibə ab-havası yaşanır. Ötən həftədən etibarən Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ehtiyatda olan hərbi vəzifəlilərin müxtəlif ixtisaslar üzrə təlim toplanışlarına çağırılması həyata keçirilir.

Politoloq, Beynəlxalq münasibətlər və təhlükəsizlik məsələləri üzrə mütəxəssis Nəzakət Məmmədova "Unikal" qəzetinə deyib ki, Azərbaycan hər zaman Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olub. N. Məmmədovanın sözlərinə görə, artıq 30 ilə yaxındır ki, ölkəmiz Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara çatdırılması yönündə səy göstərir. Azərbaycanın bir məqsədi var ki, o da Dağlıq Qarabağı qaytarmaq, tarixi torpaqlarının itirilməsinə yol verməmək.- Haqlı olan tələbimizi 30 ildən çoxdur ki, həyata keçirə bilmirik. Həmin ərazilər çoxdan qaytarılmalı idi. Burada böyük dövlətlərin maraqları var. Azərbaycan təkdir, bütün dünya gücləri Ermənistanın tərəfindədir. Ermənilər beynəlxalq hüquqda "Xalqların öz müqəddaratını təyin etmə" prinsipinə, Azərbaycan isə "Ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, dövlətlərin suverenliyi" prinsipinə istinad edir. Erməni xalqı dünyada



öz müqəddaratını təyin edib, dövlət yaradıb. Ərazicə kiçik olan Qafqazda ikinci erməni dövlətinin yaradılmasına heç bir ehtiyac yoxdur. Öz müqəddaratını təyin etmək prinsipi dünyada qəbul olunmur. Çünki bu separatizmə gətirib çıxarır.Artıq dünya dövlətlərinin sərhədləri tanınır, dünya ictimaiyyəti dövlətləri bu sərhədlərlə tanıyır və yenidən hansısa xalqın, etnik qrupun öz müqəddəratını təyin etməyə çalışması yalnız separatizmə və silahlı münaqişələrə gətirib çıxarır. Avropa etnik separatizminin nə qədər təhlükəli hal olduğunu bilir. Azərbaycanın mövqeyini Avropa Birliyi tərəfindən dəstəkləyən bir sıra bəyanatlar olub. Burada da əsas prinsip olaraq dövlətlərin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq sərhədlərə hörmət prinsipi əksini tapır. Buna görə də, Azərbaycan hər zaman torpaqlarını müharibə yolu ilə azad etmək hüququnu saxlayır. Son günlər ölkəmizdə müharibə ab-havasının olması isə artıq danışıqların səmərə verməməsi kimi yox, ermənilərin hər dəfə danışıqları pozması ilə əlaqələndirilə bilər. Azərbaycan illərdir ki, bu münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Təklif edilən danışıqlarla bağlı masa arxasına keçilib. Dağlıq Qarbağ həqiqətləri dünya arenasında səsləndirilib. Dağlıq Qarabağ münaqişəsi zamanı insanlığa qarşı törədilmiş ağır cinayətlərdən dünya ictimaiyyəti də xəbərdardır. Dağlıq Qarabağ həqiqətlərinin beynəlxalq təşkilatların diqqətinə çatdırılması işi bu gün də davam etdirilir. Bununla belə beynəlxalq təşkilatlar Ermənistan tərəfindən qanunsuz məskunlaşdırma siyasətinə göz yumurlar. Halbuki bu, bütün beynəlxalq konvensiyalara ziddir. Cenevrə Konvensiyasına tamamilə zidddir hətta cinayətdir. İşğal edilmiş torpaqlara haradansa insan gətirib qanunsuz məskunlaşdırmaq cinayət hesab olunur. Bunu Paşinyan rejimi şüurlu şəkildə edir. Bu, təxribatdır. Bizi təxribata çəkirlər, onu göstərirlər internetdə - hansısa Livan erməni ailəsi gəlibdir, orada hansısa iş görür. Ondan sonra bizim qədim tarixi şəhərimiz olan Şuşa şəhərində o qondarma rejimin qondarma, dırnaqarası rəhbərinin guya andiçmə mərasimini keçirirlər. Bu, növbəti təxribatdır. Bu, bizə qarşı açıq təhqirdir. Onlar hesab edirlər ki, biz buna dözəcəyik? Bunu, bu təxribatı kim edir? Onlar edir. Biz heç bir təxribat etmirik. Biz öz mövqeyimizdə dayanmışıq. Amma onlar bununla da sakitləşməyərək Tovuz istiqamətində atəşkəsi mütəmadi olaraq pozurlar. Bütün bunlar təbii ki, Azərbaycanı müharibə hazırlığına məcbur edir. Ölkəmiz hər bir təxribatın qarşısını almağa hazır olmalıdır".

Xatırladaq ki, bu günlərdə Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova ilə görüşü zamanı bildirib ki, Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllinə öz dəstəyini verir və bu sahədə səylərini əsirgəmir. Lavrov qeyd edib ki, Ermənistanın Baş naziri N.Paşinyanın Dağlıq Qarabağla bağlı səsləndirdiyi fikirlər münaqişənin nizamlanması prosesinə manеə törədir.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən deyib ki, ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşması məsələsi Azərbaycan tərəfindən bir çox beynəlxalq təşkilatlarda artıq qaldırılıb: "Bu, beynəlxalq hüquqla kobud şəkildə ziddiyyət təşkil edir. Bu, Cenevrə Konvensiyasının pozulmasıdır və bu, cinayətdir. Onlar erməniləri Livandan Şuşaya, digər işğal olunmuş ərazilərə köçürürlər".

Bütün bunları nümayiş etdirdiklərini, televiziya və internet vasitəsilə göstərdiklərini vurğulayan İlham Əliyev, Ermənistanın beynəlxalq hüquq normalarına tamamilə məhəl qoymadığını və cinayət törətdiyini deyib:"Onların bu cür davranmaq imkanında olmasının səbəbi ondan ibarətdir ki, onları dayandıran yoxdur. Minsk qrupunun həmsədrləri onları dayandırmır. Minsk qrupunun bəyanatları birbaşa ünvanı olmayan bəyanatlardır. Çünki Azərbaycan heç bir təxribatçı addım atmayıb. Biz dövlət sərhədində onlara hücum etməmişik, diversiya qrupu göndərməmişik, könüllü qoşunun yaradılmasını elan etməmişik, heç bir başqa təxribat törətməmişik. Bütün təxribatlar Ermənistan tərəfindən törədilir və onlar bunu qəsdən edirlər, bunu nümayiş etdirirlər. Onlara beynəlxalq təzyiqin olmaması, - mən bunu Minsk qrupunun həmsədrləri ilə görüşlərdə dəfələrlə qaldırmışam, - çox təhlükəli addımlara gətirib çıxarır ki, bunun da gözlənilməz nəticələri ola bilər".

İlham Əliyev kəşfiyyat mənbələrinə istinadla bildirib ki, Ermənistanda çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. "Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik, Tovuzda etdiyimiz kimi, başqa bir çox hallarda etdiyimiz kimi. Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar. Mən, sadəcə olaraq, sizin bunu bilməyinizi və bu mesajı Avropa Komissiyasına çatdırmağınızı və Avropa Komissiyasının təcavüzkarın yeni təxribatlarını dayandırmaq üçün nə edə biləcəyini görmək istəyirəm", - deyə İlham Əliyev qeyd edib.

Politoloq onu da qeyd edib ki, Dağlıq Qarabağ məsələsi ilə bağlı vəziyyəti təhlil edərkən belə bir nəticəyə gəlmək olar ki, münaqişənin sülh yolu ilə həlli imkanları tükənib:"Ermənistan sülhə getmək istəmir, həmsədrlər işğalçını sülhə məcbur etmək istəmir, Azərbaycan isə təbii ki, öz halal torpaqlarından imtina etməyəcək. Belə olan halda hər hansı sülh yolu ilə həll vasitəsi qalmır. Azərbaycan respublikasının prezidenti İlham Əliyev də münaqişənin Minsk qrupu çərçivəsində həllinin artıq mümkünsüz olduğunu açıq şəkildə bildirib. Ümumiyyətlə, müasir dünyada artıq münaqişələrin beynəlxalq təşkilatlar çərçivəsində həlli imkanları getdikcə tükənməkdədir. Soyuq müharibə dövründəki güc balansının təzahürü olan beynəlxalq və regional təşkilatlar, o cümlədən ATƏT və onun Minsk qrupu problemi həll etmək iqtidarında deyil. Beynəlxalq təşkilatlar elə onu təsis edən böyük dövlətlərin özlərinin maraqlarının əsirinə çevrilib. Minsk qrupunun həmsədrləri dünya siyasətində ən fərqli maraqları olan, öz aralarında ziddiyyətlər yaşayan dövlətlərdir. Onların həmrəy olub münaqişəni həll edəcəyi əsla mümkün deyil. Bütün bu illərdə Minsk qrupu kövrək atəşkəs və Ermənistanın işğalının nəticələrinin möhkəmlənməsinə xidmət etməkdən başqa heç bir işə yaramayıb. Bundan sonra da Minsk qrupu problemi həll etməyəcək. Bunu yalnız Azərbaycan etibarlı tərəfdaş və müttəfiq ölkələrlə, məsələn Türkiyə ilə birgə həll edə bilər. Digər irəliləyiş isə Rusiyanın başçılıq etdiyi hərbi-siyasi ittifaqlara, məsələn, KTMT, Avrasiya İqtisadi Birliyinə daxil olmağı qəbul etməklə, Rusiyanın yardımı ilə torpaqların bir hissəsini qaytarmaq mümkün ola bilər. Lakin bu, Azərbaycanın Qərb ilə yollarının birdəfəlik ayrılması, Türkiyə ilə ixtilaf və suverenliyimizin məhdudlaşdırılması na gətirib çıxara bilər".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı

# “Qanuni oğru” döyülərək öldürüldü



***Gürcü əsilli “qanuni oğru” Kaxaber Parpaliya (Kaxa Qalski) dünyasını dəyişib.***

Rəsmi məlumatlarda onun ölüm səbəbi insult keçirməsi ilə izah edilir. Lakin Rusiya KİV-ləri yazır ki, bir neçə gün əvvəl 45 yaşlı Kaxa Parpaliya Federal Penitensiar Xidmətin Omsk vilayətindəki idarəyə gətirilib. “Qanuni oğru” orada döyülərək öldürülüb.

Kaxa Qalski hazırda Rusiyada həbsxanada olan “qanuni oğru” Zaxari Kalaşovun (Şakro Molodoy) yaxın ətrafına daxil olan kriminalitet kimi tanınırdı. Onun kriminal iyerarxiyanın ən yüksək tiuluna layiq görülməsində də Şakro Molodoyun rolunun olduğu deyilir. Kaxa Parpaliya digər “qanuni oğru”lar kimi uzun müddətli həbs həyatı yaşamasa da, kriminal dünyada kifayət qədər nüfuzu olub. Hətta bir müddət Qafqaz klanının lideri kimi tanınıb.

Onun Türkiyədə qətlə yetirilən azərbaycanlı “qanuni oğru” Nadir Səlifovla (Lotu Quli) münasibətləri o qədər də yaxşı olmayıb. Parpaliya da himayədarı Şakro Molodoy kimi da kifayət qədər nüfuz sahibi olan Lotu Qulini özünə rəqib görüb.

# Dünən meyitləri tapılan qadınlar qətlə yetirilibmiş

***Xəbər verdiyimiz kimi, ötən gün Bakıda mənzildən iki qadın meyiti tapılıb. FHN-in xilasedicilləri və polis əməkdaşlarının aşkar etdiyi meyitlər aidiyyəti üzrə təhvil verilib.***

Həmin şəxslərin qətlə yetirildiyi məlum olub. Belə ki, Günəşli qəsəbəsi, D yaşayış sahəsi, 27-ci binada yaşayan 88 yaşlı Esmira Cavadova və onun qızı, 61 yaşlı Tamella Cavadova yaşadıqları evdə bıçaqlanaraq öldürülüb. Onları E.Cavadovanın nəvəsi Samir Cavadovun ailə münaqişəsi zəminində öldürdüyü məlum olub.

S.Cavadov bibisi və nənəsini öldürdükdən sonra mətbəxdə qazı açaraq çıxıb gedib və onların dəm qazından öldüyünə şübhə yaratmaq istəyib. O, hadisə yerindən qaçaraq gizlənsə də, Suraxanı rayonu ərazisində saxlanılıb.

Suraxanı rayon Prokurorluğu da qətllə bağlı məlumat yayıb: “Sentyabrın 24-də saat 12 radələrində Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsi ərazisində 1932-ci il təvəllüdlü Simuzər Cavadova və 1959-cu il təvəllüdlü Tamilla Cavadovanın yaşadıqları evdə üzərlərində çoxsaylı bıçaq xəsarətləri olan meyitlərinin aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. Faktla bağlı Suraxanı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Dərhal prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitlərə baxış keçirilib, müvafiq ekspertizalar təyin edilib, maddi sübutlar götürülüb, şahidlər dindirilib və digər prosessual hərəkətlər yerinə yetirilib.

İlkin istintaqla 1985-ci il təvəllüdlü Samir Mustafayevin şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı çoxsaylı bıçaq zərbələri vuraraq nənəsi Simuzər Cavadova və bibisi Tamilla Cavadovanı qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Samir Mustafayev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir”.

# BP-də işləyən ərini qısqanclığa görə öldürübmüş

***“BP-Azərbaycan” şirkətində işləyən əri Araz Sofiyevi öldürməkdə təqsirli bilinən Rəna Sofiyevanın məhkəməsi başlayır.***

“Qafqazinfo”nun verdiyi xəbərə görə, ötən ilin iyulunda törədilən qətlin cinayət işi üzrə istintaq yekunlaşaraq iş baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Məhkəmə prosesi hakim Əfqan Hacıyevin sədrliyi ilə keçiriləcək. Hələ ki, ilkin hazırlıq iclasının vaxtı təyin olunmayıb.

Qeyd edək ki, 2019-cu il iyulun 7-də gecə saat 03 radələrində Suraxanı rayonunda baş verən qətl hadisəsi çox müəmmalı halları ilə yadda qalıb. Belə ki, 40 yaşlı Araz Sofiyev divanda yatdığı yerdə 17 bıçaq zərbəsi ilə qətlə yetirilib. Kənd təsərrüfatı texnikasının tədarükündə ixtisaslaşan 4S şirkətinin rəhbər müavini işləmiş Rəna Sofiyeva isə iki naməlum şəxsin evə girərək onlara hücum etdiyini bildirib. R.Sofiyeva həmin şəxslərin ona da xəsarət yetirdiyini bildirib və deyib ki, həmin şəxslər ərinin onlara borclu olduğunu deyiblər. Qadının sözlərinə görə, daha



sonra həmin şəxslər Rəna Sofiyevadan 4.800 dollar alaraq hadisə yerindən qaçıblar.

Lakin 17 bıçaq zərbəsi alan ərin yanındakı qadına sadəcə cızıq xəsarəti yetirilməsi istintaqı aparan müstəntiqdə şübhə yaradıb. Araşdırma zamanı Araz Sofiyevin heç kimə borclu olmadığı məlum olub. Cinayət törədilən zaman evdə olan Rəna Sofiyevanın anası və 15 yaşlı oğlu isə yatdıqları üçün heç nə eşitmədiklərini deyiblər. Ətrafdakı müşahidə kameralarında isə yalnız 1 nəfərin küçədən keçdiyi görünüb.

İstintaq Araz Sofiyevi həyat yoldaşı Rəna Sofiyevanın öldürdüyü qənaətinə gəlib. Onun barəsində rayon məhkəməsi həbs qətimkan tədbiri seçsə də, qadın cinayəti etiraf etməyib. Araşdırma zamanı məlum olub ki, cütlük boşanma ərəfəsində olub, son zamanlar aralarında tez-tez ailədaxili münaqişələr yaranırmış. Məhkəmə ekspertləri mərhum Araz Sofiyevin qanında hücuma müqavimət göstərilməsinin qarşısını almaq üçün istifadə olunan trankvilizator tərkibi tapıblar.

İstintaqın gedişatında Rəna Sofiyeva cinayəti qısqanclıq zəminində törətdiyini etiraf edib. O, ərini yatarkən öldürdüyünü bildirib.

Xatırladaq ki, Araz Sofiyev “BP-Azərbaycan”, “Baltika-Bakı” və “Aqrovest İMP” şirkətlərində müxtəlif vəzifələrdə işləyib. Rəna Sofiyeva isə qətl törədilən müddətdə “Meqa Studio” dizayn şirkətində çalışıb.

2003-cü ildə ailə həyatı quran cütlüyün 2005-ci il təvəllüdlü oğlu olub.

# Sərhəddən 8809 ədəd psixotrop həbin keçirilməsinin qarşısı alınıb

***Son müddət ərzində Dövlət Sərhəd Xidməti tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində “Horadiz” sərhəd dəstəsinin xidməti ərazisində 8 kiloqram 68 qram narkotik vasitənin və 8809 ədəd psixotrop həbin dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısı alınıb.***

Dövlət Sərhəd Xidmətinin mətbuat xidmətindən verilən məlumata görə, sentyabrın 15-də Beyləqan rayonunun 2-ci Şahsevən kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru 1 nəfər şəxsin hərəkəti və sərhədboyu ərazidə naməlum avtonəqliyyat vasitəsinin olması sərhəd naryadı tərəfindən müşahidə edilmişdir. Sərhəd naryadının “dayan” əmrinə tabe olmayan sərhəd pozucusu əlindəki əşyanı ataraq ərazinin sıx qamışlıq və meşəlik olmasından istifadə edərək geriyə qaçmışdır. Həmin ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilib, nəticədə 1 ədəd bağlama içərisində ümumi çəkisi 2 kq 950 qr narkotik vasitə (2 kq “tiryək” və 950 qr “metamfetamin”) aşkar olunaraq götürülüb.

Keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində ərazidə hərəkətdə olan və hadisə yerindən uzaqlaşmağa çalışan “Kia Rio” markalı 99-HX-897 dövlət nömrə nişanlı avtonəqliyyat vasitəsi saxlanılıb.

Avtomobildə saxlanılan şəxslərin Salyan rayon sakinləri 1987-ci il təvəllüdlü Babayev Əliağa Rəsul oğlu və 1993-cü il təvəllüdlü Kazımzadə Nicat Zaur oğlu olması müəyyənləşdirilib. Araşdırma zamanı saxlanılan şəxslər törətdikləri cinayət əməlini etiraf edərək əraziyə narkotik vasitə götürməyə gəldiklərini bildiriblər.



Həmin gün Füzuli rayonunun Qazaxlar kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsindədə İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru 1 nəfər şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə edilib.

Sərhəd zastavası dərhal “silaha” komandası üzrə qaldırılmış, xidməti ərazi qapadılmış və sərhəd naryadı tərəfindən həmin şəxsə “dayan” əmri verilib. Nəticədə xidməti ərazidə hərəkətdə olan şübhəli şəxs sərhəd pozucusu qismində saxlanılmış və ondan 1 ədəd bağlama götürülüb. Saxlanılan şəxsin İran İslam Respublikası vətəndaşı 1969-cu il təvəllüdlü Pənahi Qulaməli Məhəmmədəli oğlu olması müəyyənləşdirilib. Əlindəki bağlamaya baxış zamanı ümumi çəkisi 942 qram narkotik vasitələr (575 qr “heroin”, 300 qr “metamfetamin”, 1 qr “metadon” və 66 qr qurudulmuş “marixuana”) aşkar edilib.

18 sentyabr tarixində İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində yerləşən sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru 2 nəfər şəxsin Araz çayını keçərək hərəkət etməsi sərhəd naryadı tərəfindən müşahidə edilib.

Sərhəd zastavası dərhal “silaha” komandası ilə qaldırılaraq dövlət sərhədinin pozulduğu istiqamətə hərəkət etmişlər. Sərhəd pozucuları hadisə yerindən uzaqlaşmağa çalışarkən sərhədçilər tərəfindən təqib edilərək saxlanılıblar.

Saxlanılan şəxslərin İran İslam Respublikası vətəndaşları - 1986-cı il təvəllüdlü Kıanı Behnam Əli oğlu və 1978-ci il təvəllüdlü Behzad Pırıvatlou Reza Mahmud oğlu olması müəyyənləşdirilim, onlardan götürülmüş bağlamaya baxış zamanı içərisində ümumi çəkisi 4 kiloqram 176 qram narkotik vasitə və psixotrop həblər (3 kq 182 qr “heroin”, 994 qr “metamfetamin”, 8789 ədəd “Metadon-40” həbi və 20 ədəd “Buprenorphine-2” həbi) aşkar edilib.

Hər üç fakt üzrə cinayət işi başlanılmış, saxlanılan şəxslər təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində “həbs” qətimkan tədbiri seçilmişdir. Cinayət işi üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Azərbaycanın prinsipial mövqeyi düşmən tərəfi narahat edir

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov sentyabrın 23-də Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova ilə görüşüb və regional təhlükəsizlik məsələləri, o cümlədən Qarabağ münaqişəsinin nizamlanması perspektivləri müzakirə edilib.***

Azərbaycan parlamentinin mətbuat xidməti Rusiya Xarici İşlər Nazirliyinin başçısının, guya, “Ermənistan baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağla bağlı açıqlamalarının münaqişənin həlli prosesinə mane olduğunu” bildirən məlumat yayıb.Press-relizdə Lavrova aid edilən aşağıdakı cümlə də var idi: “Bu, rəsmi Moskvanın mövqeyidir. Rusiya tərəfi nizamlama prossesində işğal olunmuş 5 rayonun geri qaytarılması, əraziyə sülhməramlıların yerləşdirilməsi və nəqliyyat-kommunikasiya sisteminin bərpa olunmasının tərəfdarıdır”.

Bir qədər sonra Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Maria Zaxarova nazir Sergey Lavrovun Qarabağ münaqişəsi haqda olan fikirlərinə aydınlıq gətirib. M.Zaxarova başqa şərhlərə deyil, yalnız rəsmi Moskvanın mövqeyinə diqqət yetirməyə çağırıb.”Rusiyalı nazirin sitatının düzgünlüyünə gəldikdə, bu məlumatın gəldiyi mənbələrə yönəltmək istərdim. Buna görə də, düzünü desəm, bunun üzərində dayanmayacağam”, - Zaxarova qeyd edib.”Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına gəlincə, bu gün Lavrovun Azərbaycan tərəfi ilə görüşü zamanı , Dağlıq Qarabağın status məsələlərinin həlli, habelə ətrafındakı ərazilərin azad edilməsi daxil olmaqla, əvvəllər səsləndirilən əsas həll prinsipləri müzakirə edilib”.Son olaraq Zaxarova Rusiyanın bu mövzuda mövqeyinin yaxşı bilindiyini bəyan edib.

**Azərbaycan Yüksəliş Təşəbbüs Qrupunun üzvü, siyasi şərhçi Anar Əsədli “Unikal”a açıqlamasında deyib ki,** Rusiyanın Xarici İşlər Naziri Lavrovun Moskvada Sahibə Qafarovayla görüşündə 5 rayonu Azərbaycana qaytarmaqla münaqişəyə son qoyulması barədə fikirləri, daha sonra nazirliyin sözçüsü Zaxarovanın yayılan xəbərləri təkzibi Rusiyanın regiondakı münaqişələrlə bağlı rolunu bir daha gündəmə gətirdi: “Rusiyanın SSRİ çökəndən sonra İttifaqın tərkibində olmuş respublikalarda yaratdığı nifaqlar, müharibə ocaqları bir məqsədə xidmət edirdi - onları “Böyük Rusiya”nın ayağına gətirmək.Uzun illərdir, Rusiya hər bir region ölkəsini həm qanlı münaqişələrlə şantaj edir, həm də ölkə daxilində yerləşdirdiyi əlaltıları ilə manipulyasiya etməyə çalışır.Ustalıqla yaratdığı qan ocaqlarından birində - Qarabağ münaqişəsində müttəfiqi olan və daima silahlandırdığı Ermənistanla ölkəmizə qarşı birgə və daim düşmən münasibətini bildiyimiz halda, həm də uzun müddətdir, bu münaqişənin diplomatik həlli üçün guya ”yardımlarını” təklif edir.Əslində isə Rusiya Minsk qrupu ilə rəsmi Moskvanı bu münaqişənin diplomatik yöndə də söz sahibi edən tərəfdir və qan ocağının söndürülməsinə deyil, birbaşa erməni maraqlarına xidmət edir. Bu səbəbdən də Minsk qrupu bitərəfliyini çoxdan itirib.-Sən Ermənistanda hərbi hissə saxla, durmadan silahlandır, sonra da de ki, məsələnin diplomatik həllində ”köməklik” göstərməyə hazırıq. Yəni qısacası, Rusiya münaqişənin həllində bitərəf qurum kimi çıxış edə bilməz”.

A.Əsədli onu da deyib ki, mövcud duruma əsasən Minsk qrupundan de-yure imtina edilməli, Türkiyə və Azərbaycanın hərbi əməkdaşlığı ən yüksək səviyyəyə çatdırılmalıdır: “Bundan sonra sülh masasına oturmaq olar. Qarabağ probleminin həlli savaşdan barışa doğrudur, işğaldan alçaldıcı sülhə deyil”.





**Anar Əsədli: “Qarabağ probleminin həlli savaşdan barışa doğrudur, işğaldan alçaldıcı sülhə deyil”**



**Məhəmməd Əsədullazadə: “Artıq ”Madrid prinsiplərindən” imtina etməli, danışıqlar BMT qətnamələri əsasında aparılmalıdır”**



**Elxan Şahinoğlu: “Bu, Azərbaycan-Türkiyə hərbi ittifaqının gücləndirilməsinin və müharibə hazırlıqlarının doğru strategiya olduğunun göstəricisidir”**

**MCP sədrinin müavini, politiloqMəhəmməd Əsədullazadə isə deyib ki,** Azərbaycan və Ermənistan arasında danışıqların yenidən başlanması istiqamətində intensiv müzakirələr gedir. Onun sözlərinə görə, Rusiya yenidən ”Madrid prinsipləri” üzrə danışıqların başlanmasına çalışır: “Rusiya XİN rəhbəri Sergey Lavrov Ermənistanla kordinasiyalı çalışır. Verdiyi təkliflər bütövlükdə Ermənistan və Rusiyanın maraqlarına xidmət edir. İndiyə qədər müzakirə olunan Mərhələli və paket həll variantları bütövlükdə bir neçə rayonun azadlığı müqabilində Qarabağın müstəqilliyini özündə ehtiva edir. Bu həll variantları ”Madrid prinsipləri” üzrədir.Bu illər ərzində aparılan danışıqlar bu istiqamətdə olub, heç bir müsbət irəliləyişlər əldə edilməyib. Bunun səbəbi isə Ermənistanın Qarabağa müstəqillik tələbidir. Minsk qrupunun həmsədrləri də bu illər ərzində Azərbaycanı bu plana razı salmağa çalışıblar”.

Politoloq onu da qeyd edib ki, Azərbaycan artıq ”Madrid prinsiplərindən” imtina etməlidir. Onun fikrincə, danışıqların yalnız BMT qətnamələri əsasında aparılmasını tələb etməlidir:“Əgər, bu kimi danışıqlar olmasa, hərbi variantlara üstünlük verməlidir.Hazırda tarixi şans və şərait var. Ermənistan danışıqlar masasında BMT qətnamələrini qəbul etmir, Azərbaycana qarşı növbəti torpaq işğalını planlayır. Ona görə də Azərbaycan Ermənistanın danışıqlar mesajına öz beynəlxalq hüquqa əsaslanan təkliflərini verməlidir. Təbii ki, Ermənistan bu təkliflərlə razılaşmayacaq.Qarabağ məsələsi Ankara - Moskva gündəliyinə çıxacaq. Bu, labüddür. Müharibənin başlanması bu prosesi sürətləndirə bilər. Müharibə variantı Azərbaycanın maraqlarına cavab verir”.

**Politoloq Elxan Şahinoğlu isə bildirib ki,** Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın görüşdən sonra təkzib verə biləcəyini əvvəlcədən istisna etməmişdim: “Belə də oldu. Mariya Zaxarovanın təkzib mahiyyətli açıqlamasından belə çıxdı ki, Lavrov Qafarova ilə görüşdə nə 5 rayonun azad olunması gərəkliyindən danışıb, nə də erməni nazir Nikol Paşinyanı tənqid edib. Ancaq qapalı görüşdə Lavrovun hər ikisini dediyinə inanıram, əks halda Azərbaycanın parlament sədrinin Moskvadakı görüşlərini işıqlandıran Milli Məclisin mətbuat xidməti niyə o cür xəbər yaymalı idi? Sahibə Qafarova daha sonra Dövlət Dumasının sədri Vyaçeslav Volodinlə görüşüb. Milli Məclisin mətbuat xidmətinə cavabdeh şəxs və ya şəxslər Volodinlə bağlı da eyni məzmunlu xəbər yayıblar, yəni Dövlət Dumasının sədri deyib ki, “Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağla bağlı fikirləri haqlı narahatlıq doğurur və sülh prosesinə kömək etmir”. Mümkündür ki, Dövlət Dumasının mətbuat xidməti də Mariya Zaxarova kimi təkzib etsin. Ancaq yenə inanıram ki, qapalı görüşdə Volodin də Paşinyandan şikayət edib.Görünən odur ki, Rusiya rəsmiləri və diplomatları Ermənistanı rahatsız etmək - qapalı görüşlərdə dediklərini açığa çıxartmaq istəmirlər. Onlar Milli Məclisin mətbuat xidmətinin Lavrov və Volodinlə görüşdən yaydıqları xəbərdən rahatsız olublar. Daha bir yanlışı Bakıda etməsinlər, həmin xəbəri yayanı cəzalandırmasınlar, yanlış hərəkət edilməyib. Sahibə Qafarova danışıqlar barədə mətbuat katibini, o da bizi məlumatlandırıb”.

Politoloq onu da qeyd edib ki, Lavrovun son açıqlaması Kremlin müharibə qorxusundan irəli gəlir:“Kreml Azərbaycanın Türkiyə ilə birgə hərbi hazırlıqlarını müşahidə edərək, iki dövlətin işğal altındakı torpaqları azad etmək ruhunu bilərək “Paşinyan sözümüzə qulaq asmır” açıqlamasıyla bizi sakitləşdirməyə, müharibə risqini azaltmağa çalışır.-Sergey Lavrovun açıqlaması Nikol Paşinyanın və onun komandasının tənqidinə səbəb olacaq, eyni zamanda erməni baş nazirin əsas rəqibi və Kremlin yaxın dostu Robert Köçəryanın əlini gücləndirəcək. Məhz Köçəryan bir neçə gün əvvəl erməni eskeprtlərlə görüşdə demişdi ki, Paşinyanın Rusiya ilə soyuq münasibətləri Ermənistan üçün ciddi problemə çevriləcək. Lavrov son açıqlamasını prezident Vladimir Putinlə razılaşdırıb və bəlkə də onun təlimatıyla danışıb. Putin Lavrov vasitəsilə Paşinyan haqqında düşündüklərini səsləndirməklə Ermənistanda hakimiyyətdə kimi görmək istədiyini ortaya qoyub.Bütün hallarda Rusiya rəsmilərindən kimsə ilk dəfə açıq şəkildə Paşinyandan narazı olduqlarını və 5 rayonun azad edilməsinin vacibliyini dilə gətirib. Bu Azərbaycan - Türkiyə hərbi ittifaqının gücləndirilməsinin və müharibə hazırlıqlarının doğru strategiya olduğunun göstəricisidir. Deməli, Ermənistana hərbi təzyiqi artırmaqda fayda var”.

***Z.Məmmədli***

# Azərbaycanda vəzifəli şəxslər gəlirlərini açıqlayacaqlar

***Azərbaycanda illik olaraq gəlirlərin deklorasiyası sistemi hələ ki tətbiq olunmur. Amma yaxın zamanlarda bu, reallaşa bilər.***

Milli Məclisin üzvləri də məsələ ilə bağlı qanunun qəbulunu mümkün sayırlar. "Yaxın vaxtlarda "Gəlir deklorasiyası haqqında" Qanunun qəbul ediləcəyinin şahidi olacağıq".

Bunu Modern.az-a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov bildirib.

V.Əhmədov qeyd edib ki, ölkə başçısının yürütdüyü siyasət məhz həmin qanunun qəbuluna istiqamətlənib: "Qanunun işləməsi üçün Nazirlər Kabineti tərəfindən normativ sənədlər



təsdiqlənməlidir. O sənədlər təsdiq edildikdən sonra heç bir problem olmayacaq. Cənab Prezident tərəfindən aparılan islahatlar, yeni siyasi-iqtisadi modelə keçid göstərir ki, qanun qəbul ediləcək.

Qanunun işlək hala gəlməsi üçün ortada olan problemlər ölkə başısı tərəfindən həll edilməkdədir. Dövlət başçısının apardığı islahatların da məqsədi şəffaflığın təmin olunmasına xidmət edir. Son vaxtlar korrupsiyaya qarşı həyata keçirilən tədbirlər, həbslər göstərir ki, artıq "Gəlir deklorasiyası haqqında" Qanunun vaxtı yetişib".

Deputatın sözlərinə görə, ən azından 2021-ci ilin yanvarından qanunu tətbiq etmək olar.

Qeyd edək ki, gəlirlərin deklorasiya sisteminin tətbiqi korrupsiyaya qarşı mübarizənin əsas elementlərindən biri hesab olunur. Bu, şəffaflığın təmin edəcək əsas şərtlərdən biridir.

# "Azərişıq" son günlər 19 qanunsuz qoşulma aşkar edib

***"Azərişıq"ASC-nin əməkdaşları əraziyə baxış keçirən zaman təəssüflər olsun ki, yenə də bəzi abonentlər tərəfindən "Elektrik enerjisindən istifadə Qaydaları"nın ciddi pozuntu halları aşkarlanıb.***

Bu barədə "Unikal"a qurumun mətbuat xidmətinin rəhbəri Vaqif Mustafayev məlumat verib. Onun sözlərinə görə, elektrik enerjisindən kənar xətlə istifadə, sayğaca müdaxilə, sayğac möhürlərinin pozulması halları aşkarlanaraq aktlaşdırılıb:

"Son günlər 19 belə faktla bağlı barələrində müvafiq tədbirlərin görülməsi üçün hüquq mühafizə orqanlarına müraciət olunub. Qurum aşkarlanan qüsurlarla əlaqədar son faktları təqdim edib:

Paytaxtın Xətai rayon sakini Səmədov Rəşid- fərdi yaşayış evinə məxsus sağac keçən yükü qeyd etmir. Nəticədə müəyyən olundu ki, sayğacın daxilinə pultla idarə olunan qurğu yerləşdirilib.

Paytaxtın Nizami rayon sakini Məmmədov Kəramət- fərdi yaşayış evinə məxsus sayğac yerində yoxdur və işlədicilər şəbəkəyə birbaşa qoşulub.

Bakının Xəzər rayon sakini Səfərov Nazim - baxış keçirilən zaman məlum olub ki, abonentin fərdi koduna uyğun dövlət nişanlı sayğac yerində yoxdur-,əvəzinə həmin kodda başqa sayğac quraşdırılıb.

Xırdalanda Şükr və Rafael Məmmədrzayev qardaşlarına məxsus Ticarət obyektinə baxış keçirilən zaman məlum olub ki, obyektə sayğac sxemindən kənar xətt daxil olur. Elektrik enerjisindən xəttdən kənar istifadə edilir.

Sumqayıt şəhər sakini Nəcəfov Məhərrəmə məxsus obyektə baxış keçirilən zaman məlum olub ki, obyektə sayğac sxemindən kənar xətt daxil olur. Nəticədə müəyyən olundu ki, sayğac yanıb, işlədicilər şəbəkəyə birbaşa qoşulub.

"Hər bir istehlakçı bilməlidir ki, uçot cihazlarına müdaxilə olduğu zaman bu hal sayğacın yaddaş kartı tərəfindən qeydə alınır və laborator qaydada müasir proqramların köməyi ilə müdaxilənin tarixi və forması çox asanlıqla



müəyyən edilir. Odur ki, bu gün aşkarlanmayan qüsur yoxdur. İstehlakçılarımıza bir daha tövsiyə edirik ki, bu tipli neqativ hallardan çəkinməklə qanun pozuntularına yol verməsinlər! Çünki, bu kimi talançılıq faktları barədə hüquq-mühafizə orqanlarına müvafiq qaydada bundan sonra da müraciətlər ünvanlanacaq. Hüquq mühafizə orqanlarına da təşəkkür edirik, anındaca müraciətlərə reaksiya verib, tədbirlər görürlər. Qanunsuz yola baş vuranların adları isə mütəmadi olaraq mediaya təqdim olunacaq"- deyə V.Mustafayev əlavə edib.

# Təcrübəsiz işə qəbul? - "Rabitəbank"da bu, mümkündür!

***Azərbaycanın aparıcı banklarından biri olan "Rabitəbank" ASC təkcə müştərilərinə deyil, 800-ə yaxın əməkdaşına da daim "Rahat bankçılıq" təcrübəsini yaşatmaqdadır.***

Universiteti yeni bitirmiş gənc kadrların iş tapmaq cəhdləri çox zaman iş təcrübələrinin olmaması səbəbi ilə uğursuz olur. "Rabitəbank" isə iş müsahibələrində tez-tez eşidilən bu stereotipi qıraraq işə qəbul prosesində təkcə ali təhsili uğurla bitirməyi prioritet götürür.

Yenicə yekunlaşmış "SME və Mikro yetişdirmə layihəsi" sayəsində "Rabitəbank Təlim Akademiyası"nın təcrübə proqramına uğurla qəbul olmuş 12 gənc kredit mütəxəssisi ölkənin ən müasir banklarından biri olan "Rabitəbank"da karyera imkanlarına yiyələndilər. Belə ki, proqramın seçim mərhələlərini müvəffəqiyyətlə addımlayan namizədlər Bankda təcrübəçi kimi deyil, birbaşa əmək müqaviləsi ilə rəsmi




işçi kimi qeydiyyata alındılar. Bununla da "Rabitəbank"da əməkdaşlar sözün əsl mənasında 3 aylıq təcrübə mərhələsini yarım ştat olaraq rəsmi işçi kimi uğurla başa vurduqdan sonra dərhal tam ştata keçiriləcəklər. Təcrübəsiz gənc kadrlara iş imkanları təqdim edilməklə yanaşı Bankda karyera pillələrini zirvəyə doğru addımlamaq da mümkündür. "Rabitəbank"ın Təlim və İnkişaf Şöbəsinin rəhbəri Günel Həsənlinin verdiyi məlumata görə "Rabitəbank"da potensial namizədlərin bacarıqlarının üzə çıxarılması və mütəxəssis kimi yetişdirilməsi daim əsas missiya kimi dəyərləndirilir. "SME və Mikro yetişdirmə layihəsi" bu illik yekunlaşsa da, yenidən planlaşdırıldığı da doğrudur. Əlavə olaraq, "Rabitəbank"da təkcə kredit mütəxəssisi deyil, həmçinin İT, Əməliyyat və digər departamentlərdə iş imkanları təqdim edəcək mütəxəssis yetişdirmə layihələri də nəzərdə tutulub.

"Rabitəbank"da çalışmaq və uğurlu karyera təcrübəsinə yiyələnmək arzusunda olanlar yeniliklərdən xəbərdar olmaq üçün "LinkedIn" platformasında "Rabitabank Careers" səhifəsini izləyə və ya bankın rəsmi www.rabitabank.com saytında məlumatlar əldə edə bilərlər.

# Gürcüstan qanunsuz yanacaq idxalına nəzarəti gücləndirib

***Gürcüstan beynəlxalq yük daşıyıcıları tərəfindən bəyan edilməmiş yanacağın ölkə ərazisinə idxalına gömrük nəzarətini gücləndirib.***

"Report"un yerli bürosu xəbər verir ki, bu barədə Gürcüstanın Maliyyə Nazirliyinin Gəlirlər Xidmətindən bildirilib.

Məlumata görə, son 10 gün ərzində Azərbaycanla sərhəddəki "Qırmızı körpü" gömrük-keçid məntəqəsində yük maşınlarına keçirilən baxış zamanı gömrük nəzarətindən gizlədilən 5 000 litr dizel yanacağı aşkar olunub.

"TIR" sürücüləri tərəfindən yanacağın qanunsuz idxalı kustar üsulla quraşdırılmış çənlər vasitəsilə həyata keçirilir. Gürcüstanın Gömrük Məcəlləsinə əsasən, bu cür əməllər qanun pozuntusu hesab olunduğundan cərimələr tətbiq edilir.

# "Prezident Heydər Əliyev" tankerinin əsaslı təmiri yekunlaşıb

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "Prezident Heydər Əliyev" tankerinin əsaslı təmiri başa çatıb.***

Bu barədə ASCO-dan məlumat verilib. Məlumata görə, "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan təmir işləri yüksək keyfiyyətlə həyata keçirilib.

Gəminin baş və köməkçi mühərrikləri, boru sistemləri, mexanizmləri təmir edilib. Tanker üzrə elektrik-quraşdırma və avtomatika, eləcə də gövdə-qaynaq işləri yerinə yetirilib.

Bununla belə, "Prezident Heydər Əliyev" gəmisinin heyətinə məxsus yaşayış otaqları, sanitar qovşaqlar və yeməkxanalar yenilənib.

Təmir zamanı tankerin sualtı və suüstü hissələri və göyərtəsi təmizlənərək rənglənib.

Təmirdən sonra tanker dəniz sınaq yoxlanışından uğurla keçib və istismara qaytarılıb.

Xatırladaq ki, "Prezident Heydər Əliyev" gəmisi ASCO-nun Nəqliyyat Donanmasına məxsus ən nəhəng tankerlərdən biridir. Uzunluğu 149,9 metr, eni 17,3 metr olan tankerin tam yükgötürmə qabiliyyəti 13,8 min tondur.

# Pensiyaçı pulunu kartında nə qədər müddətdə salaya bilər? - Nazirlikdən açıqlama

***Pensiyaçının bank hesabına köçürülmüş vəsaitin idarə olunması pensiyaçının səlahiyyətindədir və pensiyaçının həmin vəsaiti kartlarında nə qədər müddətə saxlamasına məhdudiyyət qoyulmayıb.***

***"Unikal"ın məlumatına görə, bunu Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdili bildirib. R.Mehdilinin sözlərinə görə, yəni pensiyaçı öz vəsaitini istədiyi vaxt çıxara bilər.***

O qeyd edib ki, DSMF tərəfindən pensiyaçının hesabına köçürülən sosial ödənişlərin, o cümlədən pensiya vəsaitlərinin saxlandığı bank hesablarının elektron hücumlardan qorunması da təmin edilir: "Pensiya kartlarını pensiyaçılara təqdim edən ödəniş müəssisələri (banklar) qanunveriiliklə müyyən edilmiş vəzifələrinə uyğun olaraq bunu təmin edirir".



# Ali məktəblərə qəbul olmuş abituriyentlərin siyahısı çap olundu

***Dövlət İmtahan Mərkəzi "Abituriyent" jurnalının 7-ci nömrəsini nəşr edib.***

"Unikal" xəbər verir ki, bu nömrədə 2020/2021-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmuş abituriyentlərin siyahısı qruplar üzrə (Azərbaycan bölməsi - I, II, III qruplar hər biri ayrıca jurnalda, IV və V qruplar isə birlikdə bir jurnalda, rus bölməsinin bütün qrupları isə bir jurnalda) çap olunub.

Jurnallarda eyni zamanda həm təhsili ödənişli əsaslarla aparılan ixtisaslar üzrə, həm də dövlət sifarişi əsasında aparılan yerlər üzrə müsabiqə nəticəsində alınmış uyğun keçid balları, həmçinin dövlət sifarişi əsasında qəbul olan abituriyentlərin ali təhsil müəssisələri və ixtisaslar üzrə paylanması barədə məlumatlar, müsabiqədənkənar qəbul olmuş abituriyentlərin siyahısı və müsabiqənin birgə aparıldığı ixtisaslar üzrə plan yerlərinə Azərbaycan və rus bölmələrindən qəbul olan abituriyentlərin sayı haqqında məlumat təqdim edilib.

Jurnalları aşağıdakı ünvanlarda yerləşən "Abituriyent" satış köşklərindən, həmçinin kitab mağazalarından almaq olar:

Bakı şəhəri, Nəsimi rayonu, A.Salamzadə küçəsi, 28;

Bakı şəhəri, Yasamal rayonu, Mikayıl Müşfiq küçəsi, 1M.

Jurnalın elektron versiyasını (pdf formatında) sentyabrın 26-dan DİM-in saytının "Elektron xidmətlər" bölməsində "DİM nəşrlərinin elektron versiyalarının onlayn satışı" xidməti vasitəsilə ödəniş etməklə əldə edə bilərsiniz (Xidmətə keçid: <http://eservices.dim.gov.az/ejurnal/>).

# Nazirlik pensiya təyinatı ilə bağlı məlumat yaydı

***Prezident İlham Əliyevin 5 sentyabr 2018-ci il tarixli Fərmanına əsasən 2019-cu ilin əvvəlindən ölkəmizdə pensiyaların proaktiv qaydada təyinatına başlanıb.***



Əməkvə Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) verilən məlumata görə, e-təyinat prosesinin davamı olaraq, bu ilin yanvar-avqust aylarında 10 min 113 nəfərə (qeyd edilən dövrdə yaşa görə pensiya təyin olunanların 88 faizinə) yaşa görə pensiya elektron qaydada təyin olunub.

Beləliklə, yaşa görə pensiya təyinatlarının məmur-vətəndaş təması və vətəndaşların müvafiq sənədləri toplayıb aidiyyəti quruma təqdim etməsinə ehtiyac olmadan, şəffaf və operativ təyin edilməsi təmin olunub.

# Koronavirusla mübarizədə həkimlərə 45 min manata yaxın əlavə ödənilib

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 mart 2020-ci il tarixli 112 nömrəli Qərarına və 1 aprel 2020-ci il tarixli Sərəncamına uyğun olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) tərəfindən iyul ayı üzrə yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan 24 nəfər tibb işçisinə iş vaxtına mütənasib olaraq müddətli əlavə və 58 nəfər könüllüyə mükafat ödənilib.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq COVID-19 infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına müddətli əlavənin məbləği aylıq vəzifə maaşının 3, 4 və 5 misli məbləğində müəyyən edilib. Qərara əsasən özəl tibb müəssisələrində çalışan 24 nəfər tibb işçisinə iyul ayı üzrə iş vaxtına/-saatına mütənasib olaraq 44 242 manat məbləğində müddətli əlavə ödənilib.

Qeyd edək ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesabalanır.

58 nəfər könüllüyə isə sözügedən sərəncama əsasən aylıq 250 manat olmaq şərtilə, iyul ayı üzrə ümumilikdə 14 500 manat məbləğində mükafat ödənilib. Bu məbləğdən əməkhaqqına dair tutulmalar hesablanmır.

Məlumat üçün bildirək ki, Nazirlər



Kabinetinin müvafiq sərəncamına uyğun olaraq, Agentlik tərəfindən COVID-19 infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinə aşağıdakı aylar üzrə də iş vaxtına mütənasib olaraq müddətli əlavələr ödənilib:

- İyun ayı üzrə 42 nəfər tibb işçisinə iş vaxtına mütənasib olaraq 89 782 manat;

- May ayı üzrə 43 nəfər tibb işçisinə iş vaxtına mütənasib olaraq 105 011 manat;

- Aprel ayı üzrə 49 nəfər tibb işçisinə iş vaxtına mütənasib olaraq 82 216 manat.

4 ay ərzində ümumilikdə 158 nəfər tibb işçisinə iş vaxtına mütənasib olaraq ümumilikdə 321 251 manat məbləğində müddətli əlavə ödənilib.

Sözügedən sərəncama uyğun olaraq COVID-19 infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən könüllülərə aşağıdakı aylar üzrə mükafat ödənilib:

- İyun ayı üzrə 31 nəfər könüllüyə 7750 manat;

-May ayı üzrə 34 nəfər könüllüyə 8500 manat;

- Aprel ayı üzrə 28 nəfər könüllüyə 7000 manat.

4 ay ərzində ümumilikdə 151 nəfər könüllüyə 37 750 manat məbləğində mükafat ödənilib.

Nəzərinizə çatdırırıq ki, modul tipli xəstəxanaların yaxınlıqdakı şəhər xəstəxanalarına təhkimolunması ilə bağlı hazırda hüquqi prosedurlar həyata keçirilməkdədir. Bu prosedurlar başa çatdıqdan sonra Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən göndərilən siyahılara uyğun olaraq əvvəlki digər aylar üzrə müddətli əlavə və mükafatların ödənilməsi davam edəcək.

Qeyd edək ki, TƏBİB koronavirus pandemiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçiləri və könüllülər barədə siyahıları Agentliyə təqdim etdikdən sonra, Agentlik 3 iş günü ərzində müddətli əlavə və mükafatların ödənilməsini təmin edir.

TƏBİB tərəfindən avqust ayı üzrə siyahılar Agentliyə təqdim edildikdən sonra müddətli əlavə və mükafatların ödənilməsi həyata keçiriləcək.

***Nigar Orucova***

# Meliorasiya və Su Təsərrüfatı ASC-də videokonfrans keçirilib

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üzrə Tədbirlər Planı"nın müzakirəsinə həsr olunan videokonfrans keçirilib.***

"Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üzrə Tədbirlər Planı"na əsasən dağ çayları sularının yığılması üçün relyefə uyğun olaraq Əlicançay, Qudiyalçay, Vəlvələçay, Qaraçay, Qusarçay, Ağsuçay, Türyançay, Yengicə, Viləşçay və Zəyəmçay su anbarlarının yaradılması nəzərdə tutulur. Ümumiyyətlə, tikintisi nəzərdə tutulan su anbarlarında 660 milyon kubmetr su ehtiyatının yaradılması gözlənilir. Bu su anbarları 139 min hektar sahəni suvarma suyu ilə təmin edəcək. O cümlədən 81 min hektar yeni suvarılacaq sahə kənd təsərrüfatı dövriyyəsinə veriləcək.

Bu barədə Meliorasiya və Su Təsərrüfatı ASC-də sentyabrın 23-də videokonfrans formatında keçirilən görüşdə Səhmdar Cəmiyyətin sədr müavini Rafiq Aslanov məlumat verib.

Prezident İlham Əliyevin 2020-ci il 27 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üzrə Tədbirlər Planı"nın 4.5-ci və 4.6-cı bəndlərinin icrasının təmin edilməsi ilə əlaqədar əməkdaşlıq yollarının müzakirəsinə həsr olunmuş videokonfransda Meliorasiya və Su Təsərrüfatı ASC-nin əməkdaşları ilə yanaşı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Müəllim Əbdülhəsənov, Fövqəladə Hallar Nazirliyinin şöbə müdiri Şahin Allahverdiyev, Energetika Nazirliyinin sektor müdiri Rauf İsmayılov, Kənd Təsərrüfatı Nazirliyinin böyük məsləhətçisi Rövşən Abdullayev, "Azərsu" ASC-nin şöbə rəisi Elkin Rüstəmov, "Azərkosmos" ASC-nin nümayəndəsi Aqil Əhmədov, Coğrafiya İnstitutunun direktor müavini Məhərrəm Həsənov, Geologiya və Geofizika İnstitutunun direktorunun köməkçisi Tariyel Hüseynov, Memarlıq və İnşaat Universitetinin dekanı Zakir Musayev, eləcə də aidiyyəti qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavini Rafiq Aslanov çıxışında mövcud su anbarlarının həcmi və mövcud vəziyyəti barədə məlumat verərək bildirib ki, dövlətimizin başçısının təsdiqlədiyi Tədbirlər Planına əsasən, həmçinin 22 yerdə hidroqovşaq, kollektor və suvarma kanallarının yenidən qurulması planlaşdırılır. "Bu, 9 min kilometr uzunluğunda kanalları özündə birləşdirir. Bunun 529 kilometri magistral, 1644 kilometri I dərəcəli, 6817 kilometri II-III dərəcəli kanallardır. Həmin kanalların altında təxminən 290 min hektar suvarılan sahə var və 15 rayonu əhatə edir", - deyə o qeyd edib.

Azərbaycanda əkilən kənd təsərrüfatı bitkilərinin böyük əksəriyyətinin Mil-Muğan torpaqlarının payına düşdüyünü deyən R.Aslanov bildirib ki, bu torpaqlarda həddən artıq su itkiləri müşahidə olunur. Bu, təsdiq olunan su balansında da



öz əksini tapıb. Onun sözlərinə görə, Meliorasiya və Su Təsərrüfatı ASC-nin balansında olan kanalların 73 faizi torpaq kanallardır.

Dövlətimizin başçısının 2020-ci il 15 aprel tarixli Sərəncamına əsasən, ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Baş Nazirin müavini Şahin Mustafayevin sədrliyi ilə Komissiya yaradıldığını vurğulayan R.Aslanov bildirib ki, ASC komissiyaya 2020-2030-cu illəri əhatə edən tədbirlər planı təqdim edib.

ASC-nin Elm, layihə, tikinti və xarici əlaqələr şöbəsinin müdiri Məmməd Əsədov təqdimatla çıxış etdikdən sonra müzakirələr aparılıb, təkliflər qeydə alınıb.

***Hüseyn***

# Xəstəxanada vəsiyyətnamə yazan, atasına nifrət edən “qabyuyan” - SİRLİ ULDUZLAR

***“Əsl peşəkardır. Bacarıqları, üstün keyfiyyətləri və əla xarakterə sahib olması ilə bağlı kitab yaza bilərəm”. Bunu dünyanın ən güclü məşqçilərindən sayılan Yurgen Klopp deyib onun haqqında. “Liverpul”un transferinə 85 milyon avro xərcləməklə səhv etmədiyini çoxdan sübuta yetirib. Həqiqətən də, hazırda dünyanın ən güclü müdafiəçilərindən biridir. Bəli, Lent.az -ın “Sirli Ulduzlar” layihəsi bu dəfə məhz ona - “Liverpul”la yanaşı, Niderland millisinin də dirəyi olan Vircil van Deykə həsr olunub.***

## Televizor ustası və hərbi polis

1991-ci il, iyulun 8-də Breda şəhərində dünyaya göz açıb. Ailədə 3 uşaq olublar. Vircil evin ilk övladıdır, Cordan adlı qardaşı və Cennifer adlı bacısı da var. Atası Ron van Deyk televizor ustası işləyirdi. Surinam əsilli anası Hellen Fo Siu isə hərbi polisdə xidmət edirdi. İlk vaxtlarda ailədə münasibətlər qaydasında idi. Vircili futbola yazdıran atası onu hər dəfə məşqə aparıb gətirirdi.

## “Atasını heç vaxt bağışlamayacaq”

Vircilin 12 yaşı olanda valideynləri ayrılırlar. Daha doğrusu, atası ailəni ataraq, evi tərk edir. Uşaqlar anaları ilə qalmalı olurlar, beləcə onların ataları ilə bütün əlaqələri kəsilir. Cordan və Cennifer analarının ilk soyadlarını götürürlər. Vircil isə atasının soyadını daşısa da, formasının arxasında həmin soyadın yazılmasına icazə vermir. “Vircil ailəmiz və ölkəmiz üçün inanılmaz uğurlara imza atdı. Onunla qürur duyuruq. Formasında soyadının yazılmasını istəmir, çünki atasına çox qəzəblidir. Ron həyat yoldaşı və 3 övladını ataraq boşandığı üçün Vircildə ona qarşı nifrət yaranıb. Uşaq vaxtı atasının yoxluğunu çox çəkdi. Çünki Ron onları tərk edəndən sonra Vircil və digər 2 övladı ilə uzun illər heç maraqlanmadı. Anası isə hər zaman onların yanında idi və hekayənin əsas qəhrəmanı olmağı bacardı. Vircil vaxtında atasının soyadını götürdüyünə görə özünü qınayır. Formasında soyadını yazdırmamaqla isə atasına olan qəzəbini ifadə edir. Onu heç vaxt bağışlamayacağını deyir”, - Vircilin əmisi məsələni belə izah edir.

## “Elə düşünürdüm ki, xoşbəxt ailələri var”

Oynadığı ilk aşağı yaş futbol komandası - VDS-19-un baş məşqçisi olmuş Rik Kleyn də həmin dövrü yada salıb. O, Vircilin formasında soyadının yazılmasına qarşı çıxdığını xatırlayaraq, təəccübləndiyini deyib: “Van Deyk həyatını bütünlüklə futbola həsr etmişdi. Ləng olsa da, üzərində çox çalışırdı. Vircili həmişə atası gətirərdi məşqə. Onların bir-birlərini çox istədiklərini, münasibətlərinin qaydasında olduğunu zənn edirdim. Elə düşünürdüm ki, xoşbəxt ailələri var. Bu səbəbdən soyadını formada yazdırmayanda çox təəccüblənmişdim”.

## Hər saata 4 avro və “çayevoy”

Uşaqlıqdan əziyyətə qatlaşan Vircil heç vaxt işin ağırlığından qorxmayıb. Valideynləri ayrıldıqdan sonra çalışmaq məcburiyyətində qalır. 16 yaşında ikən Bredada yerləşən “Oncle Jean” restoranına qabyuyan kimi işə düzəlir. “Oncle Jean” 1935-cü ildə emalatxana olaraq tikilsə də, sonradan restorana çevrilib. Vircil burada qab yuduğu hər saata 4 avro və “çayevoy” alırdı. Məktəb, “Villem II”-nin akademiyasındakı məşqlər və iş... Üçünü bir arada etmək çətin olsa da, yeniyetmə oğlan bunun öhdəsindən gələ bilirdi: “Bazar ertəsi, çərşənbə axşamı və çərşənbə günü məşqə gedirdim, şənbə günü oyunumuz olurdu. Buna baxmayaraq, axşam saat 6-dan gecəyarısına qədər qabyuyan işləyirdim”.

## “Telefon nömrəsini silməmişdim...”

Restoranın sahibi Jak Lips keçmiş işçisini belə xatırlayır:



“Vircil yaxşı işçi idi. Öz işini düzgün və səliqəli görürdü. Bir dəfə görmədim ki, nədənsə şikayət eləsin. Ona futbola əbəs yerə getdiyini deyirdim. Çünki məşqçilər xüsusi istedadının olmadığını açıq şəkildə bildirirdilər. Hələ də “Liverpul”un van Deykə görə o qədər pul xərclədiyinə inana bilmirəm, bu, möhtəşəmdir. Mətbəximizi tərk edəndə dedim ki, ağlını başına yığ, burda ömürboyu pul qazanmaq şansın var. Qayıda biləcəyini düşündüyüm üçün telefon nömrəsini silməmişdim”.

## “19 yaşımadək yaxşı futbolçu ola bilmədim”

“Villem II”də van Deykin istedadını üzə çıxara bilmirlər. Nəticədə o, klubu tərk etməli olur. “16-17 yaşım olanda futbol həyatım bitə bilərdi. Çox çətin vəziyyətlə üzləşmişdim. Həmin vaxt boyum balacaydı, hətta kiçik qardaşım məndən uzun idi. Bu səbəbdən məni müdafiənin cinahında yoxlayırdılar. Lakin sürətli olmadığım üçün həmin mövqedə özümü doğrulda bilmirdim. Məni akademiyadan kənarlaşdırmaq barədə danışırdılar. Komandadakı ən pis oyunçulardan biri idim. Ləng, balacaboy, dizində problem olan biri... Yəni futbol üçün uyğun deyildim. Ümumiyyətlə, 19 yaşımadək yaxşı futbolçu ola bilmədim”, - həmin anları yada salır Van Deyk.



## “Boyum 20 santimetr artdı, akademiyadan qovmadılar”

Sonra necə olursa, akademiyanın məşqçiləri Vircilə bir az da şans verməyi düşünürlər. Məhz həmin mövsümdə Van Deykin bəxti üzünə gülür: “Bir il ərzində boyum sürətlə - 20 santimetr artdı. Bunun hesabına məni akademiyadan qovmadılar. Mənə verilən şansdan ikiəlli yapışdım. Və... Əzmkarlığım sayəsində, üzərimdə çox işləməklə komandanın kapitanı oldum”.

Onu hesabdan silmək istəyənlərə qısa zamanda özünü isbat etməyi bacarır Van Deyk. Bununla belə, klubda qalmağın mənası yox idi. Çünki onu əsas komandaya dəvət etməyin tez olduğunu düşünürdülər. Bununla barışmayan Vircil 2010-cu ildə “Qroningen”in gənclər komandasına keçir və tez bir zamanda əsas komandaya yüksəlir.

## “Heç kimin ağlına gəlməzdi ki...”

20 yaşı tamam olmamış Erediviziyada debüt edir. Böyük futbolda ilk matçını 2011-ci il, mayın 1-də “Den Haq”a qarşı keçirir. “Qroningen”in sabiq futbolçusu Tim Sparv Vircilin komandaya gəlişini yaxşı xatırlayır: “İlk vaxtlarda ondan faktiki olaraq hücumçu kimi istifadə edirdik, xüsusən də matçların sonunda - qol vura bilmədiyimiz anlarda. Hündürboy idi, başla yaxşı oynayırdı. Amma heç kimin ağlına gəlməzdi ki, bu oğlan yaxın gələcəkdə dünyanın ən güclü müdafiəçilərindən biri sayılacaq”.

## “Anamla birlikdə Tanrıya dua edirdik...”

Karyerası baxımından işlər yoluna düşsə də, bu dəfə qarşısına daha böyük maneə çıxır - sağlamlığı ilə bağlı ciddi problem yaranır. Xəstəxanaya yerləşdirilən Vircilin appendisit, peritonit (qarın boşluğunun iltihabı), böyrək infeksiyası və qarın boşluğunun absesindən əziyyət çəkdiyi üzə çıxır. Həkimlər həyati təhlükəsinin olduğunu, təcili əməliyyata ehtiyac duyulduğunu bildirirlər. Əməliyyatdan öncə Vircil vəsiyyətnamə yazmalı, lazımi sənədlərə qol çəkməli olur: “Çarpayıda uzanıb tavana necə baxdığımı hələ də xatırlayıram. Ağır vəziyyətdəydim, heç nə edə bilmirdim. Həyati təhlükədəydim. Həmin an beynimdən ancaq pis ssenarilər keçirdi. Anamla birlikdə Tanrıya dua edirdik və bütün mümkün nəticələr ağlımızdan keçirdi. İmzalamaq üçün mənə bir neçə sənəd təqdim etdilər. Bu, vəsiyyətnamə idi. Ölsəydim, pulum və əmlakım anamın adına keçəcəkdi. Sənədləri imzalamağa məcbur idik. Çünki heç kim xəstəliyimin necə nəticələnəcəyini bilmirdi”.

## “Viva La Vida”nı eşidəndə gözləri dolur

Həyatda qalmaq mübarizəsi aparan van Deyk əməliyyatdan sonra 13 gün xəstəxanada həkim nəzarətində saxlanılır. Həmin vaxt “Viva La Vida” mahnısını dinləyərək özünü motivasiya edir. Və bacarır... Xoşbəxtlikdən, Vircil nəinki sağalır, hətta ayağa qalxandan 1 ay sonra futbola qayıdır. Dediyinə görə, ona kömək olan “Viva La Vida”nı hər dəfə eşidəndə gözləri dolur.

## 3 milyon avroya “Seltik”ə

Van Deyk çətin xəstəlikdən sonra tam bərpa olunaraq həyatında və karyerasında yeni mərhələyə qədəm qoyur. Az sonra Şotlandiyanın “Seltik” klubundan təklif alır. Tərəflər razılaşırlar və 3 milyon avro qarşılığında transfer baş tutur. Ağır əməliyyatdan sonra sıraya dönən Vircili sata bildiyi üçün “Qroningen” rəhbərliyi “qabağa düşdüyünü” zənn edir. Təbii ki, yanılırlar. “Qroningen” yaxın gələcəkdə adından söz etdirəcək Van Deyki cəmi 3 milyona əldən buraxdığı üçün udan yox, uduzan tərəf olur.

## Premyer Liqaya açılan yol

Vaxt gəlir, vədə yetişir, Vircil karyerasında daha bir önəmli addım atır. Onun İngiltərəyə yolu açılır. 2015-ci ildə Premyer Liqanın bir neçə klubu van Deyki almaq uğrunda rəqabət aparırdı. Mübarizədən “Sauthempton” qalib ayrılır və 15 milyon avro ödəyərək Vircili heyətinə qatır. İlk ilində komandanın ən yaxşı futbolçusu seçilən Vircil növbəti mövsümdə “Lester”lə oyunda zədələnir və mövsümün sonunadək yaşıl meydanlardan uzaq qalır.

## “Liverpul”a keçid və böyük uğurlar

Sıraya dönən Vircili 2017/2018 mövsümünün ortasında “Liverpul” transfer edir - 85 milyon avroya. Keçid hər iki tərəf üçün faydalı olur. Van Deykli “Liverpul” gerideqalan müddətdə Premyer Liqa, Çempionlar Liqası, UEFA Superkuboku və Klublararası dünya çempionatının qalibi olmağı bacarıb.

Məşhurluq, şan-şöhrət onu dəyişməyib, xarakteri olduğu kimi qalıb. Surinamlı anasının təkbaşına 3 övlad böyütdüyü günləri, özünün Bredada qabyuyan işlədiyi vaxtları unutmayıb. Unutsaydı, futbol dünyasının hörmət etdiyi Vircil Van Deyk ola bilməzdi...

***Rizvan BABAYEV***

# Duvaqsız gəlinlər: Azərbaycanda yeni toy qaydaları

***"Yaxşı ki, karantinin bitməyini gözləmədən evləndik. Düzdü, toyumuzda az adam iştirak etdi. Amma biz belə daha xoşbəxtik".***

Bu sözləri Lent.az -a karantin müddətində, yəni ötən ayın əvvəli ailə quran Günay və Elnur cütlüyü deyir. Həyatlarının ən gözəl günlərini yaşadıqlarını deyən gənc ailə, xoşbəxt olmaq üçün böyük restoranlarda, bahalı və qonaq-qaralı toylara ehtiyac olmadığını deyirlər:

"Düzdü, əvvəl biz də gözləyirdik ki, karantin bitsin sonra toyumuzu edək. Amma sonra qərar verdik ki, gözləmək əbəsdir. Arada lazımsız söz-söhbət yaranır. Əksinə, belə daha yaxşı oldu. Toydan narazı gedən, məclisimizi üstündən bir ay keçsə də müzakirə mövzusuna çevirənlər olmadı. Ancaq ailələrimiz, dostlarımız oldu. Xoşbəxtliyimizə şahid olmaq üçün bu insanların olması yetərli idi".

Amma Günay və Elnur qədər şanslı və cəsarətli olmayanlar da var. Karantin səbəbi ilə artıq 7 aydır bu şənliklərin heç biri həyata keçmir.

Yaz aylarından bəri toy etməyi planlayan gənc cütlüklər isə karantinin uzadılması səbəbi ilə sadəcə toy tarixlərini dəyişməklə yetinirlər.

Elə həmsöhbətimiz Mehman Nəbiyev də Operativ Qərargahın qərarını gözləyənlərdəndir:

"Toyların keçirilməsinə icazə verilsə, biz də toyumuzu etmək istəyirik. Az, ya da çox adamla toy etməyin bir fərqi yoxdur. Amma bütün yaxınlarımızın, dostlarımız, qohum əqrəba ilə ən xoş günümüzdə görmək təbii ki, daha xoş olardı. Bilmirəm Operativ Qərargahın toylarla bağlı qərarı necə olacaq. Hələ gözləyirik".

Ailəsinin toya çox qonaq dəvət etmək arzusuna görə, mərasimi saxlayan nişanlı qızlardan biri də Rəfiqə Balayevadır. Söhbətimiz zamanı Rəfiqə dedi ki, əgər atası razılaşsaydı, toy çoxdan olmuşdu:

"Nişanlımın ailəsi toyu etmək istəyir. Amma atam razılaşmır. Buna görə bir neçə dəfə mübahisəmiz də düşüb. Əgər əvvəlki qaydada toyların keçirilməsinə icazə verilsə, biz də edəcəyik".

Rəfiqənin atasının toyu etməmək üçün özünə görə haqlı səbəbləri də var. Belə ki, 13 ildir qapısında toy olmayan Şərif kişi, bu illər ərzində kimin toyuna getməyib ki?! Dəvət olunduğu heç bir toydan qalmayan ata, bütün bu adamları övladının toyunda görmək istəyir. Elə bu səbəbdən də toyu adət etdiyimiz kimi, 500-ə qədər adamın iştirak etdiyi və günlərlə qonaq-qaranın əksik olmadığı formada etməyi gözləyir.



Təbii ki, bütün bu söz-söhbətlər, qərarsızlıqlar ilk növbədə gənc cütlüklərin psixologiyasına, daha sonra da münasibətlərinə təsir edir. Psixoloq Əfsanə Rüstəmova deyir ki, artıq 7 aydır ki, Azərbaycanın ən böyük bazarı hesab edilən "toyxanalar" fəaliyyət göstərmir. Bu situasiyadan əziyyət çəkən işçi kütləsi və sahibkarla yanaşı ailələrin də öz övladları üçün arzuladıqları təmtəraqlı toy istəyi ürəklərində qalıb:



"Hər hansı bir qərar verilərkən mütləq coğrafiya, etnik, mental və milli dəyərlər göz önünə alınmalıdır. İnsanı yalana təhrik edən qərarlar vətəndaşı dövlətə qarşı çıxmış göstərə bilir. Bu kimi halların olmaması üçün optimal həllər təklif olunmalıdır.

Belə olmadığı halda ortaya bir çox problemlər çıxır. Öncədən həyatlarına dair planlar quran cütlüklər indiki halda çox böyük müəmma içindədir. Bu onları gərginləşdirib münasibətlərində də problem yaradır. Digər tərəfdən valideynlərin və ailə böyüklərinin "yatırım" gözü ilə baxdıqları toyun kiçik heyətlə keçirilməsi arzusu da ailələrdə "kriz"ə səbəb olur. Hər bir halda ortada problem yaranır və bu problemin həlli qeyri-müəyyən vaxta qədər uzadılıb.

Düzdür, "Qaydalar onları pozmaq üçündür" məntiqli davranışlar da sərgiləndi bu zaman kəsimində. Amma böyük əksəriyyət nizamla qərarın yumşalmasını gözləyir. Bu gözləmə zamanı ayrılan nişanlılar, sadəcə toyu gecikdiyinə görə, mübahisə etməyiblər, eyni zamanda "Allah qismət eləmədi", "Bu bir işarədir", "Bəlkə də toyun olsa, daha pis şeylər olarmış" və s. kimi batil inanclardan qaynaqlanır.

Kiçik bir xatırlatma edim. Toy, sadəcə biznes-qazanc və ya dəyər deyil. Toy yaşadığımız ölkədə həm də nəsil artımı üçün bir vasitədir. Odur ki, gəlin aidiyyatı qurumlardan rica edək ki, həm də Azərbaycanın yaxşılığı üçün verdikləri qərarlarda bu məsələni də gündəmdə saxlasınlar".

Hüquqşünas Şamil Paşayev deyir ki, toyların keçirilməməsi ilə bağlı verilən qərar məntiqsizdir:

"Bu gün biz qarşılaşdığımız məkanların bəzilərində bəy və gəlin öz xüsusi libaslarını geyinmirlər. Restoranın qaydalarına uyğun olaraq masalarda 4-6 nəfər olmaqla əyləşib mərasimləri qeyd edirlər. Burada tək fərq gənc cütlüyü adət etdiyimiz libasda görməməyimiz olur. Əgər onlar bu libasda olsa, bu toy hesab olunacaq. Toy da Operativ Qərargahın müvafiq qərarına əsasən qadağandır. Bu qaydanı pozanda inzibati xətalar məcəlləsinin 211-ci maddəsinə görə inzibati məsuliyyətə, eyni zamanda 139-1-ci maddəyə görə cinayət məsuliyyətinə cəlb edilmələri mümkündür. Göründüyü kimi, bu məntiqsiz və absurd bir qərardır. Çünki əgər qapalı və açıq restoranların fəaliyyətinə icazə verilibsə, müəyyən sosial məsafəni qorumaqla insanlar restoranlarda əylənə bilirlərsə, eyni hallara riayət etməklə toy etmək də mümkün olar. Bu birbaşa Operativ Qərargahın müstəsna səlahiyyətində olduğuna görə, onlar da hesab edir ki, bəy və gəlin libası geyinilməməli, toy keçirilməməlidir. Toyla bağlı ümumi mənzərəni dəyişmək vacibdir. Amma bu da hər hansı bir qadağa ilə yox, düşüncə ilə olmalıdır. Bu gün toyların olmaması iqtisadiyyatın demək olar hər bir sahəsinə təsir edir".

Elə Şamil Paşayevin də dediyi kimi toyların keçirilməməsi təkcə gənc cütlüklərə deyil, iqtisadiyyatın bir çox sahələrinə də öz təsirini göstərir. Bunlardan ön sırada gəlinlərdən biri gəlinlik salonlarıdır. Şəhərin bir neçə gəlinlik salonlarına üz tutsaq da, ya bağlı qapılar arxasında qaldıq, ya da bekar oturan satıcıların deyinməsinə şahid olduq. Satıcı Gülnaz İbrahimova deyir ki, aylardır nə sifariş edən var, nə də gəlib-gedən:

"Yayın əvvəlində sifariş verənlər olurdu. Sonradan tarixləri dəyişdilər. Daha sonra isə tamamilə ləğv edərək almayacaqlarını bildirdilər. İndi də gəlib bütün günü bekar otururuq. Heç kim gəlmir. Buna görə biz də yeni geyimlər təşkil etmirik".

Gözəllik salonlarında da eyni situasiya ilə qarşılaşdıq. İndi bura müraciət edənlər gündəlik baxım üçün gələnlərdir. Sözün qısası, biz bu siyahını uzada da bilərik. Hazırda ofisiantından tutmuş müğənnisinə, gül salonlarından şadlıq evlərinə qədər bu yerlərdə işləyən hər kəs toysuzluq sindromundan əziyyət çəkir. Amma bunlar növbəti yazımızın mövzusudur.

# "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin yeni portalı istifadəyə verildi

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Elektron Su Portalı (http://e-su.az) istifadəyə verilib.***

"Unikal" xəbər verir ki, portalın təqdimatı ilə bağlı keçirilən brifinqdə "Azərsu"nun Elektron idarəetmə və müasir texnologiyalar departamentinin rəisi Emil Əhmədov bildirib ki, bu sistem kommunal sektorda ilk dəfədir tətbiq olunur. Portal sentyabrın əvvəlindən ilkin versiyada vətəndaşların istifadəsinə verilib. Portalda "Azərsu"-nun tətbiq etdiyi bir çox elektron xidmətlər vahid platformada birləşdirilib. Bu sistem vətəndaş-məmur ünsiyyətinin minimuma endirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.




Elektron Su Portalına giriş "Asanlogin" üzərindən həyata keçirilir. Sistemə daxil olduqdan sonra abonent kodu, telefon nömrəsi və elektron poçt ünvanı qeyd olunur. Sistem Elektron Hökumət Portalına inteqrasiya olunduğundan qeydiyyat zamanı istifadəçi barədə məlumatlar dərhal sistemdə görünür.

Portalda istifadəçilərə 5 abonent kodunu idarə etmək imkanı yaradılıb və vətəndaşlar həmin kodlara uyğun abonent məlumatlarını dərhal əldə edirlər. Burada içməli su və tullantı su xidmətlərinə görə formalaşmış bildirişlər əldə etmək və ödənişlər aparmaq mümkündür. Eyni zamanda abonentlər bütün ödənişləri ilə bağlı məlumatları da sistem vasitəsilə əldə edə bilərlər. Bu da gələcəkdə ödənişlərlə bağlı mübahisəli məsələləri aydınlaşdırmağa imkan verir. Portal üzərindən əhali qrupu üzrə istehlakçılar mexaniki sayğacların göstəricilərini təqdim edib bildirişləri əldə edə bilərlər. Gələcəkdə vətəndaşlar texniki şərtin alınması, su nümunələrinin yoxlanılması, yeni istifadəçinin qeydə alınması xidmətlərindən də yararlana biləcəklər.

Bu sistem "Azərsu"ya ünvanlanan müraciətlərin icra vəziyyətini izləməyə də imkan verir. Belə ki, vətəndaşlar müraciət etdiyi gündən müraciətin icra vəziyyətini canlı olaraq izləyə bilir. Müraciətin hazırki icra mərhələsi, son icra tarixi və məsul şəxslər barədə məlumatlar əldə edə bilərlər. Müraciətlərin araşdırılması üçün əlavə vaxt tələb olunduqda bu barədə vətəndaşa onlayn qaydada məlumat verilir.

Portalda vətəndaşlar üçün "online çat" imkanı da yaradılıb və istifadəçilər 24 saat bu imkandan yararlana bilər.

Hazırda istifadədə olan ilkin versiyada bəzi xidmətlər aktivdir. Portalda təqdim edilən xidmətlərin çeşidinin genişləndirilməsi üzərində mütəmadi işlər aparılır. Gələn ildən portalın mobil versiyası da istifadəyə veriləcək.

# "Onu meşəyə aparıb, lüt şəklini çəkdim..." - Qocaman fotoqrafın xatirələri

***"Sosial şəbəkələrdən aktiv istifadə etməyim? Hə, maraqlı sualdı. İstəyirəm, dosttanış görsün ki, mən bu yaşımda da dayanmıram, işləyirəm. Çəkdiklərimdən orada paylaşıram, söhbətləşirəm və nələrisə müzakirə edirik. Çalışıram ki, zamanla ayaqlaşım. Bu yaşda da yavaş-yavaş öyrənirəm".***

Lent.az -ın qonağı 73 yaşlı fotoqraf Bahadur Cəfərovdu. Həmkarımız Elnur Kələntərovun vasitəsilə tanış olduq qocaman sənətkarla. Bir ömrə sığmayacaq qədər xatirələri var onun.

- 60-cı illər idi. O vaxt sovetin 10-15 manatlıq aparatları var idi. Hamı onlardan alırdı. Düzdü, ən yaxşı aparat "Zenit" idi. Amma biz "Smena" , "Lyubitel" alırdıq. Çünki "Zenit" tapılmırdı, hər adam ala bilmirdi. "Lyubitel" almanların da ən çox sevdiyi aparat idi. Qiyməti də 12 manat. Hə, bu fotoaparatdan mənim də var idi. Amma bu, fotoqraf olmağa bəs etmirdi. Mən istəyirdim universitetə qəbul olum, oxuyum. Çünki məqsədim operator olmaq, filmlər çəkmək idi. Bu istəyə düşməyimin səbəbi dayım qızı Gülbəniz Əzimzadənin kinorejissor olması idi".

1964-cü ildə Bakı İncəsənət İnstitutunun Mədəni-Maarif fakültəsinə daxil olan gənc Bahadur burda da çətinliklərlə qarşılaşır:

- 15 yaşım vardı. Balaca, arıq oğlan idim. Götürmürdülər məni. Dedilər, bunun heç pasportu yoxu. Sonra məni tanışlıqla qəbul etdilər".

Eyni zamanda, "Azərbaycanfilm" kinostudiyasında çalışmağa başlayan tələbə Bahadur bu müddət ərzində bir çox filmlərin çəkilişində iştirak edir. Azərbaycan kino tarixində "Ulduz", "Arşın mal alan", Sehrli xalat", "Yenilməz batalyon" filmlərində çəkilişləri fotolentə köçürmək ona qismət olur.

- İşığı öyrənmək üçün iki il işlədim və o zamanın məşhur filmlərin çəkilişlərində oldum. Kimlərlə çiyin-çiyinə işləmədim ki... O vaxtkı kinomuzun ulduzları. 15 yaşlı gənc, ağır texnikanı çiyinlərində daşıyır, ora-bura qaçır. Çətin idi, eyni zamanda da maraqlı. Gün o qədər maraqlı keçirdi ki, fərqinə varmırdım iş ağırdı, ya yüngül. İki ildən sonra qərar verdim ki, elə fotoqraf kimi çalışım. Bu, mənim üçün daha maraqlı idi".

**Fotoaparatı əlinə götürür:**

- Bunlar mənim dostlarımdı, mən hara onlar da ora. Bax, fotoaparatlarımdan biri yanımdadır, biri də evdə. Mütləq yanımda biri olmalıdır. Yolda elə bir mənzərə ilə qarşılaşa bilərəm ki, maşını saxlayıb onu çəkərəm. Məsələn, bu gün Böyük şor gölünün yanından keçəndə maraqlı görüntü ilə qarşılaşdım. Bir qadın stulda oturub ayaqlarını gölə sallamışdı. Hə, bax bu, kadr idi! Özümü gülməkdən saxlaya bilmədim. Maraqlı görüntü idi, çəkməsəm, olmazdı. Belə hallarla çox qarşılaşmışam. 2015-ci ildə Avropa oyunlarını çəkdim. Çox çətin idi. İsti bir yandan, ağır texnika bir yandan. Həm də dayanmaq olmazdı, ora-bura qaçmaq lazım idi. Gənc fotoqraflarla birlikdə qaçırdım. Təəccüblə deyirdilər, Bahadur müəllim, siz bu yaşda burada nə edirsiz? Amma mən orda özümdən də yaşlı fotoqraf gördüm və bu, məni daha da həvəsləndirdi. Rusiyadan gəlmişdi. Yaşlı, uzun saqqallı, optimist biri idi. Gülür, danışır, çəkilişlərini edirdi. Dedim, hə, bu lap əla oldu. Qoy məndən də yaşlısı olsun".

**Bahadur müəllim "Ədəbiyyat və İncəsənət" qəzetində işləməyindən də danışır:**

- Dayım Yusif Əzimzadə qəzetin redaktoru idi. Mən də onun yanında fotomüxbir işləməyə başladım. O vaxtın bütün məşhur yazarları ilə görüşmək mənə nəsib oldu. Mirzə İbrahimov, Süleyman Rəhimov, Süleyman Rüstəm, İmran Qasımov kimi sanballı insanlar gəlib-gedirdi redaksiyaya. Onlarla münasibət qurmaq, söhbət etmək asan idi, nəinki indikilərlə. Qətiyyən zəhlətökənlik etməzdilər. Özlərini o qədər sadə aparırdılar ki, heç deməzdin xalq yazıçısıdır. Amma bir-iki nəfər vardı, davranışlarından "Burda mənəm, Bağdadda kor xəlifə" oxunurdu.





Yaradıcılığında "Qarabağ" mövzusu da yer alıb.

- 1987-88-ci illərdə "Azərinform"da, indiki "AzərTAc"da işləməyə başladım. Münaqişə bölgəsinə - Xankəndinə getmək lazım idi. Orda da müharibə, atışma. Hamı qorxurdu. Dedim, mən gedərəm. Yanımda da Malik Şərifov adlı bir nəfər var idi. Gedib Şuşada qaldıq. Yerevandan qaçqın düşən azərbaycanlılar oraya gəlirdi. Şuşa artıq adamla dolmuşdu. Çəkilişə görə gedirdik Xankəndinə, ermənilərin arasına, axşama da Şuşaya qayıdırdıq. Müharibə illərində Füzuli, Xankəndi, Şuşa və bir də ermənilərin məskunlaşdığı Şaumyan rayonunda (indiki Ağcakənd - L.M.) oldum. Həm erməni ailələrini, həm də bizimkiləri çəkirdim. O şəraitdə başıma hər şey gələ bilərdi. Bütün fotoları, lentləri Şuşada saxlayırdım. Qorxurdum ki, başımıza bir iş gələr, görüntülər də gedər. Vəziyyət çox ağır idi. Həmin günlərdə çəkdiklərim arasında elə kadrlar var idi ki, gərək mən onlardan saxlayardım. Amma o lentləri bizdən Moskva götürdü.

**Bu günə qədər minlərlə insan şəkli çəkdiyini deyən qocaman fotoqraf bildirdi ki, bu şəkillər arasında eləəri olub ki, həyatında böyük rol oynayıb:**

- Bakı ilə Şamaxı arasında "Cəngi meşəsi" adlı yer var. Orda qarşıma çox maraqlı bir mənzərə çıxdı. Dərədir və yaz-payız aylarında ora yağış suları dolur. Yayda isə su çəkilir, çatlar əmələ gəlir. O qədər dərin çatlardı ki, ora nə isə düşsə, götürmək qeyri-mümkün olur. Bu məkan diqqətimi çəkdi. Növbəti il bura gələndə özümlə bir model də götürdüm. Orada maraqlı fotosessiya etdik. Torpaq yumşaq olduğuna görə çox gəzməsinə icazə vermədim. Ayaq izləri düşməli deyildi. Mən bu qadını çılpaq çəkdim. Amma elə çəkdim ki, orada mentalitetə zidd heç nə olmadı. Səhnəgə sarılan qadın fotosu jurnalda da yer aldı. Bu fotonun ərsəyə gəlməsi, hazırlanması bir xeyli zaman aldı, amma dəyərdi.

Bir xatirəni də bölüşüm. Teatr muzeyində işləyirdim. Hüseyn Cavidin qızı Turan xanım dedi ki, istəyirəm bizim fotoqraf sən olasan. Çünki mən incəsənəti bitirmişdim və teatrın nə olduğunu çox yaxşı başa düşürdüm. Rejissor Mehdi Məmmədov dedi ki, heç bir fotoqrafla işləmirəm, Bahadur gəlsin. O da mənim işlərimə bələd idi. Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" tamaşasının hazırlığı idi. Hazırlıq vaxtı bir foto çəkdim və heç bilməzdim ki, bu kadr belə alınar. Səhnədə aktyorlar qarışmışdı bir-birinə. Bir tərəfdən də Şəfiqə Məmmədova qaçır və mən bunu çəkdim. Şəkli hazırladım, çıxarıb axırıncı məşq zamanı gətirib rejissora verdim. Mehdi Məmmədov tamaşanı yarıda saxlatdırdı və şəkli göstərib, dedi ki, bir baxın, bu cavan fotoqraf şəkli necə çəkib. Daha sonra Mərkəzi Komitənin orqanı olan "Kommunist" qəzetində o şəkil çap olundu. O qəzetdə hər şəkli verməzdilər".

**Fotoqrafiya sahəsində göstərdiyi fəaliyyətlərə görə bir çox mükafatları var. "Humay" Milli Mükafatının laureatıdır. 2005-ci ildə Bakıda keçirilən "Quraqlıq" ekoloji məsələlər üzrə beynəlxalq müsabiqədə mükafata layiq görülüb:**

- Yaşından və məşhurluğundan asılı olmayaraq, qazandığın hər kiçik mükafat insana xüsusi həyəcan və sevinc bəxş edir. 2005-ci ildə keçirilən "Quraqlıq" ekoloji məsələləri üzrə beynəlxalq müsabiqə üçün çəkdiyim foto quraqlıq bir sahədə tikan şəkliydi. Susuzluqdan çatlayan torpaq və saralmış tikan. Bu foto böyük diqqətə sahib olmuşdu. Təkcə müsabiqədə deyil, eyni zamanda, çap olunan kitablarda da mənim fotolarımdan istifadə olunub. Mənim üçün əsas qonorar deyil, əsas odur ki, bu kitab çap olunsun və mənim işlərim də orada yer alsın.

**Bahadur Cəfərov deyir ki, fotoqrafın gözü adi insanın görmədiyi incəlikləri sezməyi bacarmalıdır. Onun fərqi də elə bundadır:**

- Quraqlıq ərazidə çəkdiyim qurumuş tikan fotosunun tarixçəsini danışım sizə. Neftçiləri çəkmək üçün getmişdim. Orada yağışdan sonra cadarlanan çox balaca bir yerdə rəngi saralan tikan gördüm. Dedim, bu elə hazır əsərdi də. Sadəcə, düzgün çəkmək lazımdır. İndi mən baxıram bu tikana ki, hansı tərəfdən çəkim. Diz üstə çöküb, fotoaparatı tuşladım. Yaxınlıqdan keçən iki neftçi mənə baxıb gülərək "ay dayı, o palçığa niyə girmisən?" soruşdular. Mən də dedim ki, tikanı çəkirəm. Bu onlara qəribə gəldi. Amma həmin foto müsabiqədə uğur qazandı.

**Heydər Əliyevlə bağlı maraqlı xatirələri var. Deyir, yeganə insan idi ki, hər an şəkil çəkdirməyə hazırlıqlı olardı:**

- Üzü həmişə gülürdü. İstənilən kadrda yaxşı düşürdü. Bir dəfə Şıxəli Qurbanovun yubileyində iştirak edirdim. Ön sırada da Heydər Əliyev əyləşmişdi. Çəkdim onu. Şəkilləri saxladım ki, bir gün görüşəndə özünə təqdim edərəm. Amma qismət elə gətirdi ki, ailə üzvümüz gənc qrafik-rəssam Əli Cəfərin sərgisi oldu və Heydər Əliyev də orada iştirak edirdi. Mən də aparatla bir kənardan çəkirəm. Yaxınlaşıb, salam verdim. Təbii ki, ona yaxınlaşmağıma mane olmaq istəyirdilər. Amma o özü bunu hiss etdi və mənə tərəf çevrildi. Şəkilləri ona təqdim etdim. Baxıb, təəccüblləndi, dedi "Nə gözəl şəkillərdir, bunları nə vaxt çəkmisən?" Heydər Əliyev elə bir insan idi ki, hər bir sahə haqqında məlumatı vardı. Fotoqrafa deyərdi ki, orda yox, gəl burda dur çək. Sonra görürdün ki, düz deyir. Şəkili o deyən yerdən çəkəndə daha keyfiyyətli alınır. Bu hadisələri xatırladıqca adam kövrəlir. Çox gözəl günlər idi.

**Bahadur Cəfərovun fikrincə, bir fotoqraf üçün ən faciəli hadisə fotoaparatının əlindən alınması olar. Çünki o hara getsə, fotoaparat lazımı olur:**

- Fotoqraf getdiyi hər yerdə nə isə kiçik də olsa, bir mənzərə görür və onu çəkir. Məsələn, mən nə qədər şəkillər çəkmişəm. Şərt deyil ki, bu şəkillər kiməsə lazım olacaq, ya yox. Sadəcə, çəkirəm və saxlayıram. Amma bir də görürsən, sənin çəkdiyin şəkli başqa biri götürür, müəllif hüquqlarını da pozur. Belə şeylər başıma çox gəlib. Gəlib şəkil istəyib, demişəm otur seç. Hardan bilim ki, aparıb öz adından verəcək.

**Bir çox məşhurların fotosessiyasını edən fotoqraf deyir ki, onların icazəsi olmadan heç vaxt şəkilləri harasa verməyib. Təbii ki, şəkil çəkdiyi vaxt təzyiqlə qarşılaşdığı da olub:**

- Eləsi olub ki, gəlib şəkillərini çəkdirib. Elə-belə, özü üçün. Paylaşmaq üçün yox. Mən şəkil çəkəndə demirəm ki, dayan çəkirəm. Gördüyümü çəkirəm. Rayonlarda çəkilişlər edərkən təzyiqlə qarşılaşdığım çox olub. Gülən bir qadın çəkmişdim, qadın bunu görüb gəldi ki, niyə çəkirsiz, kim icazə verdi? Belə hallar çox olurdu. Amma onu da deyim ki, turistləri çəkəndə onlar əksinə, yaxınlaşıb təşəkkür ediblər.

**Müsahibimiz deyir ki, yaxşı fotoqraf olmaq üçün bahalı fotoaparatın olması yetərli deyil:**

- Mən muzeylərə gedirəm, məhz fotoqrafiyaya aid çoxlu kitablar və jurnallar alıram. Həm oxuyuram, həm də orada olan fotolara baxıram. İlk olaraq öyrənmək, daha sonra tətbiq etmək lazımdır.

*Lamiyə Məmmədova*

## Bacı-qardaş qısqanclığının uşaq psixologiyasına təsiri

***Yəqin ki, evə yeni körpənin gəldiyi zaman onun böyük bacı və qardaşının körpəni necə qısqandığını görmüsünüz. Bu hər bir evdə ikinci uşağın gəlişi ilə baş verən bir hadisədir. Bu cür qısqanclıqlar adətən 2-6 yaş arası uşaqlar arasında baş verir.***

Ananın qarnı böyüdükcə ətrafdakıların suallarını cavablandırmağı, evdəki körpə uşağın diqqətini çox çəkir. Evə ikinci uşağın gələcəyini hiss edən azyaşlı, ikinci uşağı elə həmin vaxtdan qısqanmağa başlayır. Uşağın dünyaya gəlişi və ananın yeni doğulmuş körpəyə tez-tez qulluq etməsi isə bu qısqanclığı daha da alovlandırır.

Evdə azyaşlılar arasında olan qısqanclıqlar ailədə narahatçılıqlara səbəb olur. Bu hal istər-istəməz uşaqların psixologiyasına da pis təsir edir. Bəs bu zaman nə etmək lazımdır?

Valideyn birinci uşağın psixologiyasında dəyişiklik hiss etsə, mütləq psixoloqa müraciət etməlidir.

Ailədəki uşaqlar arasında yaş fərqi nə qədər çox olarsa, qısqanclıqların da dərəcəsi bir o qədər çox olur. Psixoloqlar azyaşlı qardaş və bacılar arasında olan münasibətlərin aşağıdakı həddə çatdıqda, psixoloqa məsləhət etməyi tövsiyyə edirlər:

- biri digərinə zərər verdikdə
- uşaqlardan biri özünə qapandıqda
- biri digərinin qidalandığı zaman ona mane olmağa çalışdıqda
- uşaqların hər ikisində və ya birində əsəbilik əlamətləri hiss edildikdə.

## Nevrozlar və vegetativ distoniya sindromu

***Vegetativ pozulmaları törədən əsas səbəblərdən biri də nevrozlardır. Vegetativ sinir pozulmaları ilə emosional mühit arasında xüsusi əlaqənin olması çoxdan tibb elminə məlumdur. Son zamanlar hətta psixovegetativ sindrom sözünün tibb elminə daxil olması bununla əlaqədardır.***

Nevrozlar zamanı əvvəlcə emosional pozulmalar, sonra isə vegetativ dəyişikliklər meydana çıxır. Vegetativ əlamətlər nevrotik pozulmaların formasından və itensivliyindən asılı olaraq dəyişir. Bu özünü vegetativ pozulmalarda olan aşağıdakı patologiyalarla göstərir:

- asteniya
- depressiv vəziyyət
- qorxu
- ipoxondrik təzahürlər
- qorxu
- yuxunun pozulması.

Son illərdə vegetativ sinir sistemi patologiyalarının əmələ gəlməsində nevrozların bir çox əlamətlərinin xəstəlikönü hal kimi qiymətləndirilir. Bu əlamətlərə "təşviş hücumları" diaqnozu aiddir. "Təşviş hücumları"na təngnəfəslik, ürəkdöyünmə, döş sümüyü arxasında xoşagəlməz hisslər və ya ağrı, boğulma, tənəffüsün ağırlaşması hissi, başgicəllənmə, səndələmə, bayılma, əsmə və titrəmə, ölüm qorxusu, dəli olmaq qorxusu və s.aiddir. Əgər xəstələrdə bu əlamətlərdən 4-ü 3 həftə ərzində 3 və artıq baş verərsə, bu zaman "təşviş hücumları" diaqnozu təsdiq edilir. Bu diaqnozun qoyulması isə xəstənin gələcəkdə vegetativ sinir sistemi xəstəsi olmasının təsdiqləyir.

Vegetativ pozulmalar xəstəni ürək, mədə-bağırsaq, damar keçiriciliyinin pozulması, endokrin sistemin xəstəlikləri əlamətləri ilə narahat edir.

Müalicə zamanı su prosedurları, müalicə idmanı, sinir sistemini sakitləşdirən dərmanlardan istifadə edilir. Xəstəliyin əmələ gəlməsində digər amillərin rolu varsa, aradan qaldırılır. Daxili və endokrin sistemin xəstəlikləri müşahidə edildikdə, klimaks, allergiya zamanı əsas xəstəliklərin də müalicəsinin aparılmasının vegetativ pozulmaların aradan qaldırılmasında rolu böyükdür.

Xəstəliyin psixovegetativ olduğunu nəzərə alaraq emosional mühitin yaxşılaşdırılmasına xüsusi əhəmiyyət verilir.

# İnsultun baş verməsini öncədən bilmək istəyirsinizmi?

***Əgər sizin yanınızda yaşlı birinin qəflətən yıxıldığını və ayağa durarkən heç bir şey olmadığını dediyini görsəniz onu mütləq xəstəxanaya çatdırmağınız məsləhətdir.Çünki,bu insultun əlaməti ola bilər.***



İnsult necə baş verir və onun ilkin əlamətləri hansılardır?

Neyrobioloqlar insultun qəfil baş verdiyini,amma onun əlamətlərini özünü əvvəlcədən göstərdiyini söyləyirlər.İnsultun əlamətlərini əvvəlcədən bilmək xəstəni əlil olmaqdan və ölümdən xilas edə bilər.

İnsultun baş verəcəyini əvvəlcədən bildirən 4 əsas əlamət:

1 Yaşlı və insult şübhəsi olan adamdan dilini çölə çıxarmağı xahiş edin.Əgər o bunu edə bilmirsə bu zaman mütləq həkimə müraciət edin.

2 İnsult şübhəsi olan adamdan gülümsəməyi xahiş edin.Əgər o gülə bilmirsə və ya bunu çətinliklə həyat keçirməyə çalışırsa deməli insult təhlükəsi var.

3 İnsult şübhəsi olmasını yoxlamaq istəyirsinizsə yaşlı adamdan əlini başına aparmağı xahiş edin.Əgər o əlini başına bir həmlədə deyil,kəsik hərəkətlərlə aparırsa deməli onun insult olma təhlükəsi var.

4 Yaşlı adamdan iki uzun sözü ardı-ardına söyləməyi xahiş edin.Əgər o bu sözləri deməyə çətinlik çəkirsə o zaman onun insulta yaxalanma təhlükəsi var.

Mütəxəssislər aşağıdakı əlamətləri olan yaşlı adamların yaxınları tərəfindən həkimə aparılmasını vacib sayırlar.Bu əlamətlərə aiddir:

- baş ağrıları
- ətraflarda hissiyyatın itməsi
- baş hərlənməsi və qəfil yıxılma
- bir və ya iki tərəfli görmənin qəfil itməsi
- qəfil və səbəbsiz baş verən ürəkbulanma
- müvazinətin itməsi
- huşun qəfil itməsi

Mütəxəssislər yuxarıda oxuduqlarınızın ən azı ətrafınızda olan 10 adama söyləməyinizi xahiş edirlər.-Çünki,bu məlumatlar bir çox insult şübhəsi olan insanın həyatını xilas edər və onu əlil olmaqdan və ölümdən qoruyar.

# Kişilər və qadınlar haqqında maraqlı faktlar

***Kişilər və qadınlar arasında olan fərq yalnız onların arasında olan anatomik fərdən ibarət deyil. Mütəxəssislərin araşdırmaları qadın və kişi arasında olan bir-neçə faktı ortaya çıxarıb.Bu faktların sizin üçün də maraqlı olacağına əminəm:***

1. Cinsi əlaqədən sonra kişilər öz qadınlarının cinsi fəallığının az olduğunu düşünür, amma qadınlara elə gəlir ki, onların yatdıqları kişi daha da cazibədar olub.

2. Psixoloqlar sevgi romanlarını çox oxuyan qadınların seks həyatında daha aktiv olduğunu söyləyirlər.

3. Kəbin kəsdirən zaman qadınların əksəriyyəti gülümsəyir, kişilərin əksəriyyəti isə qımışır.

4. Qızların özlərini xoşbəxt hiss etməsi onların gözəlliyi ilə eyni ölçüdə olur. Amma hesablamalar gözəl qızların 25%-nin həyatda xöşbəxt olmadığını təsdiq edir.

5. Bizə elə gəlir ki, kişilər hissiyyatsız olurlar. Amma hesablamalar sevgisizlikdən intihar edən kişilərin sayınınqadınların sayından qat-qat çox olduğunu təsdiq edir.

6. Mütəxəssislər siqaret çəkən qadınların özünə hörmət qoymayan qadınlar olduğunu söyləyirlər.

7. Hamı alkoholun kişidən çox qadına pis təsir edəcəyini düşünür, amma qadın orqanizminin kişi orqanizmindən data tez alkoholu həzm etmək qabiliyyətinin olduğunu bilmir.

8. Qadınların hissetmə qabiliyyəti kişilərdən qat-qat çox olur. Bu səbəbdən də kişilərə qadınları aldatmaq məsləhət deyil.

9. Hər bir qadın sevdiyi oğlan dostunun ona geri qayıdacağını düşünür. Amma oğlanlar haqqında bu fikri söləmək olmaz.

10. Dünyada ilk kompyuter proqrammçısı İngiltərədə yaşayan Ada Lavleys olub.

11. Subayların yarısından çoxu 27 il valideyinləri ilə yaşayırlar.

12. Subayların 66%-i öz yeganə sevgililərini axtarırlar.

13. Əksər oğlanların evlənənə kimi 4-6 sevgilisi və arxasıyca gəzdiyi 50-100-ə yaxın qız olur.

14. Oğlanın qıza baxdığı zaman ilk etdiyi iş baş barmağını şalvar kəmərinin arxa tərəfinə salmaq olur.

15. Kişilər ətraflarında başqaları olan zaman qadınını ona ağıl öyrətməyindən xoşlanmırlar. Əgər belə bir fikriniz olarsa, onu təklikdə edə bilərsiniz.



16. Əgər bir qız bir oğlanın xoşuna gəlibsə, mütləq həmin gün ona zəng vuracaq.

17. Əklsər oğlanlar qızın fiqurasından çox üzünün gözəl olmasını arzulayırlar.

18. Oğlanların 30% telfonlarından əvvəlki sevgililərinin adlarını silmirlər.

19. Oğlanlarının özünəməxsus fikirləri olan qızlardan xoşu gəlir.

20. Komplementlərdən qadınlardan çox kişilərin xoşu gəlir.


# Nevrozlar və vegetativ distoniya sindromu

***Vegetativ pozulmaları törədən əsas səbəblərdən biri də nevrozlardır. Vegetativ sinir pozulmaları ilə emosional mühit arasında xüsusi əlaqənin olması çoxdan tibb elminə məlumdur. Son zamanlar hətta psixovegetativ sindrom sözünün tibb elminə daxil olması bununla əlaqədardır.***

Nevrozlar zamanı əvvəlcə emosional pozulmalar, sonra isə vegetativ dəyişikliklər meydana çıxır. Vegetativ əlamətlər nevrotik pozulmaların formasından və itensivliyindən asılı olaraq dəyişir. Bu özünü vegetativ pozulmalarda olan aşağıdakı patologiyalarla göstərir:

- asteniya
- depressiv vəziyyət
- qorxu
- ipoxondrik təzahürlər
- qorxu
- yuxunun pozulması.

Son illərdə vegetativ sinir sistemi patologiyalarının əmələ gəlməsində nevrozların bir çox əlamətlərinin xəstəlikönü hal kimi qiymətləndirilir. Bu əlamətlərə "təşviş hücumları" diaqnozu aiddir. "Təşviş hücumları"na təngnəfəslik, ürəkdöyünmə, döş sümüyü arxasında xoşagəlməz hisslər və ya ağrı, boğulma, tənəffüsün ağırlaşması hissi, başgicəllənmə, səndələmə, bayılma, əsmə və titrəmə, ölüm qorxusu, dəli olmaq qorxusu və s.aiddir. Əgər xəstələrdə bu əlamətlərdən 4-ü 3 həftə ərzində 3 və artıq baş verərsə, bu zaman "təşviş hücumları" diaqnozu təsdiq edilir. Bu diaqnozun qoyulması isə xəstənin gələcəkdə vegetativ sinir sistemi xəstəsi olmasının təsdiqləyir.

Vegetativ pozulmalar xəstəni ürək, mədə-bağırsaq, damar keçiriciliyinin pozulması, endokrin sistemin xəstəlikləri əlamətləri ilə narahat edir.

Müalicə zamanı su prosedurları, müalicə idmanı, sinir sistemini sakitləşdirən dərmanlardan istifadə edilir. Xəstəliyin əmələ gəlməsində digər amillərin rolu varsa, aradan qaldırılır. Daxili və endokrin sistemin xəstəlikləri müşahidə edildikdə, klimaks, allergiya zamanı əsas xəstəliklərin də müalicəsinin aparılmasının vegetativ pozulmaların aradan qaldırılmasında rolu böyükdür.

Xəstəliyin psixovegetativ olduğunu nəzərə alaraq emosional mühitin yaxşılaşdırılmasına xüsusi əhəmiyyət verilir.

# "Qarabağ" Avroliqada bu səbətdə yer ala bilər



***Azərbaycan çempionu "Qarabağ"ın Avropa Liqasının qrup mərhələsinin püşkatması zamanı yer ala biləcəyi səbət bəlli olub.***

"Unikal" qəzeti xəbər verir ki, pley-offda Polşa təmsilçisi "Legiya" ilə qarşılaşacaq Ağdam klubu mərhələ adlasa, püşkdə ən azı 3-cü səbətdə yer alacaq.

Reytinqi 21,000-a bərabər olan Qurban Qurbanovun yetirmələri hətta daha yüksək səbətə də düşə bilər. Əgər pley-offda ciddi sensasiya baş verməsə, "Qarabağ" qrup mərhələsinə qatılacaq 48 komanda arasında 28-ci göstəriciyə malik olacaq.

Bu, ağdamlıların 3-cü səbətin 4-cü komandası olması deməkdir. Baş verəcək sensasiyalar, yəni cütlərin favoritlərinin büdrəməsi "Qarabağ"ın lehinədir.

Daha yüksək reytinqə malik komandalardan dördü büdrəsə, Azərbaycan çempionu 2-ci səbətə qalxacaq. Bu, ən azı iki münasib rəqiblə qarşılaşmaq imkanı verəcək.

Səfərdə "Legiya"nı keçməli olan "Qarabağ" üçün aşağıdakı klubların büdrəməsi sərfəlidir: "Srvena Zvezda", "Yanq Boyz", "Seltik", "Lüdoqorets", "Dinamo" Zaqreb, "Tottenhem", "Bazel", "Sportinq", "Kopenhagen", PSV, "Volfsburq", "Viktoriya", APOEL, "Qalatasaray" və "Malmo".

Qeyd edək ki, pley-off mərhələsinin oyunları oktyabrın 1-də, qrup mərhələsinin püşkatması ertəsi gün baş tutacaq.

"Qarabağ"ın Avropa Liqasının pley-off mərhələsində Polşada "Legiya" ilə keçirəcəyi matç oktyabrın 1-də Bakı vaxtı ilə saat 22:00-da başlayacaq. Görüş "Voyska Polskoqo" stadionunda təşkil olunacaq.

# Federasiyaya prezident seçkiləri təxirə salındı

***Beynəlxalq Ağır Atletika Federasiyasının (İWF) prezident seçkiləri təxirə salınıb.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə federasiyanın İcraiyyə Komitəsi qərar qəbul edib.

Buna koronavirus pandemiyası səbəb olub. Beləliklə, 2021-ci ilin yanvarında keçirilməli olan Seçki Konqresi marta qədər təxirə salınıb.

Qeyd edək ki, hazırda İWF-in prezidenti vəzifəsini Ursula Palandrea icra edir. O, aprelin 15-də istefası qəbul olunan Tomaş Ayanı əvəzləyib.

# FIFA nizamnaməni pozan assosiasiyaya cəza verdi

***FIFA Trinidad və Tobaqo Futbol Assosiasiyasının (TTFA) fəaliyyətini müvəqqəti dayandırıb.***

"Unikal" qəzeti xəbər verir ki, buna TTFA-nın ali futbol qurumunun nizamnaməsini pozması səbəb olub.

FIFA Şurası əvvəllər assosiasiyanın işini normallaşdırmaq üçün komitə yaradıb, lakin qarşı tərəf yerli məhkəməyə şikayət etmək qərarına gəlib. Bu isə FIFA-nın qaydalarına ziddir.

Qadağa bütün pozuntular aradan qaldırıldıqdan sonra və FIFA üzvü kimi öhdəliklər tam yerinə yetirildikdə götürüləcək.

***




Futbolçunu öldürmək üçün killer tutan arvadına şok cəza Türkiyə millisinin sabiq üzvü Emre Aşıkı öldürmək üçün killer tutan keçmiş həyat yoldaşı Yağmur Sarnıç və killerın işi ilə bağlı hazırlanan məhkəmə iddianaməsinin detalları açıqlanıb.

"Unikal" qəzeti xəbər verir ki, iddianaməyə əsasən, futbolçunun keçmiş xanımı və killer 13 ildən 20 ilədək azadlıqdan məhrum edilə bilər.

Qeyd edək ki, Yağmur Sarnıç karyerası ərzində "Qalatasaray", "Beşiktaş", "Fənərbağça" kimi klublarda oynamış Emre Aşıkın ölümünü planlaşdırırmış. Belə ki, Yağmur Sarnıç Düzcedə yol nəzarəti zamanı jandarma tərəfindən həbsxanadan qaçmış Erdi Sunqurla birlikdə saxlanılmış, avtomobildən 2 silah tapılmışdı. Daha sonra Erdi Sunquru gizlədən İ.Y saxlanılıb. Cinayət planını da polisə həmin şəxs açıqlayıb.

Məlum olub ki, Yağmur Sarnıç Erdi Sunqur vasitəsi ilə Emre Aşık və vəkili Funda Sadıkahmet Alpı öldürərək, Düzcedə basdırmağı planlayırmış.

İ.Y polisə ifadəsində bunları deyib: "Səhər yeməyi zamanı Emre Aşıkı öldürmək üçün plan qurdular. Pullarını ələ keçirmək üçün öldürəcəklərini dedilər. Erdi Sunqur mənə "Emreni öldürsən pullar Yağmura qalacaq. Həmin puldan sənə 10 milyon lirə verəcəm. Sən onu öldürəcəyimiz yeri mənə göstərəcəksən" dedi. Yağmur isə "Emreni öldürdükdən sonra burda basdıra bilərik. Burda kimsə yoxdu" bildirdi. Geri qayıdarkən maşındakı iki silahı göstərib "Niyyətimiz ciddidi. Onu öldürəcəyik" dedilər" Emre Aşıkın vəkili Funda Sadıkahmet Alp da faktı təsdiqləyib: "İddianaməni görəndə şoka düşdük. Bu planı hazırlayan Yağmur Sarnıçla Erdi Sunqur hazırda həbsdədi. Erdi Sunqur mənə açıq şəkildə etiraf etdi. "Məqsədimiz sizi və Emre Aşıkı öldürmək idi" dedi".




# "Fənərbağça" yeni hücumçu aldı

***"Fənərbağça" klubu yeni transferini həyata keçirib.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə klubun rəsmi saytı məlumat yayıb.

İstanbul təmsilçisi İngiltərə "Aston Villa"sından Mbvana Samattanı heyətinə qatıb. 27 yaşlı tanzayalı hücumçu ilə 4 illik müqavilə imzalanıb.

Samatta 2021-ci ilin yayınadək icarə əsasında "Fənərbağça"da oynayacaq, daha sonra kluba transferi rəsmiləşəcək. Bu keçid qarşılığında "Aston Villa"ya 6 milyon avro ödəniləcək.

Qeyd edək ki, Mbvana Samatta "Aston Villa"ya bu ilin əvvəlində keçmişdi.

# Millinin baş məşqçisi federasiya prezidenti oldu

***Bu gün Azərbaycan Əlillər Futbolu Federasiyasının (AƏFF) videokonfrans formatında konfransı keçirilib.***

"Unikal" qəzeti AFFA-nın saytına istinadən xəbər verir ki, konfransda Sahə Futbol Federasiyaları İctimai Birliyinin prezidenti, AFFA-nın İcraiyyə Komitəsinin üzvü Mahir Məmmədov, AFFA-nın baş katibinin müavini Sərxan Hacıyev, Əlillər Futbolu Federasiyasının icraçı direktoru, eşitməqüsurlu futbolçulardan ibarət milli komandanın baş məşqçisi Elşad İbrahimli və digər rəsmi şəxslər iştirak ediblər. Konfransı giriş sözü ilə Mahir Məmmədov açıb. Əvvəlcə Əlillər Futbolu Federasiyasının sabiq prezidenti mərhum Şaiq Həmidovun xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra federasiyanın icraçı direktoru ötən müddət ərzində görülmüş işlər barədə hesabat xarakterli çıxış edib. Konfransda Azərbaycan Əlillər Futbolu Federasiyasının prezidenti vəzifəsinə seçki keçirilib. Elşad İbrahimli federasiyanın prezidenti seçilib.

# Tottinin səsli mesajı qadın futbolçunu komadan ayıltdı

***"Roma" azarkeşi olan gənc qadın futbolçu İleniya Matilli avtomobil qəzasından sonra düşdüyü komadan 10 ay sonra ayılıb.***

"Unikal" qəzeti xəbər verir ki, onun komandan çıxmasına "Roma"nın əfsanəsi futbolçusu Françesko Tottinin səsli mesajı olub.

"Latsio"nun qadınlardan ibarət komandasında çıxış edən İleniya Matilli rəfiqəsi Martina Oro ilə birlikdə 2019-cu ilin dekabrında avtomobil qəzasına düşmüşdü. 20 yaşlı Martina Oro qəzada dünyasını dəyişmiş, 18 yaşlı futbolu isə komaya düşmüşdü.

Bu müddətdə "Roma" azarkeşləri gənc futbolçuya yüzzlərlə dəstək mesajı göndərmişdi. Dəskət aksiyasına qoşulan Françesko Totti də "Roma" azarkeşi olan İleniya Matilliyə səsli mesaj göndərib. Veteran futbolu gənc xanıma "İleniya, əsla təslim olma. Sən bunu bacaracaqsan... Hamımız yanındayıq" deyib.

Mesaj xəstəxanada İleniya Matilliyə dinlədilib və 18 yaşlı futbolçu bundan sonra komadan ayılıb. Bu hadisədən böyük sevinc yaşayan futbolçunun ailəsi Tottini xəstəxanaya dəvət edib. Əfsanəvi futbolçuya təşəkkür etmək istəyən Matillinin ailəsinin verdiyi açıqlamada deyilir:

"Sənin sevgilə birləşən möhtəşəm səsin, "Roma"ya hər zaman böyük sevgi hiss edən İleniyanın oyanmasına səbəb oldu. Onun üzündəki gülümsəmə, gözlərindəki işıq və sevgi sənin sayəndə geri qayıtdı. Sevgili Françesko, səni yanımızda görmək istəyirik. İleniya səni gözləyir".

**Səhifəni hazırladı: Aygün İlqarqızı**

# Roza ilə Miri Yusif arasında qalmaqal: "Sən müğənni deyilsən, sadə ol"



**Müğənni Roza Zərgərli Xalq artisti Miri Yusif barədə qalmaqallı açıqlama verib. Lent.az -ın canlı yayımında qonaq olan R.Zərgərli bildirib ki, M.Yusifi müğənni hesab etmir:**

"Mən Miri Yusifə qulaq asa bilmirəm. Ona "Dəyirman" qrupu vaxtında qulaq asa bilirdim. Onun bir "Ad günü" mahnısını bilirəm. Onun yaradıcılığını izləmirəm. Mən repə 24 saat qulaq asa bilərəm. Məsələn Elşad Xoseyə 24 saat qulaq asaram. Əslində Miri Yusif başqa şeylərə görə məndə qıcıq yaradır. Ağac nə qədər bar versə, başını aşağı salmalıdır. Miri Yusiflə münasibətim yaxşıdır, amma bu iradı deməliyəm. Mən solo konsert verəndə, "Dəyirman" qrupu konsertimin fasiləsində səhnəyə çıxırdı. O konsertimə Aygün Kazımova, Elşad Xose də gəlmişdi. Miri Yusif əvvəldən ulduzluq xəstəliyinə tutulub. İnsan irəlilədikcə daha sadə olmalıdır. O qrupda olanda mən solo fəaliyyət göstərirdim, mən dəyişmədim ki? Bu artıq mənim insanlıq xüsusiyyətimdir.

Miri Yusif müğənni deyil, o, musiqili rep janrını oxuyur. O janrı da Elşad Xosedən əvvəl və sonra oxuyan görmədim. İndi bunun haqqında danışdım, deyəcək ki, özünə reklam qazanmaq istəyir. Camaat mənlə özünü reklam edir, mənə belə reklam lazım deyil. Ətrafımda olan çox insan məndən çəkinir. Çünki bilirlər ki, mən sözü üzə deyən adamam".

# Toysuz qalan müğənnilər nə işlə məşğuldur? - "Maddi vəziyyət pis deyil"

***"Xalqımın toy kimi bir adəti var" deyiblər. Bu adəti də musiqisiz, rəqssiz düşünmək qeyri-mümkündür. Bəs görəsən qazanc yeri toylar olan ifaçılar karantin müddəti ərzində necə dolanıblar, nə işlə məşğul olublar?***



"Unikal" xəbər verir ki, redaktor.az bir neçə sənət adamı ilə əlaqə saxlayıb, bu məsələ ilə bağlı fikirlərini öyrənib.

Əməkdar artist Yusif Mustafayev karantin müddətində hər kəs kimi qaydalara əməl etdiyini, evdə qaldığını deyib:

"Ölkənin bu çətin zamanında bir vətəndaş kimi mən də müəyyən qədər yardımlarımı etdim, qaydalara riayət elədim. Maddi baxımdan da çox yaxşıdır hər şey. Belə bir söz var ki, "Ehtiyatlı igidin anası ağlamaz". Müəyyən qənaətlərlə çətin günləri çox yaxşı keçirdim. Tovuz hadisələrinə aid mahnılar oxudum və klip ərsəyə gətirdim. Karantin dövründə öz yaradıcılığımı davam etdirdim".

Karantində öz fəaliyyətini davam etdirən Elvin Mirzəzadə də günlərini belə təsvir etdi: "Əslində davamlı şəkildə işlə məşğul olan insanlara 15, yaxud 20 gün istirahət bəs edir. Ancaq karantin dövrü bir çox insana istirahətin pik həddini yaşatdı, xüsusilə də musiqi sahəsində çalışanlara. Evdə musiqi ilə məşğul olmaq mümkündür, amma insanların qarşısında, səhnədə olmadığın üçün bu işdən çox da zövq almaq olmur. Amma yenə də bu müddət ərzində yeni layihələr hazırladım. Onları ictimaiyyətə təqdim etmək üçün pandeminin biraz azalmasını, vəziyyətin normallaşmasını gözləyirəm".

Karantini bəhanə etmədən işinə davam edən digər müğənni Əhməd Mustafayev də deyib ki, yaradıcılığı olduğu kimi davam edir: "Yeni musiqilər, kliplər hazırlamaqda davam edirik. Yaradıcılığı dayandırmırıq. Ümid edirəm ki, vəziyyət çox yaxşı olacaq".



# "Əvvəl bir köynəyə 2 min verirdim, indi isə..." - Günel Ələkbərova

***"Hər zaman çalışırdım ki, brend geyinim. Hətta xaricdə belə ən bahalı və brend geyimləri seçirdim".***

Bu sözləri müğənni Günel Ələkbərova "Xəbər ətər" proqramında deyib. O bildirib ki, bir vaxtlar bahalı geyimlərə üstünlük verirdi: "Əvvəllər bir köynəyə 1500-2000 verməyi düşünürdüm. Doğrudan da mənim ağlım olmayıb. Bəzi insanlarla rastlaşanda baxırsan ki, brend geyinsə də əynində əski parçası kimi görünür. Elə adam da var ki, adi 30-40 manatlıq bir şey geyinsə də gözəl və sanballı görünür".

Günel daha sonra bəzi sənət adamlarını tənqid edib: "Tamaşaçılar elə bilir müğənnilər super yaşayır. Bu da özünü reklam edən müğənnilərə görədir: ay mənim villam, bahalı maşınım. Çoxu da özününkü deyil. Bir söz yazan kimi camaat başlayır ki, sizə nə var ey, yaşayırsız. Bizim də sıxıntımız, maddi ehtiyacımız olur".



# "Bütün şəkillərdə burnumu fotoşopla düzəldirdim" - Günel

***Müğənni Günel Zeynalova bir neçə gün əvvəl burnundan ikinci dəfə plastik əməliyyat olunub.***

Axşam.az xəbər verir ki, sənətçi İnstaqramda ünvanına yazılan tənqidlərə cavab verib. O bildirib ki, estetik əməliyyat etdirməsinə səbəb problemlər olub:

"Nəfəs ala bilmirdim, burnum çökdü. Hər dəfə şəkillərdə burnumu fotoşopla düzəltməkdən yoruldum. Gördüyünüz bütün fotolarda burnumu düzəldirdim. Görünüş bir yana, burnum sağlamlığıma təsir edirdi. Nəfəs alıb-verə bilmirdim və oxumağıma təsir edirdi".

# "Allah bəndəsi olsa, ikinci dəfə ailə quraram" - Afaq Gəncəli

***Aparıcı Afaq Gəncəli "Üçümüz" proqramında qonaq olub. Aparıcı ona ünvanlanan sualları cavablandırıb.***

"Şou aləmində hamı ilə dostam. Məni işsizlik, təklik, səssizlik yorur və bezdirir. Tək qalmağı, səssiz yeri sevmirəm. bütün günüm gərək ora-bura qaçmaqla olsun" deyə, Afaq bildirib.

İkinci dəfə ailə qurub-qurmaması ilə bağlı suala isə Afaq "Şəxsi həyatıma məşhurluğum mane olur, mənə rahat deyil. Bir Allah bəndəsi olsa, ikinci dəfə ailə quraram. Amma Allah bəndəsi yoxdur" reaksiyasını verib.